Xalqın qəzeti!

# Xalq qəzeti

№ 200 (30894) 19 sentyabr 2025-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Avropa İttifaqı Azərbaycanla əməkdaşlığa böyük önəm verir

## Prezident İlham Əliyev Avropa İttifaqının Genişlənmə üzrə komissarını qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 18-də Avropa İttifaqının Genişlənmə üzrə komissarı Marta Kosu qəbul edib.**

Marta Kos Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşması və sülh gündəliyinin irəlilədilməsi istiqamətində əldə edilmiş nailiyyətlər münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı. Qonaq dedi ki, Avropa İttifaqı regionda davamlı sülhün təmin olunmasına yönəlmiş səylərə və Azərbaycanın humanitar minatəmizləmə sahəsindəki fəaliyyətinə dəstəyini bundan sonra da davam etdirəcək.

Komissar Marta Kos Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində uğurlu əməkdaşlığın qurulduğunu deyərək, həmçinin nəqliyyat sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün böyük perspektivlərin olduğunu vurğuladı.

Prezident İlham Əliyev bu ilin mayında Tiranada Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta və Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen ilə görüşünü məmnunluqla xatırladı.

Dövlətimizin başçısı təbriklərə görə təşəkkürünü bildirərək, Azərbaycanın regionda sülh gündəliyinin irəli aparılması üçün səylərini bundan sonra da davam etdirəcəyini vurğuladı. Regionda nəqliyyat bağlantılarının yaradılması üçün yaxşı imkanların olduğunu deyən Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərimizdə yol-nəqliyyat infrastrukturunun qurulması ilə bağlı Azərbaycanın intensiv işlər gördüyünü qeyd etdi. Bu xüsusda Zəngilana gedən avtomobil və dəmir yolu xətlərinin əhəmiyyətini vurğuladı.

Ölkəmizin Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfəyə toxunan dövlətimizin başçısı Azərbaycan qazının hazırda Avropanın 10 ölkəsinə, o cümlədən Avropa İttifaqına üzv 8 dövlətə ixrac olunduğunu dedi və ixrac coğrafiyasının genişləndiyini qeyd etdi.

Görüşdə Orta Dəhliz ilə Mərkəzi Asiyadan Azərbaycana gələn yüklərin həcmində əsaslı dərəcədə artımın müşahidə olunduğu bildirildi və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

*AZƏRTAC*

## Bakı – Əbu-Dabi əməkdaşlığında sərkərdə uzaqgörənliyi



Səhifə ⇨ 4

## Zəfər dastanının son səhifəsi



Səhifə ⇨ 8

## Baş naziri devirmək sülhü pozmağa yönəlib

*Müxalifətin Paşinyanı istefaya göndərmək cəhdi yenə uğursuz olacaq*

**Vaşinqtonda Bakı və İrəvan arasında sülh müqaviləsinin paraflanmasının Ermənistanın siyasi cameəsində birmənalı qarşılanmayacağı əvvəlcədən bəlli idi. Görüşdən sonra Hayastandakı revanşist qüvvələr daha da fəallaşıb, necə deyərlər, kürklərinə birə düşüb. Onlar var gücləri ilə yekun sülh müqaviləsinin imzalanmasına, həmçinin Zəngəzur dəhlizinin (TRIPP) açılmasına qarşı çıxırlar.**



Bütün bunların fonunda Ermənistan siyasəti yenidən gərgin müzakirələrin mərkəzinə çevrilib. Parlament müxalifətini təmsil edən "Şərəfim var" fraksiyası baş nazir Nikol Paşinyana qarşı etimadsızlıq layihəsini təqdim edib.

**(ardı 5-ci səhifədə)**

## Azərbaycanda "yaşıl" keçidə beynəlxalq maliyyə dəstəyi artır

**Son illərdə dünyada alternativ enerji mənbələrinin inkişafı beynəlxalq maliyyə təşkilatlarının əsas hədəflərindən birinə çevrilib. Xüsusən də 2022–2024-cü illərdə bu istiqamət daha da sürətlənib. Həmin dövrdə təkcə Azərbaycanda bərpaolunan enerji mənbələrinə 600 milyon dollardan artıq sərmayə cəlb olunub.**

Avrasiya İnkişaf Bankının (AİİB) hesabatına görə, sözügedən illərdə ümumilikdə, Avrasiya regionuna bu sahə üzrə yatırılan vəsait 3 milyard dolları ötüb. Müqayisə üçün qeyd edək ki, 2008-ci ildən bəri bütün dövr ərzində bu sahəyə yönəldilmiş ümumi investisiya 4,4 milyard dollar səviyyəsindədir.

**(ardı 7-ci səhifədə)**



## BMT-də islahat: yeni dünya düzəni naminə mühüm zərurət

*Prezident İlham Əliyev bunu çoxdan söyləmişdi, Antoniu Quterreş isə indi deyir*



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan 2014-cü ildə Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının 69-cu sessiyasında çıxışı zamanı sonradan müəyyən mənada, zərb-məsələ çevrilmiş "Dünya beşdən böyükdür" tarixi ifadəsini işlətmişdi. Bu ifadə günümüzdə də aktuallığını saxlamaqdadır və yazımızda mövzuya BMT-nin Baş katibi Antoniu Quterreşin bir neçə gün əvvəlki fikirləri kontekstində nəzər salacağıq.**

Qardaş ölkə lideri dünyanın beşdən böyük olmasına dair düşüncəsini BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvünün (ABŞ, Rusiya, Çin, Böyük Britaniya və Fransa) beynəlxalq ictimaiyyəti təmsil etmədiyini qlobal ədalət və bərabərliyin təminatı naminə qurumda islahatların vacibliyini vurğulamaq məqsədilə dilə gətirmişdi. Bu tezis cənab Ərdoğanın sonrakı çıxışlarının da əsas istiqamətlərindən biri olmuş və dünya üçün daha ədalətli quruluş tələbinə söykənmişdi. O quruluş ki, ona ehtiyac hər zaman duyulmaqdadır. Hətta, bəşər yaranandan.

**(ardı 3-cü səhifədə)**

## Cənubi Qafqazı davamlı təhlükəsizlik arxitekturası gözləyir



Səhifə ⇨ 3

## İrəvanın rusiyalı turistlərdən qazancı artır

*Şengen maneələri də Ermənistan üçün əlavə fürsət qapısı açıb*



**Ermənistan iqtisadiyyatında mühüm rol oynayan sahələrdən biri də turizmdir. Ölkə ərazisində tarixi və dini abidələrin çoxluğu, eləcə də təbii mənzərələrin və landşaftın rəngarəngliyi hər il minlərlə əcnəbi qonağı cəlb edir. Turizm sektorunun inkişafı həm dövlət büdcəsinə gəlir gətirir, həm də regionlarda məşğulluğun artmasına şərait yaradır. Son illər İrəvan, Gümrü və Dilican kimi şəhərlər xarici turistlərin maraq dairəsinə daxil olub. Nikol Paşinyan hökuməti turizm infrastrukturunun gücləndirilməsini iqtisadi prioritetlərdən biri elan edib. Yeni hotellərin tikilməsi, beynəlxalq sərgilərdə iştirak və müxtəlif festivalların təşkili bu siyasətin tərkib hissəsidir. Statistik göstəricilər də turizmin Ermənistan iqtisadiyyatındakı xüsusi çəkisini təsdiqləyir.**

**(ardı 4-cü səhifədə)**

## Xəzər çəkilir, təhlükə yaxınlaşır



Səhifə ⇨ 9

# Counz Robert Qərinin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan neft sənayesinin inkişafında xüsusi xidmətlərinə görə BP şirkətinin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Counz Robert Qəri "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 18 sentyabr 2025-ci il**

# Memar Əcəmi Naxçıvaninin abidəsinin ucaldılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, orta əsrlər Azərbaycan memarlığının inkişafında müstəsna yeri olan qüdrətli sənətkar Əcəmi Naxçıvaninin xatirəsinin əbədiləşdirilməsi məqsədilə **qərara alıram:**

**1** Naxçıvan şəhərində görkəmli memar Əcəmi Naxçıvaninin abidəsi ucaldılsın.

**2.** Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə birlikdə Əcəmi Naxçıvaninin abidəsinin ucaldılması ilə bağlı tədbirlərin həyata keçirilməsini təmin etsin.

**3** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 18 sentyabr 2025-ci il**

# Azərbaycanın Baş nazirinin Qırğızıstana işgüzar səfəri



**Sentyabrın 18-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Qırğız Respublikasına işgüzar səfərə gedib.**

Bu barədə Nazirlər Kabinetinin mətbuat xidmətindən məlumat verilib.

***

**Həmin gün Baş nazir Əli Əsədov Bişkek şəhərinə işgüzar səfəri çərçivəsində Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin Baş nazirlərinin/Vitse-prezidentinin Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə görüşündə iştirak edib.**



Bu barədə Nazirlər Kabinetinin mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, Qırğızıstan Prezidenti Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin Baş nazirlərinin/Vitse-prezidentinin ilk görüşünün iştirakçılarını salamlayıb.

Ə.Əsədov Prezident İlham Əliyevin salamlarını və ən xoş arzularını Prezident Sadır Japarova çatdırıb. Baş nazir, həmçinin Azərbaycan-Qırğızıstan strateji tərəfdaşlıq əlaqələrinin gündəliyində duran aktual məsələlərə toxunub.

***

**Dünən Bişkekdə Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin Hökumət başçılarının/Vitse-prezidentinin görüşü keçirilib. Azərbaycanın Baş naziri Əli Əsədov görüşdə iştirak edib.**

Tədbirdə çıxış edən Ə.Əsədov türk dövlətlərinin səylərinin birləşdirilməsinin sabitlik, təhlükəsizlik və rifahın təmin olunması baxımından mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb. Qarşılıqlı faydalı əməkdaşlığın TDT-yə üzv ölkələr arasında ticarət-iqtisadi əlaqələrin genişləndirilməsi, iqtisadi potensialın gücləndirilməsi və nəqliyyat dəhlizlərinin şaxələndirilməsi üçün yeni imkanlar açdığı diqqətə çatdırılıb.

İqtisadi əməkdaşlığın dinamikasından məmnunluq ifadə edən Baş nazir cari ilin yanvar-iyul aylarında Azərbaycanın TDT dövlətləri ilə ticarət əlaqələrinin 8 faizdən çox artdığını diqqətə çatdırıb. İnvestisiya sahəsində əməkdaşlıq barədə danışan Baş nazir Azərbaycan tərəfindən təşkilatın üzv ölkələrinə yatırılan sərmayələrin həcminin 21 milyard ABŞ dollarına yaxın olduğunu vurğulayıb.

Türk dövlətləri arasında nəqliyyat sahəsində əməkdaşlığın artan xətt üzrə inkişaf etdiyi və regional əlaqələrin möhkəmlənməsinə əhəmiyyətli töhfə verdiyi vurğulanıb. "Türk dövlətlərinin ərazisindən keçən və təkcə regionumuz üçün deyil, həm də qlobal ticarət və nəqliyyat əlaqələrinin genişləndirilməsi baxımından strateji rol oynayan Orta Dəhlizin önəmi getdikcə artmaqdadır. Bu kontekstdə Azərbaycanın əsas ərazisinin Naxçıvan Muxtar Respublikası ilə birləşdirilməsinə dair bu yaxınlarda Vaşinqtonda əldə edilmiş razılaşmalar tarixi əhəmiyyət kəsb edir. Zəngəzur dəhlizinin açılması bütün region dövlətlərinə yeni iqtisadi və tranzit fürsətləri qazandırmaqla yanaşı, Orta Dəhlizə inteqrasiya olunmaqla, onun ötürücülük qabiliyyətini artıracaq", - deyə Ə.Əsədov qeyd edib.

Görüşün nəticələrinə dair TDT-yə üzv dövlətlərin Hökumət başçılarının/Vitse-prezidentinin Birgə Bəyanatı qəbul edilib.

***XQ***

# "Heydər Əliyev. Müstəqilliyimiz əbədidir" çoxcildliyinin 10-cu kitabı

**"Heydər Əliyev. Müstəqilliyimiz əbədidir" çoxcildliyinin təkrar nəşrinin 10-cu kitabı çapdan çıxıb.**

Bu kitabda yer alan materiallar 1995-ci il noyabrın 29-dan 1996-cı il yanvarın 20-dək olan dövrü əhatə edir. Nəşrdə Ulu öndər Heydər Əliyevin həmin dövrdə çıxışları, nitqləri, bəyanatları, müraciətləri, müsahibələri, məktubları və digər materiallar toplanıb.

Kitabda Heydər Əliyevin Londonda Adam Smit İnstitutunun təşəbbüsü ilə "Azərbaycanda investisiya imkanları" mövzusuna həsr olunmuş beynəlxalq konfransda geniş nitqinin, beynəlxalq mətbuat orqanlarına müsahibələrinin mətnləri, Fransaya səfəri zamanı keçirdiyi görüş və danışıqlara dair materiallar verilib. 1995-ci il dekabrın 5-də Dünya Bankı Parisdə "Azərbaycan üçün investisiyalar" adlı beynəlxalq konfrans təşkil edib. O zaman konfransda çıxış edən Prezident Heydər Əliyev Azərbaycanın bütün ölkələrlə münasibətlərini müstəqil şəkildə həyata keçirdiyini bildirərək deyib: "Azərbaycan qədim mədəniyyətə, böyük tarixə malik bir respublikadır. Azərbaycan bəşəriyyətin inkişafının bir çox mərhələlərini yaşamış bir diyardır. Azərbaycan xalqı dünya sivilizasiyasına öz layiqli töhfəsini vermiş bir xalqdır. Azərbaycan öz dövlət müstəqilliyini cəmi 4 il bundan əvvəl əldə etmişdir. Bu gün o, dünya birliyinin tamhüquqlu üzvüdür, bütün beynəlxalq təşkilatlara daxildir. Birləşmiş Millətlər Təşkilatının üzvüdür və öz hüquqlarını dünyanın bütün ölkələri ilə, öz qarşılıqlı münasibətlərini müstəqil surətdə, suveren surətdə həyata keçirir".

Çoxcildliyin bu kitabına 1995-ci ilin dekabrında Ulu öndər Heydər Əliyevin Azərbaycana rəsmi səfərə gəlmiş Türkiyə Respublikasının Prezidenti Süleyman Dəmirəl ilə görüşünə dair materiallar da daxil edilib. Həmin materiallardan biri də Süleyman Dəmirəl ilə Milli Məclisdə keçirilmiş görüş haqqındadır. Görüşdə Heydər Əliyevin dərin məzmunlu nitqində Süleyman Dəmirələ söylədiyi bu fikirlər Azərbaycan-Türkiyə münasibətlərinin ifadəsi baxımından da diqqət çəkir: "Siz dediniz ki, Türkiyənin qəlbi Azərbaycanın qəlbi ilə döyünür. Bilirsiniz və yəqin bunu bu gün bir daha hiss edirsiniz ki, Azərbaycanın da qəlbi daim Türkiyənin qəlbi ilə döyünür. Azərbaycanda hər bir vətəndaş Türkiyəyə böyük məhəbbət və sevgi hissi bəsləyir, Türkiyənin yüksəlməsini, Türkiyənin artmasını istəyir, Türkiyənin daha da güclü olmasını istəyir, Türkiyənin daha da inkişaf etməsini istəyir. Böyük sınaqlardan keçən dostluq və qardaşlıq əlaqələri bizi məhz bu yola gətirib çıxarmışdır, bizdə məhz belə məhəbbət və sevgi hissləri yaratmışdır. Bu hisslər heç vaxt sönməyəcəkdir. Bunu söndürmək də mümkün deyildir. Çünki bu, içdən gələn, qəlbdən gələn hisslərdir. Türkiyənin Azərbaycana, onun müstəqillik əldə etməsinə və müstəqillik yolunda ağır sınaqlardan çıxmasına etdiyi köməyə görə Azərbaycan xalqı adından, Azərbaycan dövləti adından Sizə, hörmətli Prezident, Türkiyə Respublikasına, Türkiyə xalqına bir daha öz təşəkkürümü və minnətdarlığımı bildirmək istəyirəm.

Türkiyə Respublikası indi yeni müstəqillik əldə etmiş bir çox ölkələr üçün, dövlətlər üçün örnəkdir. Belə dövlətlərdən biri də Azərbaycandır. Biz arzu edirik ki, Türkiyə Respublikası özünün bu mövqelərini həmişə qoruyub saxlasın və həmişə bizim üçün təcrübə mənbəyi olsun. Bizim arzu və istəyimiz bundan ibarətdir ki, Türk dünyası, türkdilli xalqlar, bir kökdən, bir mənşədən olan millətlər daha da yaxınlaşsın, daha da birləşsin, bir-birinə kömək etsin, bir-biri ilə daha da mehriban olsun, bir-birinə yardımçı olsunlar".




Kitabda Ümummilli lider Heydər Əliyevin Xalq yazıçısı Yusif Səmədoğlunun 60 illik yubileyinə həsr olunmuş mərasimdə çıxışının mətni, Azərbaycan Kinematoqrafçılarının VIII Qurultayına təbrik məktubu, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə Azərbaycan xalqına müraciəti, Yeni il münasibətilə Azərbaycan xalqına təbriki də yer alıb.

Bu cilddə, həmçinin Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq, Prezidentin sədrliyi ilə icra və idarəetmə işlərinin təkmilləşdirilməsinə dair Nazirlər Kabinetinin ilk iclasında giriş və yekun nitqləri verilib. Nəşrə erməni təcavüzünün ağır nəticələrinin aradan qaldırılmasına, daxili və xarici siyasətin başlıca istiqamətlərinə dair digər materiallar da daxil edilib.

Kitabın buraxılışına məsul "Azərnəşr"in baş redaktoru Əlövsət Ağalarovdur.

Nəşrin hazırlanmasında AZƏRTAC-ın materiallarından istifadə olunub.

# Milli Məclisin sədri Malayziyada




**Malayziyanın Kuala Lumpur şəhərində səfərdə olan Milli Məclisin sədri Sahibə Qafarova sentyabrın 18-də Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyasının Parlamentlərarası Assambleyasının (AİPA) 46-cı Baş Assambleyasının açılış mərasimində iştirak edib.**

Sahibə Qafarova Baş Assambleyanın plenar iclasında çıxış edərək deyib ki, parlament diplomatiyasının əhəmiyyətinin artması ilə AİPA artıq parlamentləri bir araya gətirən, daha sıx əməkdaşlıq üçün yeni ideyalar və imkanlar yaradan əhəmiyyətli və uğurlu platformaya çevrilib.

2022-ci ildən Milli Məclisin AİPA-nın işində müşahidəçi statusunda iştirak etdiyini xatırladan S.Qafarova bunun Azərbaycanın Cənub-Şərqi Asiya ölkələri ilə çoxşaxəli əlaqələrini daha da inkişaf etdirmək niyyətini əks etdirdiyini, parlamentlərarası əməkdaşlığın isə bu əlaqələrin mühüm istiqaməti kimi qiymətləndirildiyini söyləyib.

S.Qafarova diqqətə çatdırıb ki, Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılmış və hazırda Milli Məclisin sədrlik etdiyi Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi 2023-cü ilin mart ayında AİPA ilə Əməkdaşlıq Memorandumu imzalayıb.

***

**Həmim gün Milli Məclisin sədri Sahibə Qafarova Malayziyanın Baş naziri Ənvər İbrahim ilə görüşüb.**




Ənvər İbrahim görüşdə çıxış edərək Asiya Dövlətləri Assosiasiyasının Parlamentlərarası Assambleyasının (AİPA) 46-cı Baş Assambleyasının əhəmiyyətini diqqətə çatdırıb. O, həmçinin tədbirdə iştirakına görə Milli Məclisin sədrinə təşəkkürünü ifadə edib. Baş nazir Azərbaycan Prezidenti İlham Əliyevə salamlarını və ən xoş arzularını çatdırmağı xahiş edib.

Sahibə Qafarova Azərbaycanla Malayziya arasında mövcud olan dostluq və əməkdaşlıq əlaqələrinin əhəmiyyətini qeyd edib. Ölkələrimizin müxtəlif beynəlxalq təşkilatlarda qarşılıqlı dəstəyindən məmnunluq ifadə olunub.

Görüşdə parlamentlərimiz arasında əməkdaşlıq məsələləri haqqında fikir mübadiləsi aparılıb.

***XQ***

# Avropa İttifaqının komissarı Ağdamda

**Avropa İttifaqının genişlənmə siyasəti üzrə komissarı Marta Kos Ağdam şəhərinə səfər edib.**

Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynov qonağa Ağdam, Füzuli və Xocavənd rayonlarında həyata keçirilən tikinti-quruculuq işləri, reallaşdırılan layihələr haqqında məlumat verib.

Aİ-nin komissarı sonra Ağdamın Sarıcalı kəndi ərazisində aparılan minatəmizləmə fəaliyyəti ilə tanış olub. O, Ermənistan tərəfindən ərazilərin minalarla çirkləndirilməsi, bu istiqamətdə aparılan təmizləmə işləri barədə məlumatlandırılıb.



"Ağdama, ümumilikdə, Qarabağa səfər etmək məndə dərin təəssürat yaradıb. Sizin dövlətinizin bu ərazilərdə həyata keçirdiyi bərpa və yenidənqurma işləri, uzun illər müharibədən zərər çəkmiş və dağıdılmış torpaqlarda yeni həyat qurmaq səyləri doğrudan da təqdirəlayiqdir. Hökumətinizin cəsarətlə yeni şəhərlərin, müasir infrastruktur və sosial obyektlərin inşasını həyata keçirməsini, insanların doğma yurdlarına qayıdışını təmin etməyə yönəlmiş addımlarını yüksək qiymətləndirirəm", – deyə Marta Kos jurnalistlərə açıqlamasında bildirib.

O sonra deyib: "Bu səfər mənim üçün önəmli məqamlarla yadda qaldı. Bir neçə məsələni vurğulamaq istərdim. Birincisi, heç bir müharibə yaxşı nəticə vermir. Müharibə insanların həyatını alt-üst edir, dərin yaralar açır və onun ağır nəticələri uzun illər qalır. İkincisi, sülh mümkündür. Sülh naminə müharibəni dayandırmaq, barışığa xidmət edən addımlar atmaq və gələcəyə bu baxış əsasında yönəlmək vacibdir. Azərbaycan və Ermənistanın atdığı addımlar bunun nümunəsidir. Üçüncüsü, Avropa İttifaqı bu prosesə dəstək göstərməyə hazırdır".

"Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlərin yeni mərhələyə yüksələcəyinə inanır və bu əməkdaşlığın hər iki tərəf üçün faydalı olacağına əminəm", - deyə Marta Kos bildirib.

***XQ***

# BMT-də islahat: yeni dünya düzəni naminə mühüm zərurət

(əvvəli 1-ci səhifədə)



Bir haşiyə çıxaq ki, BMT 1945-ci ildə təsis ediləndə qurumda iştirakçı dövlətlərin sayı 50 olsa da, aparıcı qüvvə kimi sabiq SSRİ və ABŞ çıxış etmişdi. Təşkilat faşist Almaniyası üzərində qələbə qazanıldıqdan sonra dünya siyasətindəki prosesləri beynəlxalq hüquqa uyğun tənzimləmək məqsədilə formalaşdırılmışdı. Amma həmin dövrdə hansı faktora üstünlük veriləcəyinə dair fikir ayrılığı mövcud idi. Məsələn, Vaşinqton hesab edirdi ki, dünya iqtisadiyyatında inkişafa və tənzimlənməyə nail olmaq üçün qlobal sülhü və barışı təmin etmək mümkündür. SSRİ-də isə əksinə dünya miqyasında bilavasitə siyasəti tənzimləməyin daha perspektivli olduğu qənaəti rəhbər tutulurdu. Beləcə, ikiqütblü dünyanın təməli qoyulurdu ki, onun da ömrü SSRİ-nin süqutunadək sürdü. Əlbəttə, 1945-ci ildə start verilmiş "soyuq müharibə" dövrünün ziddiyyətləri də BMT-nin ədalət tribunası kimi özünü təsdiqləməsinə maneçilik törətdi. Sovetlər Birliyinin dağılmasından sonrakı ab-hava, eyni zamanda, qurumun, bir növ, alətə çevrilməsi də hər kəsin yaxşı xatirindədir və yazımız əsnasında bu sayaq məqamlar barədə də söz açacağıq.

Əlqərəz, BMT-də islahatların keçirilməsinə duyulan zərurət barədə Prezident İlham Əliyevin də dəyərli fikirləri var. Məlumdur ki, Azərbaycan 2011-ci il oktyabrın 24-də BMT Təhlükəsizlik Şurasına seçkilərdə böyük tarixi uğur əldə edərək, iki il müddətinə qurumun qeyri-daimi üzvü olmuşdur. Prezident Əliyev həmin müddətə qiymət verərək bildirmişdi ki, ədalətin və beynəlxalq hüququn norma və prinsiplərinin qorunmasını BMT Təhlükəsizlik Şurasında özünün prioritet məqsədi kimi qarşıya qoyan ölkəmiz iki il ərzində qurumun qeyri-daimi üzvü kimi uğurlu fəaliyyətini davam etdirib, sədrliyi dövründə beynəlxalq sülh və təhlükəsizliyin qorunmasına töhfələrini verib, Şuranın gündəliyində duran məsələlərin müzakirəsində fəal rol oynayıb və daim öz qətiyyətli mövqeyini ortaya qoyub. Azərbaycan mövcud statusda, həmçinin, beynəlxalq hüququn norma və prinsiplərinə əməl olunması, qanunun aliliyi, münaqişələrin qarşısının alınması və həlli, konfliktli vəziyyətlərdə mülki əhalinin müdafiəsi, terrorçuluqla mübarizə, BMT və regional təşkilatlar arasında əməkdaşlıq mövzuları ilə yanaşı, Yaxın Şərq sülh prosesi, Suriyada, Əfqanıstanda və Afrikanın bir sıra dövlətlərində vəziyyətə müstəsna əhəmiyyət vermişdi. Bütün bu kimi fəaliyyətlərdə də islahat məntiqi ön planda dayanmışdı.

Ümumən, mövcud məntiq özündə BMT TŞ-nin qətnamələrinin icrasının təmin olunması üçün mexanizmlərin yaradılmasını, daimi və qeyri-daimi üzvlərin daha ədalətli təmsilçiliyini, Şuranın üzvlüyünün genişləndirilməsini, həmçinin qurumda qərarvermə proseslərinin şəffaflığı və məsuliyyətin artırılması, o cümlədən, veto hüququ kimi struktur üstünlüklərin daha məhdud və ədalətli istifadəsini ehtiva etmişdi.

Digər tərəfdən, dövlətimizin başçısı Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının 2019-cu ildə Bakıda keçirilmiş XVIII Zirvə Görüşündə Azərbaycanın təşkilata sədrliyi zamanı prioritetlərini açıqlamış, qurumdakı fəaliyyətimizin tarixi Bandunq prinsipləri üzərində reallaşdırılacağını vurğulamış, dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə hörmət, onların daxili işlərinə qarışmamaq, qarşılıqlı maraqların qorunması və əməkdaşlığın təşviqi kimi məqamları ehtiva edən həmin prinsiplərin xarici siyasət prioritetlərimizlə üst-üstə düşdüyünü diqqətə çatdırmışdı.

Beynəlxalq hüququn norma və prinsiplərinə hamılıqla əməl olunması naminə səylərin artırılmasının əhəmiyyətini vurğulayan Prezident İlham Əliyev BMT-də islahatlara ehtiyac məntiqini əsaslandırarkən, sərhədlərin güc yolu ilə dəyişdirilməsi, gücdən istifadə olunmaqla ərazi bütövlüyünün pozulmasının, daxili işlərə müdaxilənin yolverilməzliyini bildirmişdi. Dövlətimizin başçısı, eyni zamanda, dünya siyasətində ikili standartların mövcudluğundan, bəzi qətnamələrin uzun müddətdir icra olunmamasından bəhs etmiş və bunun BMT-nin legitimliyinə və etibarlılığına mənfi təsir göstərdiyini vurğulamışdı. Qeyd edək ki, həmin vaxt Azərbaycan lideri fikirlərini torpaqlarımızın Ermənistan tərəfindən işğalına biganəlik xüsusunda dilə gətirmişdi. Əslində, cənab Ərdoğan da BMT-dəki tarixi çıxışında dünyanın beşdən böyükliyünü həm də beynəlxalq ictimaiyyətin Qarabağ münaqişəsinə ədalətsiz yanaşmasına etiraz olaraq bildirmişdi.

Prezident İlham Əliyev torpaqlarımızın işğalı və BMT-nin susqunluğu motivini sonrakı çıxışlarının da leytmotivinə çevirərək, qurumda islahatların zəruriliyini mövcud kontekstdən izah etmişdi. Bu mənada dövlətimizin başçısının 2021-ci il sentyabrın 21-də BMT-nin 75 illiyinə həsr edilmiş Yüksək Səviyyəli İclasdakı çıxışı da diqqət çəkməkdədir. Ölkəmizin lideri həmin çıxışı zamanı Baş Assambleyanın canlandırılması, beynəlxalq sülh və təhlükəsizlik sahəsində təşkilatın demokratik, məsuliyyətli, universal və təmsilçiliyi təmin edən orqan kimi nüfuzunun möhkəmləndirilməsi, habelə müasir geosiyasi reallıqlara cavab verməsi üçün BMT TŞ-də islahatlara çağırış səsləndirmişdi: "BMT universal üzvlüyü təmin edən yeganə qlobal təsisatdır və beləliklə də dayanıqlı inkişafa nail olunması məqsədilə qlobal iqtisadi idarəçiliyi əhatə etmək iqtidarındadır. Bu səbəbdən BMT-nin qlobal iqtisadi idarəçilikdə rolu gücləndirilməlidir. Qlobal iqtisadi idarəçilikdə müvafiq rolu oynamaq üçün təşkilat çərçivəsində proseslərə, multilateralizmə və onun təməl dəyərlərinə sadiqlik baxımından bütün üzvlərin siyasi iradəsi olduqca əhəmiyyətlidir".

***

Sözümüzün canı ondadır ki, Azərbaycan dövlətinin, şəxsən Prezident İlham Əliyevin illərdir haqqında bəhs etdiyi məqamı BMT-nin Baş katibi cənab A.Quterreş indi daha qətiyyətli şəkildə diqqətə çatdırır. Təhlükəsizlik Şurasında islahatların məntiqliliyi üzərində dayanan baş katib, qurumun hazırkı tərkibinin müasir dünyaya uyğun olmadığını vurğulayır, həmin tərkibin 1945-ci ilin reallıqlarını əks etdirdiyini və bunun legitimlik və səmərəliliklə bağlı problemlər yaratdığını bildirir. A.Quterreş jurnalistlərə açıqlamasında Fransa və Böyük Britaniyanın xüsusən kütləvi insan hüquqları pozuntuları hallarındakı təkliflərinə, yəni, belə durumlarda veto hüququnun məhdudlaşdırılmasına simpatiya ilə yanaşdığını deyir.

Təhlükəsizlik Şurasında islahatların vacibliyini daim dilə gətirən ilk baş katib olduğunu diqqətə çatdıran A.Quterreşin sözlərinə görə, islahat məsələsində müəyyən irəliləyiş müşahidə olunur. "Artıq ciddi şəkildə çalışan bir komitə var və bir neçə ölkə, hətta daimi beşlikdən olan dövlətlər belə, Afrikanın daimi üzvlük hüququna malikliyinin lazım olduğunu etiraf ediblər", - deyən baş katib islahat və veto hüququ ilə bağlı yekun qərarı yalnız üzv dövlətlərin qəbul edə biləcəyini də xatırladıb.

Bəli, dünya Azərbaycan və Türkiyə liderlərinin vaxtilə qaldırdığı vacib məsələlərə dair fikrini yalnız indi açıqlayır. Məsəl var ki, ayının min oyunu bir armudun başındadır. İndi bilmək olmaz, Quterreş nə üçün bu barədə söz açır. Ehtimal var ki, qarşıya "beşlik"dəki Rusiyanın oradan çıxdaş edilməsi məqsədi qoyulub. Amma daha vacib məsələ var ki, o da BMT-də islahatlara fundamental yanaşmadır. Söhbət siyasət pəncərəsindən baxılmayan, ümumbəşəri mahiyyət daşıyan yanaşmadan gedir. Fundamentallığın başlıca qayəsi isə BMT TŞ-nin qərarlarının kağız üzərində qalmamasıdır. Eynilə Prezident İlham Əliyevin 2022-ci ilin iyununda Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı konfransında bildirdiyi kimi.

Sözügedən konfransda Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı vəziyyətə toxunan dövlətimizin başçısı bildirmişdi ki, konflikt təkcə regional deyil, qlobal məsələdir. "Çünki bu, təkcə beynəlxalq hüququn təməl prinsiplərinin tam pozulması deyil, həm də BMT Təhlükəsizlik Şurasının qətnamələrinin kobud pozulması və onlara məhəl qoyulmaması halı idi. 1993-cü ildə BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul etmişdir ki, orada erməni qoşunlarının bizim ərazimizdən dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb edilirdi. Sual olunur ki, niyə bu qətnamələr icra edilmədi? Buna cavab verə bilən yoxdur və ya cavab vermək istəmir. Növbəti sual ondan ibarətdir ki, niyə BMT Təhlükəsizlik Şurasının bəzi qətnamələri bir neçə gün içərisində icra olunur, bizə gəldikdə onlar 28 il ərzində kağız üzərində qalır? Əgər cəsur azərbaycanlı hərbçilər torpaqlarımızı azad etməsə idi həmin qətnamələr yəqin ki, daha 28 il ərzində kağız üzərində qalacaqdı", - deyən Prezident Əliyev bütün bu kimi halların BMT-də və onun Təhlükəsizlik Şurası çərçivəsində islahatların aparılması məsələsini gündəmə gətirdiyini vurğulamışdı. Ölkəmizin lideri ritorik şəkildə onu da bildirmişdi ki, qətnamələr icra edilmirsə, onları qəbul etməyin nə mənası var: "Biz islahatların tərəfdarıyıq və hesab edirəm ki, bu, Qoşulmama Hərəkatının dövlət və hökumət başçıları səviyyəsində müzakirə olunmalı və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin siyasi üstünlük əsasında icra edilməsinə son qoyulmalıdır".

Sonda onu da bildirək ki, A.Quterreşin haqqında söz açdığı islahat zərurətinin əməli iş müstəvisinə daşınıb-daşınmayacağını söyləmək çətindir. Bir başlıca məqam var ki, dünya 1945-ci ildəki dünya deyil və ona yeni yanaşmalara ehtiyac duyulur. Yanaşmaların strukturundan asılı olmayan daha bir mühüm məqam da var ki, o da niyyətdir. Yəni, dünyanın aparıcı dövlətləri, ilk növbədə, doğru-dürüst, səmimi niyyətə əsaslanmış fəaliyyətə üstünlük verməli, bəşəriyyətin gələcəyi naminə səmimiyyət nümayiş etdirməlidirlər. İslahat yalnız bu halda əsl islahat olacaq. Əks təqdirdə...

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Cənubi Qafqazı davamlı təhlükəsizlik arxitekturası gözləyir

## *Vaşinqton bəyannamələrini pozmaq istəyənlərə Ağ Evdən mesaj*




**ABŞ Dövlət Departamentinin Ermənistana dair yeni səyahət xəbərdarlığı ilk baxışdan sadə təhlükəsizlik tövsiyəsi təsiri bağışlaya bilər. Amma, əslində, bu addım Vaşinqtonun Cənubi Qafqaz regionuna baxışındakı geosiyasi incəlikləri ortaya qoyur. Dövlət Departamentinin sərhədyanı əraziləri yüksək riskli zonalar elan etməsi həm İrəvana, həm də regiondakı digər oyunçulara yönəlib. Burada diqqətçəkən əsas məqam ABŞ-ın Ermənistan üzərindən Cənubi Qafqazda yeni balans yaratmaq niyyətinin açıq görünməsidir.**

Vaşinqton bəyannaməsi ikitərəfli münasibətlərin yeni mərhələyə qədəm qoyması ilə yanaşı, Cənubi Qafqazda sabitliyin və əməkdaşlığın təməl prinsiplərini müəyyənləşdirir. Onun mahiyyətində region dövlətlərinin müstəqil inkişaf yolunu dəstəkləmək, qarşılıqlı asılılıq əsasında güc balansı yaratmaq və kənar müdaxilələrə qarşı immunitet formalaşdırmaq dayanır.



Lakin bu ruhu pozmaq istəyənlər də az deyil. Ermənistan daxilindəki revanşist qüvvələr öz siyasi varlıqlarını məhz keçmiş münaqişələrin alovlanmasında görürlər. Onlar üçün sülh sənədləri siyasi perspektiv yox, təhlükə mənbəyidir. Çünki barışıq və əməkdaşlıq mühiti onların radikal ritorikasını mənasızlaşdırır. Xaricdəki müəyyən lobbi dairələri də bu mövqeyi gücləndirir. Onların hədəfi regionun inteqrasiya potensialını zəiflətmək, Ermənistanı öz asılılıq dairəsində saxlamaq və münaqişə alovunu daim "diri" tutmaqdır.

Burada maraqlı sual yaranır: əgər bəyannamələr sabitlik və əməkdaşlıq üçün açar rolunu oynayırsa, niyə bəzi dairələr onların pozulmasına bu qədər maraq göstərirlər? Cavab sadədir: sabitlik onların geosiyasi təsir rıçaqlarını zəiflədir. Qafqazda uzunmüddətli sülhün bərqərar olması revanşist güclərin siyasi meydanını daraldır, diaspor lobbilərinin təsir imkanlarını isə əhəmiyyətli dərəcədə azaldır. Məhz bu səbəbdən də Vaşinqton bəyannaməsi yalnız Bakının strateji sənədi deyil, həm də regionun gələcəyi uğrunda gedən mübarizənin simvoluna çevrilib.

ABŞ Dövlət Departamentinin son xəbərdarlığı bu kontekstdə təsadüfi görünmür. Vaşinqton faktiki olaraq İrəvana siqnal göndərir: yeni hərbi avantüralar, sərhəddə gərginliyi artırmaq cəhdləri təkcə regionun təhlükəsizliyini yox, həm də ABŞ-Ermənistan münasibətlərinin gələcəyini risk altına qoyur. Sözsüz ki, bu xəbərdarlıq rəsmi məsləhət kimi təqdim olunur, amma onun arxasında dərin siyasi mesaj dayanır.

Belə bir şəraitdə əsas dilemma ortaya çıxır: Ermənistan rəhbərliyi hansı yolu seçəcək? Revanşist qüvvələrin təzyiqi altında sabitlik arxitekturasını dağıtmaqmı, yoxsa Vaşinqton bəyannamələrinin ruhuna uyğun olaraq regional əməkdaşlığın tərkib hissəsinə çevrilməkmi? Sualın cavabı yalnız İrəvanın taleyini deyil, bütövlükdə Cənubi Qafqazın gələcək geosiyasi konfiqurasiyasını müəyyənləşdirəcək.

***

ABŞ Dövlət Departamentinin Ermənistanla bağlı verdiyi səyahət xəbərdarlığı diqqətlə təhlil edildikdə aydın olur ki, bu addımın arxasında daha dərin siyasi məna dayanır. Vaşinqton, faktiki olaraq, İrəvana ikiqat mesaj ünvanlayır: bir tərəfdən öz vətəndaşlarını riskdən qorumaq öhdəliyini yerinə yetirir, digər tərəfdən isə Ermənistan rəhbərliyinə geosiyasi davranışında həddi aşmamağı xatırladır.

Burada nəzərə alınmalı əsas məqam odur ki, xəbərdarlıq konkret olaraq sərhədyanı bölgələrə şamil olunub. Bu isə təsadüf sayıla bilməz. Əslində, Vaşinqton bu yolla Ermənistan cəmiyyətinə və siyasi elitaya göstərir ki, sərhədlərdə baş verə biləcək hərbi insidentlər yalnız lokal xarakter daşımayla qalmayıb, onların beynəlxalq nəticələri də olacaq. Yəni, yeni qarşıdurmalar təkcə Azərbaycan–Ermənistan münasibətlərinə təsir göstərməyəcək, həm də ABŞ və Qərbin İrəvana baxışını köklü şəkildə dəyişdirə bilər.

Bəs nə üçün ABŞ məhz indi bu xəbərdarlığı gündəmə gətirdi? Bunun cavabını iki istiqamətdə axtarmaq olar. Birincisi, son aylar Ermənistan daxilində revanşist ritorikanın güclənməsi, müharibə ritorikasının siyasi gündəmə qayıtması Vaşinqtonda narahatlıq doğurur. ABŞ açıq şəkildə göstərmək istəyir ki, belə bir ritorika regionda sabitlik üçün zərərli təsirə malikdir və İrəvanın beynəlxalq mövqeyini zəiflədə bilər. İkincisi, bölgədə geosiyasi rəqabət kəskinləşir, xüsusilə də enerji və nəqliyyat dəhlizləri uğrunda mübarizə fonunda. Belə şəraitdə hər hansı lokal münaqişə qlobal maraqların toqquşmasına gətirib çıxara bilər.

Xəbərdarlığın başqa bir tərəfi də var: Ermənistan Qərbdə hələ də tam etibarlı tərəfdaş kimi qəbul olunmur. Vaşinqtonun "yüksək diqqətlilik" ifadəsi təsadüfi seçilməyib. Bu, İrəvana qarşı etimad qıtlığının açıq etirafıdır. ABŞ diplomatiyası bu yolla Ermənistan hökumətinə mesaj verir: riskli oyunlardan uzaq durun, əks halda nəinki bölgənin təhlükəsizliyini, həm də Qərblə münasibətlərin gələcəyini sual altına qoymuş olacaqsınız.

Beləliklə, məsələ yalnız səyahət məhdudiyyətlərindən ibarət deyil. Söhbət ondan gedir ki, Vaşinqton bölgədəki güc balansının dəyişdirilməsinə imkan vermək istəmir. Burada əsas strateji məqsəd Ermənistanı radikal revanşist dairələrin təsirindən uzaqlaşdırmaq və onu inteqrasiya yönümlü regional proseslərə doğru yönləndirməkdir. Amma sual açıq qalır: İrəvan bu xəbərdarlığı ciddi qəbul edəcək, yoxsa onu, sadəcə, texniki tövsiyə kimi görüb-görməzliyə vuracaq?

***

Ermənistan daxilində revanşist qüvvələrin hərbi ssenariləri yenidən gündəmə gətirməsi təkcə lokal toqquşma ehtimalını artırmır, həm də ölkənin beynəlxalq imicinə ağır zərbə vurur. Onsuz da zəif iqtisadi dayaqlara malik olan və siyasi sabitlik problemi yaşayan Ermənistan yeni münaqişə yoluna qədəm qoyarsa, beynəlxalq aləmdə "etibarsız tərəfdaş" statusunu daha da möhkəmləndirmiş olar.

Belə bir addım eyni zamanda regiondakı iri enerji və nəqliyyat layihələri üçün təhlükə mənbəyinə çevrilə bilər. Zəngəzur dəhlizi, Bakı–Tbilisi–Qars xətti, eləcə də Xəzərdən Avropaya uzanan enerji kəmərləri siyasi sabitliyin təminatçısıdır. Əgər Ermənistan revanşizm yolunu seçərsə, bu layihələrin davamlılığına dair suallar artar və investorların etimadı zəifləyər. Bunun nəticəsi isə bütün Cənubi Qafqaz üçün strateji geriləmə demək olar.

Digər tərəfdən, münaqişə mühitinin canlandırılması bölgəyə kənar güclərin hərbi müdaxiləsi üçün də bəhanə yarada bilər. Tarixi təcrübə göstərir ki, Cənubi Qafqazdakı hər bir böhran beynəlxalq güclərin təsir mübarizəsinə çevrilir. Yeni eskalasiya ABŞ, Rusiya, hətta Avropa İttifaqı üçün "təhlükəsizlik müdaxiləsi" ritorikasını gündəmə gətirə bilər ki, bu da regionun suveren qərarvermə imkanlarını məhdudlaşdırar.

Lakin əks ssenari də mövcuddur. Ermənistan Vaşinqtonun xəbərdarlığını düzgün oxuyub revanşist dairələrin diktəsinə boyun əyməsə, Azərbaycanın təklif etdiyi inteqrasiya layihələrinə real maraq göstərsə, Cənubi Qafqazda uzunmüddətli təhlükəsizlik arxitekturası qurula bilər. Belə bir yanaşma Ermənistanın həm regional əməkdaşlıqdan iqtisadi dividendlər qazanmasına, həm də beynəlxalq aləmdə konstruktiv tərəfdaş imici formalaşdırmasına gətirib çıxara bilər. Ən əsası isə bu seçim kənar güclərin müdaxilə imkanlarını minimuma endirər və regionun təhlükəsizlik məsuliyyətini birbaşa regional dövlətlərin üzərinə qoyar.

Amma həlledici sual hələ də açıq qalır: Ermənistan siyasi liderliyi gələcək strategiyasını revanşist emosiyalara əsasən, yoxsa regional inteqrasiyanın rasional məntiqinə uyğun quracaq? Seçim yalnız Ermənistanın deyil, bütün Cənubi Qafqazın qarşıdakı onilliklər üçün yol xəritəsini cızacaq.

Yazımızı bu sualla yekunlaşdırırıq: Ermənistan hakimiyyəti Vaşinqtonun bu xəbərdarlığını strateji xəbərdarlıq kimi qəbul edib inteqrasiyaya üz tutacaq, yoxsa qısa müddətli siyasi revanşizmə aludə olacaq? Sualın cavabı, əslində, regionun gələcəyini müəyyən edəcək.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Bakı – Əbu-Dabi əməkdaşlığında sərkərdə uzaqgörənliyi

## *Qədim yunanların “strategiya” sözü “sərkərdə mədəniyyəti” anlamı daşıyıb*

**Bizim Ərəb Dövlətləri Liqasına üzv olan dövlətlərlə çox yaxşı münasibətlərimiz var. Əminəm ki, yaxın gələcəkdə də bizim əməkdaşlığımız genişlənəcək, yeni xarakter və yeni dinamika alacaq.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**



**Azərbaycan Prezidenti İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhayanın ölkəmizin işğaldan azad edilmiş ərazilərində görüşləri, aparılan danışıqlar, imzalanan sənədlər və müzakirə edilən perspektiv planlar barədə çox yazıldı, kifayət qədər danışıldı.**

Mənim üçün maraqlı olan məqamlardan biri o idi ki, politoloq, ekspert və jurnalistlərin demək olar ki hamısı Azərbaycanla Birləşmiş Ərəb Əmirlikləri arasındakı əlaqələrin strateji xarakter daşıdığını deyirdilər. Bu fikirləri eşidəndə hələ gənclik illərimizdən ali məktəb müəllimlərimizin əzbərlətdiyi “strategiya” ifadəsinə bir daha nəzər saldım. İlk dəfə qədim Yunanıstanda gündəliyə gətirilmiş bu ifadənin müasir Azərbaycan dilindəki yazılış formasını yuxarıda yada saldım. İfadənin izahlı şərhi isə belədir: “Strategiya – təşkilatın vəzifələrinin həyata keçirilməsini və onun öz məqsədlərinə çatmasını təmin etmək üçün müəyyən edilmiş uzunmüddətli və hərtərəfli kompleks planı özündə əks etdirir. Strategiya rəhbərlik tərəfindən hazırlanır, lakin onun həyata keçirilməsi bütün idarəetmə səviyyələrinin iştirakını nəzərdə tutur. Strateji plan, konkret şəxs nöqteyi-nəzərindən deyil, bütün firmanın inkişafı nöqteyi-nəzərindən hazırlanmalıdır”.

Bu cümlələri oxuyanda Prezident İlham Əliyevin çıxışlarında bir neçə dəfə işlətdiyi sözlər yadıma düşdü. Dövlət başçımız xatırladırdı ki, biz xarici siyasətdə heç zaman cari, gündəlik və ya birillik, ikiillik planlara əsaslanmırıq. Biz öz fəaliyyətimizi uzunmüddətli, kompleks, strateji planlara istinadən qurur və davam etdiririk. Bu isə Heydər Əliyev siyasi kursunun mühüm tərkib hissələrindən biridir.

İndi diqqət yetirək. Azərbaycan coğrafi baxımdan yaxın qonşuları ilə (son zamanlar bu arealdakı xəstə təfəkkürlülərin səhv addımlarının fəsadları ilə üzləşsək belə), Türkdilli dövlətlər, İslam ölkələri, Avropa İttifaqı, Qoşulmama Hərəkatına üzv olan ölkələrlə və ümumiyyətlə, hamı ilə əməkdaşlıqda səmimi, ədalətli və sədaqətlidir. Eləcə də, hamıdan bu münasibətlərin qarşılığını gözləyir. Ancaq əməkdaşlıq etdiyimiz ölkələrin hamısı ilə strateji tərəfdaş deyilik və bu, çətin məsələdir. Amma o da həqiqətdir ki, qeyd etdiyimiz siyasi məkanların hamısında strateji tərəfdaşlarımız var. Birləşmiş Ərəb Əmirlikləri həmin tərəfdaşlarımızdan biridir.

Məlum olduğu kimi, Birləşmiş Ərəb Əmirlikləri müasir dünyada öz inkişafı ilə seçilən dövlətlərdəndir. İndi dünyanın hər yerində etiraf edirlər ki, BƏƏ neft kapitalının insan kapitalına çevrilməsinə nail olub. Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsindən qısa müddət sonra–1991-ci il dekabrın 26-da ölkəmizlə əməkdaşlığa hazır olduğunu bildirən bu müsəlman dövləti həm ayrılıqda, həm də Ərəb Dövlətləri Liqasının tərkibində istənilən tribunadan rəsmi Bakının mövqeyini müdafiə edib, daim Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə öz dəstəyini ifadə edib.

O da faktdır ki, Ərəb Dövlətləri Liqasının bütün üzvləri Azərbaycanın vaxtilə sədrlik etdiyi Qoşulmama Hərəkatının da üzvləridir. Onlar dönə-dönə qeyd edirlər ki, islamofobiya meyillərinə qəti şəkildə qarşı çıxan Azərbaycan 2008-ci ildə Prezident İlham Əliyevin təşəbbüsü əsasında başladılan “Bakı Prosesi” sayəsində müsəlman ölkələri ilə Avropa dövlətlərinin nümayəndələrini bir araya gətirməklə mədəniyyətlərarası dialoqun dünya miqyasında təbliğinə güclü təkan verdi. Ekspertlər yazırlar ki, Birləşmiş Ərəb Əmirlikləri informasiya-kommunikasiya texnologiyaları sahəsində və digər beynəlxalq platformalarda ölkəmizə qarşı birmənalı mövqeyi ilə fərqlənib.

Yuxarıda Heydər Əliyev siyasi kursunu yada saldıq. Həmin kursda xüsusilə qeyd edilən istiqamətlərdən biri də İslam dünyası, ərəb ölkələri ilə əlaqələr idi. Həm Bakıda, həm də Əbu-Dabidə hamı məmnundur ki, Heydər Əliyevin təməlini qoyduğu ikitərəfli əlaqələr indi uğurla davam etdirilərək yeni inkişaf mərhələsinə qaldırılıb. Xarici İşlər Nazirliyinin Azərbaycan – BƏƏ əməkdaşlığı barədə elektron materialında qeyd edilir ki, hələ 2005-ci ildə Azərbaycanla Ərəb Dövlətləri Liqası arasında Anlaşma Memorandumu imzalanıb və ölkəmiz bu qurumda müşahidəçi statusuna malikdir. 2006-cı il noyabrın 20-21-də Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə rəsmi səfəri iki ölkə arasında əlaqələrin inkişafına təkan verib. Həmin səfər çərçivəsində iki ölkə arasında iqtisadi, ticari və texniki əməkdaşlıq, gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması, investisiyaların təşviqi və qarşılıqlı qorunması, səhiyyə və tibb elmi, hərbi əməkdaşlıq, həmçinin ali təhsil sahələrində əməkdaşlıq haqqında sazişlər bağlanıb.

Ölkələrimiz arasındakı əməkdaşlığın strateji xarakter alması istiqamətində atılan əsas addımlardan biri də Prezident İlham Əliyevin 2016-cı ilin fevralında reallaşdırdığı Əbu-Dabi səfəri olmuşdur. Bu barədə olan materiallarda qeyd edilir ki, səfər zamanı “Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında dəniz nəqliyyatı üzrə institusional əməkdaşlığa dair Saziş”, “Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin Telekommunikasiya Sektorunun Tənzimlənməsi üzrə Baş Departamenti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu” imzalanıb.

O ki qaldı Prezident Şeyx Məhəmməd bin Zayed Al Nəhayanın Azərbaycana səfərinə və onun işğaldan azad edilən Şuşa şəhərində qarşılanmasına – birmənalı şəkildə yaza bilərik ki, bu fakt strateji tərəfdaşlığın bariz nümunəsi idi. Həmin səfərdən söz açarkən iki məqamı xüsusilə qeyd etmək istərdim. Cənab şeyx Azərbaycana səfərini Bakıya gəlməklə də yekunlaşdıra bilərdi. Ancaq Bakı ilə Əbu-Dabi həmin səfəri məhz işğaldan azad edilmiş ərazilərimizə istiqamətləndirdilər. Bu, təsadüfi deyildi. Çünki indiyədək Azərbaycan dövlətini dost, xalqımızı və liderimizi qardaş adlandıran ölkələrin bir neçəsinin Prezidenti bizim işğaldan azad edilmiş ərazilərimizdə olublar. BƏƏ rəhbərliyi də Türkiyə, Pakistan, Qazaxıstan, Özbəkistan, Türkmənistan və İran dövlət başçıları kimi dövlətimizin dostu, xalqımızın qardaşı olduğunu sübut etdi.

Xüsusilə qeyd etmək istədiyimiz ikinci məqam isə Şuşada “Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında Hərtərəfli Strateji Tərəfdaşlıq Əlaqələri haqqında Birgə Bəyannamə”nin imzalanmasıdır. Həmin Bəyannamədə iki dövlət arasındakı iqtisadi və siyasi münasibətlərin inkişaf etdirilməsinin zəruriliyi vurğulanır və inkişafın tərəflər üçün faydalı olduğu nəzərə çatdırılır. Bəyannamədə ölkələrimiz arasında bütün sahələr üzrə əməkdaşlığın davam edəcəyi öz əksini tapıb.

Adıçəkilən sənəd Hərtərəfli Strateji tərəfdaşlıq – parlamentlərarası, müdafiə, təhlükəsizlik və kibertəhlükəsizlik, iqtisadi, enerji sektorunda, təhsil, mədəniyyət və turizm sahələrində əməkdaşlığı, həmçinin sosial sahədə qarşılıqlı əlaqələrin genişləndirilməsi kimi olduqca mühüm sahələri əhatə edir. Yəni, bu sənəd sırf strateji tərəfdaşlıq istiqamətində atılmış mühüm addımdır.

Ekspertlərin fikrincə, sənədin 8-ci bəndi tərəflərə milli və regional təhlükəsizliyə təhdid yaranan vəziyyətlərdə qarşılıqlı məsləhətləşmələr aparmaq imkanı verir. Xüsusi halda, komitə çərçivəsində (həmin komitə bundan sonra yaradılacaq) fövqəladə iclasların keçirilməsi razılaşdırıla bilər. Bu mexanizm tərəflərin təhlükəsizlik məsələlərində vahid mövqe formalaşdırması və mümkün risklərə vaxtında və koordinasiyalı reaksiya verməsi baxımından önəmlidir.

Bu sətirləri BƏƏ Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhayanın Şuşada səsləndirdiyi fikirlərlə tamamlamaq istəyirik: “Qardaşım, cənab Prezident, Birləşmiş Ərəb Əmirlikləri Qafqaz regionunda sülh və əmin-amanlığın bərqərar olmasına çox böyük əhəmiyyət verir, Azərbaycan başda olmaqla, bütün xalqların mənafeyi üçün bölgənin bütün ölkələri ilə əlaqələrini və əməkdaşlığımı inkişaf etdirməkdə maraqlıdır. Bu xüsusda Azərbaycanla Ermənistan arasındakı sülh müqaviləsinin imzalanması istiqamətində əldə edilmiş nailiyyətlərin və müsbət inkişafın davam etməsini səbirsizliklə gözləyirik. Bu münasibətlə Birləşmiş Ərəb Əmirlikləri dövlətinin regionda sülhün və əmin-amanlığın bərqərar olmasına, buradakı xalqların sülh şəraitində yaşamasına hər cür dəstək verməyə hazır olduğunu bir daha vurğulayırıq”.

***İttifaq MİRZƏBƏYLİ,***
***Əməkdar jurnalist***

# İrəvanın rusiyalı turistlərdən qazancı artır

**(əvvəli 1-ci səhifədə)**

Hayastan İqtisadiyyat Nazirliyinin təbeliyində fəaliyyət göstərən Turizm Komitəsinin məlumatına görə, 2025-ci lin avqust ayında ölkəyə 334 min 396 turist səfər edib. Ötən ilin eyni dövründə Ermənistana səfər edən turistlərin sayı isə 300 min 919 nəfər olub. Bu ilin yanvar-avqust aylarında Ermənistana ən çox turist Rusiya Federasiyası (41 faiz), Gürcüstan Respublikası (13 faiz) və İran İslam Respublikasından (8 faiz) gəlib. Bütövlükdə, ilin əvvəlindən Ermənistana 1 milyon 505 min 123 turist səfər edib.

Qeyd etdiyimiz kimi, turizm bu gün Ermənistan iqtisadiyyatının, necə deyərlər, mühüm dirəklərindən biri sayılır. Kiçik əraziyə malik olmasına baxmayaraq, sahənin tədricən inkişaf etdiyini nümayiş etdirir. Ötən ay Ermənistana 334 mindən çox turist səfər edib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə artım deməkdir. Ümumilikdə isə ilin yanvar–avqust aylarında ölkəyə 1,5 milyondan çox turist gəlməsi bu sektorun iqtisadiyyata ciddi gəlir gətirdiyini təsdiqləyir. Amma diqqətçəkən əsas məqam odur ki, bu turistlərin əksəriyyəti müəyyən ölkələrdən gəlir və siyahının başında Rusiya vətəndaşları dayanır.

Ermənistana səfər edənlərin 41 faizi Rusiya vətəndaşlarıdır. Bu, təsadüfi göstərici deyil. Çünki iki ölkəni həm tarixi, həm siyasi, həm də sosial əlaqələr birləşdirir. İlk növbədə, Ermənistan uzun illərdir ki, Rusiya ilə strateji müttəfiqlik münasibətləri saxlayır. Bu müttəfiqlik yalnız dövlətlərarası münasibətlərlə məhdudlaşmır, həm Qərbin tətbiq etdiyi sanksiyalar və gərgin beynəlxalq mühit nəticəsində əksər rusiyalılar xarici ölkələrə səyahət seçimlərini dəyişməli olublar. Avropa İttifaqı ölkələrinin əksəriyyəti Rusiya vətəndaşlarının vizalarını məhdudlaşdırdığı üçün regionda münasib və əlçatan istiqamət kimi Ermənistan ön plana çıxır. Ermənistan rus turistləri üçün həm coğrafi baxımdan yaxın, həm də maliyyə baxımından münasib ölkədir. Burada qiymətlərin nisbətən ucuzluğu, rublla ödəniş imkanlarının mövcudluğu və dil problemi olmaması Rusiya vətəndaşları üçün ciddi üstünlük yaradır.

Rusiya vətəndaşlarının Ermənistana üstünlük verməsinin digər səbəbi sosial-emosional faktorlarla bağlıdır. Ermənistan özünü rus turistləri üçün “dost ölkə” kimi təqdim edir. Rusiyadan uçuşların davamlı-



Hayastan özünü həm mədəni, həm tarixi, həm də təbii məkan kimi təqdim etməyə çalışır. Qədim İrəvan şəhəri, kurort zonası Dilican, Göyçə gölünün mənzərələri, eləcə də Alban xristian irsimizi əks etdirən qədim monastırlar buraya gələn turistlərin marağını artırır. Statistik göstəricilər də bu də insanların gündəlik həyatında özünü göstərir. Rusiyada milyonlarla erməni icmasının yaşaması, iqtisadi əlaqələrin sıxlığı və dil baryerinin olmaması turist axınını asanlaşdırır.

Digər tərəfdən 2022-ci ildən sonra Rusiya ilə bağlı baş verən geosiyasi proseslər, lığı, vizasız rejim və tez-tez təşkil olunan mədəni tədbirlər bu imici möhkəmləndirir. Ermənistanın turizm strategiyasında da rus turistləri xüsusi yer tutur. Hökumət reklam və təşviqat siyasətində Rusiyanı əsas bazar kimi görür. Moskva, Sankt-Peterburq və digər iri şəhərlərdə keçirilən sərgilərdə Ermənistanın turizm imkanları aktiv şəkildə təqdim olunur. Turizm şirkətləri paket turlar təklif edərək həm istirahət, həm də mədəni proqramları birləşdirirlər. Bu da rusiyalıların Ermənistana marağını artırır.

Onu da vurğulamaq lazımdır ki, Rusiya vətəndaşlarının Ermənistana səfərləri yalnız turistik məqsədlərlə məhdudlaşmır. Bir çoxları bu ölkəni tranzit məkan kimi istifadə edir, bəziləri isə daha uzun müddətli qalmaq üçün gəlir. Ermənistanda son illərdə artan rusiyalı miqrantların sayı turizm statistikasına da təsir göstərir, çünki onlardan çoxu ilkin mərhələdə turist statusunda ölkəyə daxil olur. Lakin sonradan daimi yaşayış və ya iş imkanı əldə etməyə çalışır.

Bu isə turizmlə yanaşı, daşınmaz əmlak və xidmət sektorunda da canlanma yaradır. Nəticə etibarilə Ermənistan turizm göstəricilərində müsbət dinamika nümayiş etdirir. Lakin bu dinamikanın əsas hissəsi Rusiya bazarından asılıdır. Bu, bir tərəfdən ölkəyə stabil gəlir gətirsə də digər tərəfdən risklər doğurur. Çünki Rusiya ilə münasibətlərdə hər hansı gərginlik yaranarsa, turizm axınında ciddi azalma mümkündür. Buna baxmayaraq, hazırkı vəziyyət göstərir ki, rus turistləri yaxın illərdə də Ermənistanın turizm xəritəsində aparıcı mövqedə qalacaq.

***Səxavət HƏMİD***
***XQ***

### Ekspert rəyi



**Ramiyə MƏMMƏDOVA,**
**“World Panorama”**
**Strateji Araşdırmalar**
**Mərkəzinin rəhbəri, politoloq**

– Bu gün Rusiya vətəndaşlarının Avropa ölkələrinə, ABŞ-a, Kanadaya, Avstraliyaya, Yaponiyaya və Qərbin digər dövlətlərinə gəlişlərinə qadağa olmasa da, onlar arzuolunmaz şəxs statusundadırlar. Bu səbəbdən rusiyalılar səyahət üçün alternativ ölkələr axtarışındadırlar. Bu yaxınlarda Rusiya vətəndaşlarının Çinə səfərlərinin sayında artım qeydə alındığı açıqlandı. Çünki rusiyalıların Çinə, ümumiyyətlə Asiya ölkələrinə gediş-gəlişi problemsizdir. Asiya istiqaməti rusiyalı turistlər arasında hazırda daha populyardır. Ancaq bu ölkələrə də daha imkanlı şəxslər gedə bilirlər. Daha aşağı büdcəyə malik vətəndaşlar yaxın xaricə – Gürcüstana, Ermənistana, Qazaxıstana üz tuturlar. Gürcüstanda müəyyən hadisələr yaşandığı üçün Qərb qonşumuza səfər edən rusiyalıların sayında da azalma var. Bu baxımdan Rusiya vətəndaşlarının ən çox səfər edə biləcəkləri region ölkələri Ermənistan və İrandır. Halbuki rusiyalılar İrana tez-tez gedən deyildilər. Ancaq məcbur qalaraq İrana da gedirlər. Nəhayət, Ermənistana gəldikdə isə demək lazımdır ki, turizm də siyasi məsələlərə bağlıdır. Ona görə də bu gün rusiyalıların Ermənistana həm biznes səfərləri qurmaq, həm də istirahət üçün getmələri halları çoxalıb.

Rusiyadan Türkiyəyə gedənlər də az deyil. Ancaq son dövrlərdə Türkiyədə sürətlə bahalaşma gedib. Rusiya vətəndaşlarının iqtisadi durumu isə əvvəlki kimi yaxşı deyil. Bu səbəbdən bəzən Türkiyəni də siyahıdan çıxarırlar. Yəni, Türkiyəyə daha az səfər etməyə başlayıblar. Bu baxımdan Rusiya vətəndaşlarının Ermənistana səfərlərinin artmasına həm siyasi, həm də iqtisadi prizmadan baxmaq lazımdır.

Ermənistana səfər edən Rusiya vətəndaşları arasında siyasi motivlər səbəbindən ölkəni tərk edən şəxslər də var. Bura müharibədə iştirak etmək istəməyən sadə şəxslər, eləcə də informasiya kommunikasiya texnologiyaları üzrə mütəxəssislər daxildir.

# Fransa niyə separatizmi “diriltməyə” çalışır?

## Qondarma “Artsax”la bağlı təxribatlar heç nəyi dəyişə bilməz

**Azərbaycan və Ermənistan arasında Vaşinqtonda sülh sazişinin paraflanması, yeni infrastruktur layihələrinin gündəmə gəlməsi Cənubi Qafqazda yeni geosiyasi reallıqlar yaradıb. İllərlə davam edən münaqişə və gərginlikdən sonra iki ölkə liderlərinin sülh istiqamətində atdığı addımlar regionun gələcəyini dəyişəcək tarixi mərhələ kimi dəyərləndirilir. Məhz Cənubi Qafqazda barış küləklərinin əsdiyi dönəmdə Parisdən gələn təxribatçı səslər bu səylərin yönünü dəyişdirməyə çalışır. Emmanuel Makronun “qısqanc lider” sindromu yenə özünü büruzə verir.**



Maraqlısı odur ki, Makron öz ölkəsinin daxili problemlərini həll etmək əvəzinə, min kilometrlərlə uzaqda yerləşən dövlətlərin daxili işlərinə qarışır, separatizmi dəstəkləməklə beynəlxalq hüququ ayaq altına alır. Bunun ən bariz nümunələrindən biri bu gün Fransada keçirilməsi planlaşdırılan “Artsax: etnik təmizləmədən iki il sonra” adlı qondarma konfransdır. Burada Fransa, İsveçrə və Avropa parlamentlərinin bəzi deputatlarının, yerli özünüidarəetmə nümayəndələri və diplomatların iştirakı nəzərdə tutulur.

Təxribatçı təşəbbüsün müəllifi Fransa–Ermənistan dostluq qrupunun vitse-prezidenti, deputat Emmanuel Mandondur. Rəsmi Paris ölkəmizin 2023-cü ildə Qarabağda keçirdiyi lokal antiterror tədbirlərini təhrif etməkdən əl çəkmir. Halbuki həmin əməliyyatlar beynəlxalq hüquqa uyğun olaraq Azərbaycanın suveren ərazilərində aparılıb, yalnız separatçı silahlı birləşmələrin zərərsizləşdirilməsini hədəfləyib. Amma reallığı görmək istəməyən dairələr qərəzli şəkildə “mülki əhaliyə və infrastruktura zərbələr endirilməsi” kimi əsassız iddiaları gündəmə gətirirlər. Fransa Senatında “faciəli hadisələrin xatirəsini anmaq” adı altında keçiriləcək konfrans da bu təbliğatın bir hissəsidir. Məqsəd nə humanizm, nə də ədalətdir. Məqsəd Cənubi Qafqazda yaranan yeni sülh reallığına kölgə salmaq, separatçıların fiaskoya uğramış xəyallarına süni nəfəs verməkdir.

Proses bununla bitmir. Digər maraqlı məqam ondan ibarətdir ki, bir neçə gün əvvəl Ermənistanın xarici işlər nazirinin müavini Vahan Kostanyan Fransaya səfər edib. Görüşdə Fransanın Avropa və Xarici İşlər Nazirliyinin Avropa məsələləri üzrə naziri Benjamin Haddad da iştirak edib. Söhbətlərdə Ermənistanın Avropaya inteqrasiyası, guya, sülhün institusionallaşdırılması məsələləri müzakirə olunub. Məhz bu səfərdən dərhal sonra Fransa Senatında separatizmə dəstək tədbirinin keçirilməsi qərara alınıb. Aydın görünür ki, konfransın ideya mənbəyi erməni lobbisidir. Lakin məsələ təkcə erməni diasporunun təsiri ilə izah edilə bilməz. Tədbirin məhz Fransanın ali qanunverici orqanı – Senatda keçirilməsi Makron hökumətinin riyakarlığını, Cənubi Qafqaz siyasətindəki ikiüzlülüyünü açıq şəkildə nümayiş etdirir. Bir tərəfdən Vaşinqtonda əldə edilən razılaşmaları təqdir etmək, digər tərəfdən isə separatizmə dəstək tədbiri keçirmək Fransa diplomatiyasının ənənəvi selektiv yanaşmasının bariz nümunəsidir. Vəziyyəti daha dərindən təhlil etsək görərik ki, qondarma tədbir birbaşa Vaşinqtonda imzalanmış tarixi üçtərəfli razılaşmaya ziddir. Bu addım həm diplomatik protokola, həm də bölgədə yaranmaqda olan sabitlik mühitinə ağır zərbədir. Çünki Ermənistan da daxil olmaqla bütün dünya Azərbaycanın ərazi bütövlüyünü qəbul edib. Buna baxmayaraq, Fransa utanmadan iddia edir ki, guya iki il əvvəl keçirilmiş antiterror tədbirlərində Qarabağın erməni əhalisi arasında zərər çəkənlər olub. Amma bu iddiaları sübuta yetirəcək nə beynəlxalq fakt, nə də hesabat var. Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 15-də Xocalıda sakinlərlə görüşündə bu məsələlərə nöqtə qoydu. Dövlət başçısı həm Fransaya, həm də separatizmə dəstək verən qüvvələrə tutarlı cavab verərək bildirdi ki, Azərbaycanda separatizmə yer yoxdur. Əslində, bu reallığı Ermənistan rəhbərliyi də qəbul edib. Ermənistan və Azərbaycan arasında sülh sazişinin paraflanması bunun təsdiqidir. İndi əsas məqsəd təhlükəsizliyi təmin edəcək qərarların qəbuludur. Təəssüf ki, bunu Makron hökuməti görmək istəmir.

Erməni diasporasının təsiri altında hərəkət edən Fransa hakimiyyəti xalqların sülh şəraitində yaşamasına qarşı çıxır. Halbuki özü daxildə ciddi problemlərlə üz-üzə qalıb. Hökumət böhranı, ardı-arası kəsilməyən etiraz aksiyaları, sosial ədalətsizliklərə qarşı çıxışlar, metropoliyadan dənizaşırı ərazilərə qədər uğursuzluq zolağı və rüsvayçılıq adi hala çevrilib. Makron hökuməti özünü siyasi avantürist kimi aparır. Rəsmi Paris yaxşı dərk edir ki, Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, bölgədə separatizmin kökünün kəsilməsi, Vaşinqtonda əldə olunan tarixi razılaşmalar onu regiondan tamamilə kənarlaşdırıb. Bir vaxtlar separatçı rejimlə hərtərəfli əlaqələr saxlayan, onların maliyyələşdirilməsində və silahlandırılmasında fəal iştirak edən Paris indi oyundankənar vəziyyətə düşüb. Fransa lideri unutmamalıdır ki, Cənubi Qafqaqda sülhün bərpası və ədalətin təmin edilməsi qarşısıalınmaz prosesdir! Emmanuel Makron haypərəst siyasəti ilə məkrli niyyətini özü ifşa edir.

*Nəzrin ELDARQIZI*
*XQ*

**Ekspert rəyi**



**Fuad ABDULLAYEV,**
**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin eksperti**

Sentyabrın 19-da Fransada keçiriləcək konfransla bağlı bir neçə vacib məqama diqqət çəkmək istərdim. Konfransın başlığında istifadə olunan “etnik təmizləmə” ifadəsinin nə hüquqi, nə də faktiki əsası var. Konfransın keçirilməsində xüsusilə Fransa başda olmaqla, Avropanın müxtəlif ölkələrində fəaliyyət göstərən radikal erməni diaspor təşkilatlarının təsirini görürük. Təəssüf ki, bəzi Avropa dövlətləri də bu təsir altına düşərək sülh prosesinə mane olur, faktiki olaraq artıq bitmiş münaqişəni yenidən alovlandırmağa çalışırlar. Belə tədbirlər xalqlar arasında etimadı sarsıdır və ictimai rəyi qütbləşdirməyə xidmət edir. “Etnik təmizləmə” ifadəsinə gəldikdə isə qeyd etmək istərdim ki, Azərbaycan 2023-cü ildə BMT Nizamnaməsi və Təhlükəsizlik Şurasının 1993-cü il tarixli qətnamələrinə tam uyğun olaraq beynəlxalq səviyyədə tanınmış ərazilərində suverenliyini bərpa edib. Azərbaycan Silahlı Qüvvələrinin birgünlük antiterror tədbirləri yalnız hərbi mövqeləri yönəlmiş, mülki əhali hədəfə alınmamışdır. Bütün beynəlxalq təşkilatlar da bunu təsdiqləyib. 2023-cü ilin sentyabr hadisələri ilə bağlı həm Beynəlxalq Qırmızı Xaç Komitəsi, həm də BMT missiyası yaydığı hesabatda qeyd ediblər ki, Qarabağ ermənilərinin zorla köçürüldüyünə dair heç bir fakt yoxdur, onlar öz evlərini könüllü tərk ediblər. Eyni zamanda, Azərbaycan rəsmi şəkildə Qarabağın erməni sakinlərinə vətəndaş hüquqları, sosial təminatlar və amnistiya təklif edib. Hazırda Azərbaycan qanunları çərçivəsində hər kəsə geri dönmək və yaşamaq imkanı verilir. Lakin bu təkliflər geri çevrilir və bəzi qondarma erməni qrupları prosesi saxtalaşdıraraq “etnik təmizləmə” imici yaratmağa çalışır. Erməni diaspor qruplarının təsiri altında keçirilən siyasi aksiyalar sülhün bir addımlığında olan iki xalqa fayda gətirə bilməz. Fransız siyasətçiləri isə revanşizmə dəstək vermək əvəzinə, dialoqa və etimadın bərpasına yardım etməlidirlər.

# Baş naziri devirmək sülhü pozmağa yönəlib



**(əvvəli 1-ci səhifədə)**

Fraksiya bu addımını sistemli idarəetmə uğursuzluqları və milli böhranla izah edib. Bəyanatın mətnini fraksiya rəhbəri Hayk Mamicanyan sosial şəbəkələrdə paylaşıb. Qeyd olunur ki, Nikol Paşinyanın rəhbərlik etdiyi hökumət vəzifələrini yerinə yetirməməsi bir yana, həm də yeni problemlərin mənbəyinə çevrilib, dövlət idarəçiliyinin bütün səviyyələrində sistemli böhrana yol açıb.

Qanuna əsasən, əgər parlament səs çoxluğu ilə etimadsızlıq layihəsini qəbul edərsə, Baş nazir istefa vermiş hesab olunur. Bundan sonra hökumət tam tərkibdə buraxılır. Belə olan halda növbəti addım kimi parlament yeni baş nazir seçməlidir. Yeni hökumətin proqramı təsdiqlənməsə və ya baş nazir seçilə bilməsə, Konstitusiyada parlamentin buraxılması və erkən seçkilərin keçirilməsi nəzərdə tutulur.

Bu arada etimadsızlıq səsverməsinin keçirilməsi üçün təşəbbüsə Ermənistan Milli Assambleyasının ən azı üçdə biri, yəni 107 deputatdan 36-sı dəstək verməlidir. Müxalifət məclisdə, ümumilikdə, məhz 36 yerə sahibdir. Amma onlar əvvəllər belə təşəbbüslərdə birləşə bilməyiblər. Hətta layihə irəliləsə belə, baş nazirin vəzifədən kənarlaşdırılması üçün mütləq əksəriyyətin, yəni 54 deputatın səsi tələb olunur ki, mövcud vəziyyətdə bu, demək olar ki, mümkünsüzdür. Paşinyanın “Vətəndaş müqaviləsi” fraksiyası parlamentdə 71 yerə nəzarət edir və 2021-ci il seçkilərində elektoratın 50 faizdən çoxunun səsini qazandığından etibarlı parlament çoxluğuna malikdir. Ermənistan parlamentində Nikol Paşinyana qarşı etimadsızlıq təşəbbüsünün dəqiq müzakirə tarixi açıqlanmayıb. Müraciət təqdim olunub, lakin parlamentin rəsmi gündəliyində səsvermə və ya müzakirənin günü hələ yer almayıb. Səsvermənin və müzakirənin tarixi parlament tərəfindən rəsmən elan olunmalıdır. Məlumat üçün bildirək ki, Ermənistanda növbəti parlament seçkiləri 2026-cı ilin iyun ayında keçiriləcək.

Yeri gəlmişkən, Ermənistan siyasətində son illər müşahidə olunan ən ciddi tendensiyalardan biri baş nazir Nikol Paşinyana qarşı ölkə daxilində müxalif qüvvələrin fəallaşmasıdır. Bu qüvvələr həm keçmiş siyasi isteblişmentin, həm oliqarxların, həm də kilsənin dəstəyi ilə formalaşır. Onların əsas məqsədlərindən biri Paşinyanın sülh təşəbbüslərini zəiflətməkdir. Baş nazirə qarşı müxalif qüvvələrin mərkəzində “Şərəfim var” fraksiyası dayanır. Onun parlament fəaliyyətinə Hayk Mamicanyan rəhbərlik edir, amma blokun partiyaları və ideoloji xətti Sarkisyanın rəhbərlik etdiyi Respublika Partiyası ilə bağlıdır. Onlar Paşinyanın Qarabağ və Azərbaycanla sülh prosesi ilə bağlı siyasətini sərt tənqid edirlər.

Eyni zamanda, “Hayastan” fraksiyasının lideri, keçmiş müdafiə naziri Seyran Ohanyan da hazırkı hökumətə müxaliflərin sırasındadır. O, hakimiyyət dəyişikliyindən sonra Azərbaycanla sülh sazişinin şərtlərini “yenidən müzakirə etmək” niyyətində olduğunu açıq şəkildə bəyan edib. Onun tezisləri əsasən üç məqam üzərində cəmləşir: müqavilənin hər detalının təhlili, “ermənipərəst” mövqeyin gücləndirilməsi və danışıqlar yolu ilə bu mövqenin irəli sürülməsi.

Xatırladaq ki, Paşinyana qarşı mübarizədə müxalifət yalnız keçmiş siyasi liderlərlə kifayətlənmir. Ermənistanın maliyyə və media elitasını təmsil edən oliqarxlar da bu qüvvələrin yanındadırlar. Onlar Paşinyanın iqtisadi və diplomatik təşəbbüslərinə qarşı çıxaraq, ölkədə siyasi atmosferi gərginləşdirməklə sülh prosesinə mane olmağa çalışırlar. Bu zaman kilsə də müxalif qüvvələrin tərəfdarı kimi çıxış edir.

Qeyd etmək lazımdır ki, 2026-cı il parlament seçkisi Paşinyanın siyasi gələcəyini müəyyən edəcək. İndi onun əsas məqsədi hakimiyyəti qoruyub saxlamaq və yenidən baş nazir postuna yiyələnməkdir. Bunun üçün o, bir neçə istiqamətdə fəaliyyət göstərir. Bunlardan birincisi, müxalifəti zəiflətmək, parçalamaq və onun cəmiyyətdə təsirini azaltmaqdır. İkincisi, Qərbin siyasi və maliyyə dəstəyini maksimum səviyyədə almaq. Üçüncüsü isə Ermənistanın regionda nüfuzlu mövqe qazanması üçün Azərbaycan və Türkiyə ilə münasibətlərdə çevik addımlar atmaqdır. Seçkilərdə qələbə qazanarsa, Nikol Paşinyanın kilsəyə qarşı mübarizəsini daha da gücləndirəcəyi və onu tamamilə öz nəzarətinə almağa çalışacağı gözlənilir. II Qareginin erməni kilsəsinin rəhbərliyindən uzaqlaşdırılmasına da şahid ola bilərik.

Azərbaycanla münasibətlərə gəldikdə, hələlik, Nikol Paşinyan Bakı ilə sülh müqaviləsi bağlamaqda maraqlı görünür. Konstitusiyanın dəyişəcəyi təqdirdə buna heç bir maneə qalmır. Əks təqdirdə, yəni gələn il Ermənistanda müxalifət qələbə qazanarsa, Azərbaycanla yekun sülh sazişinin bağlanması təxirə düşə bilər. Bu isə ilk növbədə Ermənistanın özünə zərər verər. Azərbaycanla münasibətlərin yenidən pozulması erməni tərəfi üçün əlverişli olmayacaq. ABŞ-da paraflanmış sülh müqaviləsinə qarşı çıxmaq isə rəsmi İrəvanın beynəlxalq arenadakı imicinə mənfi təsir göstərəcək.

*Musa BAĞIRLI*
*XQ*

**Ekspert rəyi**



**Tural İSMAYILOV,**
**politoloq**

Müxalifətin mövcud hakimiyyəti devirmək üçün kifayət qədər sosial bazası olmasa da, atdığı addımlar ölkə daxilində siyasi təzyiq yaratmaq məqsədi daşıyır. Xüsusilə, Azərbaycanla sülh danışıqlarına əngəl olmaq cəhdləri diqqət çəkir. Müxalifətin bu strategiyası regional sülh prosesinə təsir göstərməyə yönəlib. Paşinyan hökuməti isə siyasi sabitliyi qorumağa çalışır. Ölkədəki iqtisadi və sosial problemlər müxalifətin tənqidlərinə zəmin yaradır. Ancaq ictimai rəyin yekcins olmaması müxalifətin geniş dəstək qazanmasını çətinləşdirir. “Şərəfim var” fraksiyasının təşəbbüsü parlamentdə dəstək toplamaqda çətinlik çəkə bilər. Çünki Paşinyanın partiyası parlamentdə çoxluğa malikdir. Müxalifətin bu addımı daha çox simvolik xarakter daşıyır. Ölkədəki gərginlik xarici siyasətə də təsir edir.

Azərbaycanla sülh müqaviləsi müzakirələri hökumət üçün prioritet olaraq qalır. Lakin müxalifət bu prosesi ləngitməyə çalışır. Onlar Paşinyanı “milli maraqları təhvil verməkdə” ittiham edir. Bu ittihamlar ictimaiyyətdə birmənalı qarşılanmır. Bəzi vətəndaşlar sülhə dəstək versə də, digərləri müxalifətin təbliğatına qoşulur. Müxalifətin təzyiqləri hökumətin islahatlar gündəminə maneçilik törədir. Eyni zamanda, regional sabitlik üçün sülh danışıqlarının uğuru vacibdir. Hökumət-müxalifət qarşıdurması ölkənin gələcək trayektoriyasını müəyyənləşdirə bilər. Regional dinamika və daxili sabitlik arasında tarazlıq yaratmaq Paşinyan üçün əsas çağırışdır. Müxalifətin təzyiqləri bu tarazlığı pozmağa yönəlib. Ermənistan cəmiyyəti isə bu prosesdə həlledici rol oynayacaq.

# İslamabadda Azərbaycanın Suverenlik Günü



**Azərbaycan Pakistandakı səfirliyinin təşəbbüsü ilə bu ölkənin ən nüfuzlu universitetlərindən olan Müasir Dillər Universitetində “Suverenlik və Konstitusiya: Dövlətçiliyin möhkəmləndirilməsi” mövzusunda seminar keçirilib.**

Seminar Prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan olunması, habelə 20 Sentyabr – Dövlət Suverenliyi Günü ilə əlaqədar təşkil olunub. Ali təhsil ocağının müəllim-tələbə heyətinin, beyin mərkəzlərinin nümayəndələrinin, media və QHT təmsilçilərinin qatıldıqları seminarda çıxış edən Azərbaycan səfiri Xəzər Fərhadov “Konstitusiya və Suverenlik İli” və 20 Sentyabr – Dövlət Suverenliyi Gününün mahiyyəti ilə bağlı geniş məlumat verib. Bildirilib ki, Ulu Öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış Azərbaycanın ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil edib.

Pakistanın hüquq, ədliyyə, parlament işləri və insan haqları üzrə sabiq federal naziri Ahmer Bilal Sufi, Pakistanın Qlobal və Strateji Araşdırmalar Mərkəzinin icraçı direktoru Xalid Teymur Əkrəm, NUML-in Xarici dillər fakültəsinin dekanı, professor Cəmil Əsgər Cami və digərləri Azərbaycanın ərazi bütövlüyü və suverenliyini tam bərpa edən tarixi qələbələrindən, işğaldan azad edilən ərazilərdə aparılan quruculuq və abadlıq işlərindən, keçmiş məcburi köçkünlərin ata-baba torpaqlarına Böyük Qayıdışından, Azərbaycanın müasir dövlətçiliyinin təməlini təşkil edən konstitusiya dəyərlərinin qorunması və bu istiqamətdə atılan addımların əhəmiyyətindən, eləcə də yüksələn dinamika ilə inkişaf edən Azərbaycan ilə Pakistan arasındakı əlaqələrdən bəhs ediblər.

Sonda tələbələri maraqlandıran suallar cavablandırılıb.

*XQ*

# Beynəlxalq sülh, təhlükəsizlik və inkişafın təşviqi: Azərbaycanın yeni geosiyasi statusu

**Prezident İlham Əliyevin ABŞ və Çinə səfəri dünyanın nüfuzlu ekspertlərinin və siyasətçilərin aktiv təhlil mövzularından birinə çevrilib. Məsələ çox geniş geosiyasi və siyasi kontekstə malikdir. Təhlillər Azərbaycan liderinin böyük uğurlara imza atdığını təsdiqləyir.**

## Azərbaycan və beynəlxalq münasibətlər sistemi

Müstəqil dövlətin beynəlxalq münasibətlər sistemində tutduğu yerin və oynadığı rolun onun dövlət kimi imicinin formalaşmasında çox ciddi önəm kəsb etdiyinə şübhə yoxdur. Mütəxəssislər bunun əsas olaraq iki səbəbini göstərirlər.

Birincisi, XXI əsrdə qloballaşmanın sürəti və əhatə dairəsi zəruri şəkildə istənilən müstəqil dövlətin beynəlxalq münasibətlər sistemində fəaliyyətini dünya miqyasında qiymətləndirmək ehtiyacını meydana gətirib.

İkincisi, müstəqil dövlət özünün milli maraqları naminə beynəlxalq münasibətlər sistemində daha fəal və nəticəverici fəaliyyət göstərməyə məhkumdur.

Bu iki tələbin ortaq məntiqi XXI əsrdə müstəqil dövlətin dünya siyasi, iqtisadi, geosiyasi, mədəni, hərbi və təhlükəsizlik meydanındakı mövqeyinin daha böyük əhəmiyyət daşıdığını ifadə edir. Regional miqyasda dövlətin atdığı addımların çox sürətlə qlobal miqyasa təsir etdiyini təsdiqləyən faktlar kifayət qədərdir.

Vurğuladığımız bu məqamların işığında Azərbaycanın beynəlxalq münasibətlər sistemində statusunun sürətlə dəyişdiyi qənaətinə gələ bilərik. Bu dəyişikliyi ekspertlər müsbət qiymətləndirirlər. Həmin təsbitin fonunda son iki ayda rəsmi Bakının beynəlxalq münasibətlər sistemindəki statusunun yenilənməsinin başlıca istiqamətlərinə nəzər salaq. Bunun üçün öncə, qısa da olsa, müasir beynəlxalq münasibətlər sisteminin və dünya nizamının formalaşmasının elmi qiymətləndirilməsinə diqqət yetirmək lazım gəlir. Çünki Azərbaycan bu istiqamətdə fundamental yeniliklərə apara biləcək addımlar atır ki, onların da geosiyasi-nəzəri dərki çox vacibdir.

## Müasir beynəlxalq sistem

Bu, müasir geosiyasi mənzərəni müəyyən edən qarşılıqlı əlaqədə olan dövlətlər, beynəlxalq təşkilatlar və başqa aktorların kompleksidir. Burada başlıca məqam ümumi geosiyasi mənzərənin yaranması özəllikləri ilə bağlıdır. Bu mənada müasir geosiyasi mənzərə çoxqütblülük, regionlaşmanın güclənməsi, təhlükəsizlik və iqtisadi sferalarda yeni çağırışların meydana gəlməsi kimi faktorların qarşılıqlı təsirləri kontekstində qiymətləndirilir. Bu sırada dəyişən qlobal şəraitdə dövlətlərin suverenliyi məsələsi də çox aktualdır. Məqalədə Azərbaycanın müstəqil dövlət kimi fəaliyyətində məhz bu sonuncu faktor diqqət mərkəzində olacaq.

Həmin kontekstdə çoxqütblülüyün güclənməsi müstəvisində yeni risklər və çağırışları nəzərə almaqla geosiyasi aktorların rolunun artması və dövlət suverenliyinin təkamülü ön plana çıxır. Azərbaycan sözün tam mənasında müstəqil dövlət kimi dünya arenasına yeni geosiyasi aktor statusunda çıxıb. Burada güc balansının regional və qlobal miqyaslarda Azərbaycanın təsiri ilə yeniləşməsi məsələsi əhəmiyyətli faktor olaraq qiymətləndirilməlidir.

## Beynəlxalq münasibətlərin müasir strukturu: ümumi təsəvvürlər

Tədqiqatçılar XXI əsrdə beynəlxalq münasibətlər sisteminə üç yanaşmanın mövcud olduğunu vurğulayırlar.

Birincisi, birqütblüyü qəbul edən yanaşmadır. Bu yanaşmada dünyada yeganə lider dövlət kimi ABŞ göstərilir.

İkinci yanaşma ikiqütblüyə əsaslanır. Hesab olunur ki, bu, daha dayanıqlı beynəlxalq münasibətlər sistemini formalaşdırır. Bu zaman dünya mədəni özəlliyinə görə iki əsas qütbə bölünür.

Üçüncü yanaşmada dünyanın çoxqütblüyü aksiom kimi qəbul edilməklə bir neçə güc mərkəzinin olduğu vurğulanır. Həmin yanaşma çərçivəsində beynəlxalq münasibətlər sisteminin məzmununda müxtəlif güc mərkəzləri arasında konkret müəyyən edilmiş kriteriyalar fonunda qüvvələr nisbətinin dəyişməsinə xüsusi diqqət yetirilir.

Bunlar onu göstərir ki, müasir mərhələdə qlobal miqyasda monoqütblü atlantizmlə çoxqütblü dünya modeli arasında gərgin mübarizə gedir. Azərbaycanın geosiyasi statusu da məhz bu mübarizənin mürəkkəb dinamikası fonunda yeniləşir. Deməli, rəsmi Bakı kifayət qədər mürəkkəb və ziddiyyətli geosiyasi dinamika çərçivəsində uğurlu addımlarını sistemli olaraq atmaqdadır. Regional və qlobal miqyas üçün də əhəmiyyətli olanı bundan ibarətdir.

## Dünyanın geosiyasi düzəni: suallar və cavablar

Mütəxəssislər müasir dünyanın geosiyasi düzəninə beynəlxalq münasibətlər sisteminin özəllikləri kontekstində baxır və bu əsasda onun inkişaf tendensiyalarını müəyyən etməyə çalışırlar. Tədqiqatçılara görə, bütövlükdə dünya nizamı polisentrik struktura malikdir.

Ancaq bu tezisi sual kimi də verənlər var. Məsələn, H.Kissincerə görə, hələlik dünyada, ümumiyyətlə, düzən formalaşmayıb və bu mövzuda olan mülahizələr, əsasən, spekulyativ xarakterlidir. Bu o deməkdir ki, bir sıra araşdırmaçıların "çoxmərkəzli dünya düzəni" adlandırdıqları nümunə hələlik mövcud deyil, lakin onun bir sıra əlamətləri artıq vardır. Bununla yanaşı, dünya düzəninin dinamikasında ciddi qüvvələr dəyişikliyindən bəhs edilir.

Belə ki, hazırda başlıca dəyişiklik ən güclü dövlətlər arasında gedən mübarizənin məntiqinə tabedir. Bəs müstəqil dövlətlərin suverenliyi? Bu sual həm də bir sıra araşdırmaçının müasir geosiyasi mənzərədə neoimperialist iddiaların artması və bunun da əlamətlərindən biri kimi başqa aktorlar üzərində qeyri-formal nəzarətin həyata keçirilməsinin artıq dayanıqlı trendə çevrildiyi haqqında fikirləri fonunda yaranır.

Bütün bunlar sürətlə dəyişən geosiyasi mənzərədə Azərbaycan kimi inkişaf edən və təsir dairəsi genişlənən müstəqil dövlətlərin qlobal geosiyasi statusunun müəyyən ediilməsini daha da aktuallaşdırır.

## Strateji qərarların çevik qəbul olunması problemi

Yuxarıda vurğulanan xüsusiyyətlər istər-istəməz tədqiqatçılardan dünya miqyasında strateji qərarların zamanında qəbulu məsələsinə diqqətin yönəldilməsini tələb edir. Beynəlxalq münasibətlər sisteminin həmin kontekstdə təhlili və orada dünyanın əsas geosiyasi güclərinin mübarizəsi ilə cəmiyyətlərin dayanıqlı inkişafı prosesinin yeniləşməsi nisbətinin dəyişməsi dünyanın idarəedilməsinin zəifləməsi məsələsini ön plana çıxarır. Məhz bu kontekstdə çevik qərar qəbuletmə ilə dünyanın idarəedilməsi arasında nisbətin düzgün müəyyən edilməsi məsələsi daha da aktuallaşır. Yekunda geosiyasi kontekstdə dünyanın yenidən nüfuz dairələrinə bölünməsi kimi problemlə qarşılaşmış oluruq.

Bütün bunlar zəruri olaraq başqa məqamlarla yanaşı, beynəlxalq sülh, təhlükəsizlik və inkişafın təşviqini də aktuallaşdırır. Eyni zamanda, yeni yüksələn qüvvələrin (məsələn, Azərbaycanın) həmin prosesdə rolunun əhəmiyyətini qabardır.

Biz vurğuladığımız və qlobal geosiyasətin başlıca özəlliklərinə aid olan faktorların qarşılıqlı münasibətləri fonunda Azərbaycan Prezidentinin iki istiqamətdə – Qərb və Şərq istiqamətlərində həyata keçirdiyi siyasətin bir sıra xüsusiyyətlərini təhlil edəcəyik.

## Vaşinqtonda Azərbaycan imzası

Şübhə etmirik ki, Prezident İlham Əliyevin Vaşinqton səfəri müasir geosiyasi və siyasi təlimlərin araşdırmalı olduğu aktual mövzulardan biridir. Yuxarıda müasir geosiyasətin və dünya düzəninin bir sıra prinsipial məqamlarına toxunmaqda məqsədimiz də vurğuladığımız bu tezisin əsaslı olduğunu göstərməkdir. Yəni, Azərbaycan Prezidenti "dünyanın bir nömrəli paytaxtında və bir nömrəli ofisində" elə bir razılaşmaya nail olmuşdur ki, onun bəhrələrini mütləq surətdə regional və qlobal miqyaslarda bir çox dövlətlər aydın görəcəklər. Çünki həmin nailiyyət geniş bir məkanda geosiyasi mənzərəni dəyişir. Tarixdə belə proseslər nadir hallarda olur. Cənubi Qafqaz regionu üçün həmin özəllik bu gün xüsusi anlam və əhəmiyyət kəsb edir.

Məsələ ondan ibarətdir ki, əsrlərdir kənar qüvvələrin destruktiv təsiri nəticəsində Cənubi Qafqaz regionunun ümumi geosiyasi mənzərəsi qeyri-müəyyənlik, dövlətlər və xalqlar arasında ixtilaflarla xarakterizə olunurdu. Azərbaycan 44 günlük Vətən müharibəsi ilə bu dağıdıcı və qeyri-konstruktiv gedişatı pozdu. Özü də elə dərindən və elə bir miqyasda bunu etdi ki, "çox daşları yerindən tərpətdi" (Prezident İlham Əliyev). Əvvəlcə bu reallığı qəbul etmək istəmədilər. Lakin məhz Azərbaycan Prezidentinin qətiyyətli, ədalətli və davamlı siyasəti sayəsində bütövlükdə Qərb və ilk növbədə, ABŞ onu etiraf etdi. Vaşinqton razılaşması həmin etirafın sənədləşməsidir. Azərbaycanın "nəfəsi" və "İmzası"nın qlobal proseslərdə aydın hiss olunması da bunun təsbitidir.

Burada əsas arqument Vaşinqtonda paraflanan sənədin Azərbaycanın təklif etdiyi və hazırladığı şərtlər daxilində tərtib edilməsidir. Buraya Ermənistanla bağlanacaq sülh müqaviləsinin beş baza prinsipi də daxildir.

Digər faktor Zəngəzur dəhlizi məsələsinin ön plana çıxarılmasıdır. Hər şeydən öncə, həmin yenilik Prezident İlham Əliyevin siyasi kursunu yüksək diplomatik məharətlə dünyaya sübut etməsi ilə əlaqəlidir.

Başqa bir nailiyyət uzun müddətdir ki, Azərbaycana və Türkiyəyə qarşı təzyiq üçün spekulyativ istifadə olunan erməni diasporunu İlham Əliyevin, faktiki olaraq, oyundankənar vəziyyətə salmasından ibarətdir. Hazırda Ermənistanla münasibətlərin müəyyən olunmasında erməni diasporunun zərrə qədər də təsiri hiss olunmur. Əvəzində, rəsmi İrəvanla yanaşı, rəsmi Vaşinqton da Azərbaycanın təklif etdiyi normallaşma modelini qəbul ediblər. Deməli, bu aspektdə də tarixi dönüş əldə edilib. Onun başlıca mənası artıq qarşı tərəfin təzyiq vasitəsi kimi erməni diasporu amilindən istifadənin faydasız olduğunu qəbul etməsindən ibarətdir.

Üzərində dayandığımız faktorlar Vaşinqtonda paraflanan sənədin – "Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş"in qlobal əhəmiyyəti barədə fikir bildirməyə imkan verir.




## Vaşinqton razılaşması qlobal geosiyasətin elementi kimi

Öncə, sənədlə bağlı konkret müddəaları vurğulayaq. Onlar sayca çox deyil – cəmi 17 maddədir. Ancaq həmin maddələrdə ikitərəfli münasibətlərin beynəlxalq hüquqi normalar çərçivəsində qurulmasının bütün aspektləri öz əksini tapıb.

Sənədin XII maddəsində qeyd olunur: "Tərəflər ikitərəfli münasibətlərində beynəlxalq hüququ və bu Sazişi rəhbər tutacaqlar. Tərəflərdən heç biri özünün daxili qanunvericiliyinin müddəalarına bu Sazişi icra etməməyə haqq qazandırmaq üçün istinad etməyəcəklər;

Tərəflər, Müqavilələr hüququ haqqında Vyana Konvensiyasına (1969) uyğun olaraq, bu Sazişin qüvvəyə minməsindən əvvəl onun obyekti və məqsədinə xələl gətirən fəaliyyətlərdən çəkinəcəklər".

XIII maddə isə bunun məntiqi və feili davamıdır. Orada vurğulanır: "Tərəflər bu Sazişin tam icrasına zəmanət verirlər və hazırkı Sazişin icrasına nəzarət məqsədilə ikitərəfli komisiya təsis edəcəklər. Bu Komissiya Tərəflər arasında razılaşdırılacaq modallıqlar əsasında fəaliyyət göstərəcək".

Göründüyü kimi, tərəflər münasibətlərdə beynəlxalq hüququ rəhbər tutaraq bu "hüquqi çətir" altında sazişdə yer almış maddələrə uyğun hərəkət edəcəklər. Deməli, söhbət tarixdə ilk dəfə olaraq region dövlətləri arasında münasibətlərin qurulmasında beynəlxalq hüquq normalarına istinad hər iki tərəfdən qəbul edilib. Bu mənada sözügedən saziş beynəlxalq münasibətlər sisteminin və geosiyasətin yeni elementi kimi qiymətləndirilməlidir. Sonuncu tezisdən iki nəticə hasil olur.

Birincisi, Azərbaycanla Ermənistanın münasibətləri əvvəlki mərhələlərdəki məhdud siyasi, geosiyasi və hüquqi şərtlərin sərhədini aşaraq beynəlxalq hüququn tərkib hissəsi müstəvisinə keçir. Bu isə o deməkdir ki, regionda müəyyənedici rolu hansısa böyük dövlətin ambisiyaları, tələbləri, eqoist niyyətləri deyil, beynəlxalq hüququn normaları oynayacaq.

Geosiyasi nəzəriyyələrdə bu, Azərbaycanın fəaliyyəti sayəsində Cənubi Qafqazın da "yeni region"a çevrilməsi prosesinin getdiyini göstərir.

İkincisi, Azərbaycan bu tarixi uğuru ilə, faktiki olaraq, Vaşinqtondan Çinə qədər çox geniş geosiyasi məkanda yeni inteqrasiya modelini yaratmaqdadır.

## Geosiyasi-strateji aspekt: sistem təfəkkürün formalaşması zərurəti

Bir sıra ekspertlər Vaşinqton razılaşmasının "Vaşinqtondan Pekinə qədər" geosiyasi dinamikaya yeni impuls verdiyini yazırlar. Bu yanaşma düşündürücü və əsaslıdır. Çünki doğrudan da, Prezident İlham Əliyevin kreativ diplomatik fəaliyyəti sayəsində dünya miqyaslı dəyişmə proseslərinə təkan verilə, o cümlədən qarşıdurmada olan Amerika ilə Çinin geosiyasi anlaşması üçün real baza yarana bilər. Bu məsələnin nəzəri aspekti hazırda tədqiqatçıların diqqət mərkəzindədir. Bütövlükdə "geosiyasətdə və beynəlxalq münasibətlərdə sistem təfəkkürü"nün formalaşması zərurəti intensiv olaraq tədqiq edilir.

Geosiyasətdə sistem təfəkkürün zəruriliyi məsələsinin nəzəri tədqiqinin aktuallaşması təsadüfi deyil. Liderlərin praktiki fəaliyyətində bunun artıq böyük ehtiyaca çevrildiyinin fərqindədirlər. Bu baxımdan Prezident İlham Əliyevin Vaşinqton razılaşmalarına nail olması ilə yanaşı, Tiencində Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) 25-ci Zirvə görüşündəki çıxışı zamanı irəli sürdüyü fikirlərin məzmunu, həmçinin, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) Beyin Mərkəzləri Forumunun 13-cü sessiyasının iştirakçılarına ünvanladığı müraciət Azərbaycan liderinin yüksək geosiyasi sistem təfəkkürünə malik olduğunu göstərir.

## Prezident İlham Əliyevin Tiencin tezisləri

Azərbaycan Prezidenti Çinin Tiencin şəhərində keçirilən "ŞƏT plyus" formatlı Zirvə görüşündə geniş bir coğrafiyada siyasi aktorların konfiqurasiyasına təsir edə bilən və həmin kontekstdə Vaşinqton razılaşmalarını məqsədcə tamamlayan tezislər irəli sürüb. İlham Əliyev Zirvə görüşündəki çıxışında deyib: "Son iki ildə əlaqələrimiz keyfiyyətcə yeni səviyyəyə yüksəlib. Ötən il Astanada keçirilmiş ŞƏT Sammiti çərçivəsində biz strateji tərəfdaşlıq qurduq. Bu il mənim Çinə dövlət səfərim zamanı hərtərəfli strateji tərəfdaşlıq münasibətlərinin təsis edilməsi barədə Birgə Bəyanat imzalandı. Bu tarixi hadisə Azərbaycan-Çin münasibətlərində yeni bir səhifə açdı".

Bu fikirlərdə iki ölkə arasında strateji tərəfdaşlıq münasibətlərinin hərtərəfli strateji tərəfdaşlıq münasibətlərinin təsis edilməsi səviyyəsinə yüksəlməsinin konseptual mənası ilə praktiki reallaşmasının nisbəti öz ifadəsini tapıb. Politoloji və geosiyasi aspektdə bu sürətli irəliləyişin mümkünlüyünün kriteriyaları böyük maraq doğurur. Məhz həmin kontekstdə Azərbaycanın Vaşinqton fəthinə aparan konseptual fəaliyyətinin başlıca məqamları daha da aktuallaşır. Bu prosesdə Azərbaycan Prezidenti dövlətin sülhsevərliyi ilə identikliyinin vəhdəti əsasında beynəlxalq hüquq normalarına tam uyğun olan konstruktiv ruhlu təşəbbüslər irəli sürüb.

Bunu, təbii ki, Pekin görürdü və indi aydın olur ki, həm də yüksək qiymətləndirir. Deməli, İlham Əliyev müasir tarixi şəraitdə nadir hallarda rast gəlinən səmərəli konseptual və diplomatik addım atıb. Azərbaycan Prezidenti ciddi rəqabətdə olan iki nəhəng dövlətin maraqlarını konkret məsələlərdə uzlaşdırmağa nail olub. ABŞ və Çin hazırda Azərbaycanla enerji, nəqliyyat, logistika, informasiya təhlükəsizliyi və digər sferalarda əməkdaşlığı daha da inkişaf etdirə bilərlər. Bu, çox mühüm nailiyyətdir.

Azərbaycan liderinin aşağıdakı fikri vurğuladığımız aspektdə olduqca əhəmiyyətlidir. Prezident İlham Əliyev deyib: "Azərbaycanla Çin arasında əlaqələrin dərinləşdirilməsi Azərbaycanın xarici siyasətinin mühüm istiqamətlərindən biridir".

Deməli, rəsmi Bakı həyata keçirdiyi geniş əməkdaşlıq xəttini davam etdirmək niyyətindədir. Bu özəllik Azərbaycan liderinə olan etibarın və etimadın səviyyəsinin yüksək olduğuna dəlalət edir. Dövlət başçısı bu barədə Tiencində konkret tezis də ifadə edib. Prezident İlham Əliyev xüsusi vurğulayıb: "Azərbaycan regionda Çinin etibarlı tərəfdaşıdır. Biz beynəlxalq və regional sülhün və təhlükəsizliyin qorunmasına töhfə veririk, genişmiqyaslı iqtisadi, nəqliyyat və enerji layihələri həyata keçiririk".

Vurğulanan məqamların ümumi mənası və məzmunu İlham Əliyevin çıxışında səsləndirdiyi bir fikrində çox dəqiq ifadə edilib. Prezident İlham Əliyev Azərbaycan-Çin münasibətlərinin ümumi geosiyasi məqsədi ilə konkret məzmununa ümumi-konseptual mövqedən aşağıdakı kimi qiymət verib: "Azərbaycan beynəlxalq sülhün, təhlükəsizliyin və inkişafın təşviqi məqsədilə Çin tərəfindən irəli sürülmüş Qlobal İnkişaf Təşəbbüsünü, Qlobal Təhlükəsizlik Təşəbbüsünü və Qlobal Sivilizasiya Təşəbbüsünü fəal şəkildə dəstəkləmişdir. Biz, həmçinin Çin Xalq Respublikasının Sədri tərəfindən irəli sürülmüş Qlobal İdarəetmə Təşəbbüsünü dövlətlərin suveren bərabərliyi, BMT Nizamnaməsi və beynəlxalq hüquqa hörmət əsasında beynəlxalq münasibətlərin yaxşılaşdırılmasına yönəlmiş mühüm və vaxtında atılmış bir addım kimi alqışlayırıq".

Buradan Vaşinqtonla Pekin arasında "Azərbaycan bağlantısı"nın ana tezisi yaranır. Vaşinqtonda paraflanmış Ermənistanla münasibətlərə dair sazişin şərtləri və ayrılıqda Azərbaycan-ABŞ əməkdaşlığının prinsiplərinə və istiqamətlərinə aid müddəaların müəyyən edilməsi ideya baxımından Tiencin tezisləri ilə uyğunluq təşkil edir. Hər iki istiqaməti beynəlxalq sülhün, təhlükəsizliyin və inkişafın təşviqi birləşdirir.

## AQEM-ə müraciət

Bu tezis Prezident İlham Əliyevin "İnkişaf və təhlükəsizliyin rezonansı: AQEM-in institusional transformasiyasında regional əməkdaşlıq və idarəetmə" adlı AQEM-in Beyin Mərkəzləri Forumunun 13-cü sessiyasının iştirakçılarına ünvanladığı müraciətdə daha da inkişaf etdirilib. Müraciətdə deyilir: "Ölkəmizin suverenliyini və ərazi bütövlüyünü bərpa etməsindən sonra regionda təşviq etdiyimiz sülh gündəliyi xarici siyasətimiz üçün yeni üfüqlər açır və onun daha qlobal xarakter daşıması baxımından mühüm amil rolunu oynayır. Keçən ay Azərbaycanla Ermənistan arasında sülh sazişinin paraflanması həm bölgə, həm də daha geniş coğrafiya üçün əlverişli imkanlar yaradır".

Azərbaycan Prezidentinin tezisindəki dəqiqliyə, dərinliyə, ədalətliyə, sülhsevərliyə və geosiyasi perspektvliyə diqqət edək: "...regionda təşviq etdiyimiz sülh gündəliyi xarici siyasətimiz üçün yeni üfüqlər açır və onun daha qlobal xarakter daşıması baxımından mühüm amil rolunu oynayır". Bu tezisi Azərbaycan Prezidentinin Çinlə bağlı irəli sürdüyü qiymətləndirmə ilə müqayisə edək. Bir daha xatırlatmaq istərdik ki, Prezident İlham Əliyevin Tiencindəki çıxışında səsləndirdiyi ilk tezisində cəmi iki il müddətində Azərbaycanla Çinin strateji tərəfdaşlığı qurmaqdan onu hərtərəfli genişləndirmək mərhələsinə keçid edə bildikləri əks olunmuşdu.

Burada Azərbaycanın dövlət başçısı nəzəri-konseptual paralellər aparır: regional sülhdən qlobal sülhə keçidlə strateji tərəfdaşlığın bazasını yaratmaqdan onu hərtərəfli genişləndirmək mərhələsinə keçmək eyni siyasi məntiqə söykənir. Həmin dinamikanın ümumpolitoloji anlamının qayəsini isə aşağıdakı tezis təşkil edir: "Azərbaycanın xarici siyasət kursunda qarşılıqlı faydalı əməkdaşlıq formatları sülhsevərliklə vəhdətdə gerçəkləşdirilir". Bizcə, müasir geosiyasi təlimlər üçün də aktual və əhəmiyyətli mövqedir. Burada AQEM kontekstində bir özəlliyi də vurğulamağa ehtiyac görürük.

## AQEM-in yeni məkanı: Azərbaycan!

Asiya qitəsində dövlətlərin qarşılıqlı fəaliyyəti və bir-birinə etimadı məsələsinin geosiyasi anlamı yalnız həmin qitənin sərhədləri ilə məhdudlaşmır. Beyin mərkəzləri problemə bütövlükdə Qlobal Cənub kontekstində yanaşırlar. Burada da başlıca məqsəd müasir geosiyasi proseslərdə Cənubun Şimalla eyni statusda qəbul edilməsi ilə bağlıdır. Bundan başqa, Qlobal Cənubun tarixi aspektdə də ciddi problemləri olub, ölkələr tarixən ədalətsizlik, istismar, mədəni təcridçiliklə qarşılaşıblar. Bu barədə Prezident İlham Əliyev müraciətində konkret fikir bildirib. Azərbaycanın dövlət başçısı deyib: "Qlobal Cənubun tarixən üzləşdiyi ədalətsizliklərdən biri də Asiya və Afrika xalqlarının taleyində ağrılı izlər buraxmış müstəmləkəçilik siyasəti olmuşdur. Azərbaycan müasir dövrdə müstəmləkəçiliyin utancverici mirasının aradan qaldırılması və neokolonializm təzahürlərinin ifşa olunması sahəsində yeni bir mərhələnin başlanğıcını qoymuşdur. Biz bu vacib məsələ ilə əlaqədar beynəlxalq həmrəyliyin səfərbər edilməsi yolunda səylərimizi bundan sonra da qətiyyətlə davam etdirəcəyik".

Digər problemləri də kompleks şəkildə nəzərə aldıqda, Qlobal Cənubun və onun daxilində Asiya qitəsinin dünya siyasətində iştirak statusunun transformasiyasının nə dərəcədə aktual olduğu qənaəti formalaşır. Prezident İlham Əliyev bununla bağlı müraciətində vurğulayıb: "Bu gün Asiya həm iqtisadi potensialı, həm də qlobal proseslərə təsiri baxımından dünyanın güc mərkəzlərindən birinə sürətlə çevrilməkdədir. Buna baxmayaraq, təəssüf ki, qitə ölkələrinin də daxil olduğu Qlobal Cənub əhəmiyyətli qərarların qəbulu prosesində kifayət qədər təmsil olunmur".

Deməli, AQEM-in Beyin Mərkəzləri Forumunun Bakıda keçirilən sessiyası, əslində, inkişaf və təhlükəsizliyin elə rezonansıdır ki, buradan Qlobal Cənub miqyasında təşkilatların institusional transformasiyasında regional əməkdaşlıq platformaları və idarəetmənin dərindən öyrənilməsinin aktuallığı aydın olur. Məhz bu səbəbdən Azərbaycan lideri "İlk dəfə olaraq Çindən kənarda keçirilən bu forumun məhz Azərbaycanda baş tutması məmnunluq doğurur" fikrini ifadə etməkdə tam haqlıdır.

Həm də o səbəbdəndir ki, XXI əsrdə dövlətlər və cəmiyyətlərin inkişafında (həm də birgə inkişafında) beyin mərkəzlərinin rolu əvəzedilməzdir. Situasiya o dərəcədə mürəkkəbdir ki, onu dərindən, ədalətli və obyektiv şəkildə araşdırmadan davamlı, sistemli fəaliyyət modeli işləyib hazırlamaq imkansızdır. Belə ki, beyin mərkəzlərinin "...müxtəlif sahələrdə apardığı araşdırmalar qlobal çağırışların – təhlükəsizlik, iqtisadiyyat, texnologiya və ekoloji problemlərin həlli üçün mühüm zəmin yaradır. Bununla da beyin mərkəzləri həm milli, həm də beynəlxalq səviyyədə qərarların daha səmərəli və düzgün qəbuluna öz töhfələrini verirlər".

Bütün bunlara görə, şübhəsiz ki, AQEM formatında da ölkələrin beyin mərkəzlərinin əməkdaşlığı problemin həllinə ciddi töhfə verə bilər. Hər şeydən öncə ona görə ki, Qlobal Cənub üçün vurğulanan problemlər daha aktualdır. AQEM bu kontekstdə "... ölkələr və xalqlar arasında qarşılıqlı anlayışın güclənməsi və regional inteqrasiyanın dərinləşməsi üçün əlverişli perspektivlər açır".

Beləliklə, AQEM Qlobal Cənub ölkələrinin yeni ədalətli dünya nizamının formalaşdırılmasında yaxından iştirakı üçün ciddi imkanlar yarada bilər. Bu cür əhəmiyyətli və strateji xarakterli funksiyanı yerinə yetirən bir təşkilatın Çin sərhədini aşaraq Azərbaycanda tədbir keçirməsi tarixi, siyasi və geosiyasi olaydır! Bu o deməkdir ki, Azərbaycan regional liderlikdən qlobal əhəmiyyətli məsələlərin həllində fəal iştirak edən bir dövlət səviyyəsinə yüksəlib.

Bununla belə bir yekun qənaət formalaşdıra bilərik: öncə Bakıdan Vaşinqtona, sonra da Bakıdan Tiencinə uzanan geosiyasi yollar nəhayətində Bakıda ümumi geosiyasi qiymət almış oldu. Prezident İlham Əliyev dünyanın iki ən qüdrətli dövləti ilə Azərbaycanın münasibətlərini yüksək konseptual səviyyədə olduqca səmərəli formatda qurmaqdadır. Onu yeni çoxqütblü əməkdaşlıq platforması kimi də səciyyələndirmək olar. Və bu formatın həm regional, həm də qlobal geosiyasi düzənə ciddi təsiri olacağına şübhə yoxdur.

*Kamal ADIGÖZƏLOV*

# Azərbaycanda “yaşıl” keçidə beynəlxalq maliyyə dəstəyi artır



**(əvvəli 1-ci səhifədə)**

Hesabat göstərir ki, 2022–2024-cü illərdə regionda ən iri maliyyə dəstəyini Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB – 1,4 milyard dollar, 47 faiz), Beynəlxalq Maliyyə Korporasiyası (IFC – 426 milyon dollar, 14 faiz) və Asiya İnfrastruktur İnvestisiya Bankı (AİİB – 385 milyon dollar, 13 faiz) təmin edib. Bu sərmayələrin əsas benefisiarları isə Özbəkistan (1,8 milyard dollar), Azərbaycan (675 milyon dollar) və Qazaxıstan (280 milyon dollar) olub.

Azərbaycan üçün xüsusi əhəmiyyət daşıyan layihələr sırasında 2024-cü ildə təsdiqlənmiş 170 milyon dollar dəyərində kredit də var. AİİB-in ayırdığı bu vəsait ölkəmizdə Bankə və Biləsuvarda iki günəş elektrik stansiyasının tikintisi, istismarı və texniki xidmətinə yönəlib. Layihənin ümumi dəyəri 670 milyon dollar təşkil edir və maliyyələşmədə AYİB də daxil olmaqla digər beynəlxalq qurumlar da iştirak edir.

Beynəlxalq maliyyə təşkilatları bərpaolunan enerji sektorunda əməkdaşlıq prinsipi ilə də fəaliyyət göstərirlər. 2022–2024-cü illərdə bu formatda həyata keçirilən layihələrin dəyəri 2,4 milyard dollara çatıb. Onların maliyyələşməsində əsas pay IFC-yə (807 milyon dollar) məxsusdur. Bundan başqa, Asiya İnkişaf Bankı 512 milyon dollar, AYİB 441 milyon dollar, AİİB isə 355 milyon dollar ayırıb.

Birgə maliyyələşdirmə ən çox Özbəkistan (1 milyard dollar), Azərbaycan (326 milyon dollar) və Qazaxıstanda (90 milyon dollar) enerji layihələrində həyata keçirilib. Bundan başqa, Monqolustanın (310 milyon dollar) və Özbəkistanın (161 milyon dollar) maliyyə sektoruna da böyük həcmdə vəsait yönəldilib.

2008–2024-cü illər ərzində Azərbaycanda qeyri-suveren əməliyyatların ümumi həcmi 2,6 milyard dollar olub. Bu vəsaitin böyük hissəsini Avropa Yenidənqurma və İnkişaf Bankı (848 milyon dolları) və Asiya İnkişaf Bankı (791 milyon dollar) təmin edib. Beynəlxalq Maliyyə Korporasiyası 209 milyon dollar, Asiya İnfrastruktur İnvestisiya Bankı isə 170 milyon dollar ayırıb. Əsas sərmayələr energetika (714 milyon dollar) və maliyyə sektoruna (517 milyon dollar) yönəlib.

Statistik məlumatlara görə, 2008–2010-cu illərdə Azərbaycanın illik orta maliyyələşdirmə həcmi 108 milyon dollar olub. 2022–2024-cü illərdə bu rəqəm 280 milyon dollara yüksəlib. Yəni son illərdə artım təxminən 2,6 dəfə təşkil edib.

Ümumilikdə 2008–2024-cü illərdə beynəlxalq maliyyə təşkilatları Cənubi Qafqaz ölkələri üçün 11,3 milyard dollar həcmində qeyri-suveren maliyyələşdirməni təsdiqləyib. Bu göstərici regionun Avrasiya miqyasında payını da artırıb: əgər 2008–2010-cu illərdə Cənubi Qafqazın payı 9 faiz idisə, 2022–2024-cü illərdə bu göstərici artıq 20 faizə çatıb. Təkcə 2022–2024-cü illərdə Avrasiya regionunda qeyri-suveren maliyyələşdirmənin ümumi dəyəri 16,4 milyard dollar olub. Bunun 6,5 milyard dollar (40 faiz) Avrasiya İnkişaf Bankının, 3,6 milyard dollar (23 faiz) AYİB-in, 2,8 milyard dollar (17 faiz) isə Dünya Bankı Qrupunun payına düşür. Azərbaycanın payı bu dövrdə 840 milyon dollar təşkil edib.

Sektorlar üzrə bölgü göstərir ki, beynəlxalq maliyyə təşkilatlarının ən çox diqqət ayırdığı sahə maliyyə sektoru olub (5,4 milyard dollar, ümumi dəyərin 33 faizi). Energetika isə 4,8 milyard dollar ilə (29 faiz) ikinci sırada qərarlaşıb.

Qeyd edək ki, Avrasiya İnkişaf Bankı 2006-cı ildə təsis edilib və əsas məqsədi üzv ölkələrin iqtisadi inteqrasiyasını dəstəkləmək, regional layihələrin maliyyələşməsini təmin etməkdir. Bankın təsisçiləri Rusiya və Qazaxıstan olmuşdur. Bank son illərdə xüsusən energetika, nəqliyyat, kənd təsərrüfatı və infrastruktur sahələrinə diqqəti artırıb.

Bankın hesabatlarında qeyd olunur ki, “yaşıl enerji” və rəqəmsallaşma istiqamətləri onun yeni prioritetlərindən biridir. Azərbaycanın enerji layihələrində iştirak etməsi isə həm regionda enerji keçidinə, həm də ölkəmizin "yaşıl enerji zonası" strategiyasına töhfə verir.

***Nurlan ABDALOV***
***XQ***

# Aqrar sığorta üzümçüləri də ziyandan qoruyacaq



**Azərbaycanda dövlət dəstəyi ilə təqdim olunan aqrar sığorta mexanizmi üzrə sığorta ödənişləri davam edir. Xatırladaq ki, hazırda aqrar sığorta vasitəsilə 41 bitki üzrə məhsul və əkin sahələrini sığortalamaq mümkündür. Sığortalanan sahələrdən biri də üzüm bağlarıdır.**

Aqrar Sığorta Fondu üzüm sahələrini: təbiət hadisələri, o cümlədən dolu, dolu nəticəsində yaranan keyfiyyət itkisi, fırtına, qasırğa, sel-subasma, leysan yağışları, vəhşi heyvan və quşların hücumu, kənar təsirlər və sair hadisələrdən qoruyur.

Fond indiyədək sığortalanmış üzüm sahələrinə dəyən zərərlər üzrə fermer və təsərrüfatlara 168 min 182 manat ödəniş edib. Həmin vəsait Şamaxı, İsmayıllı, Beyləqan, Tovuz və Qax rayonlarının fermerlərinə verilib. Üzüm sahəsi üzrə ən böyük ödəniş isə Şamaxı rayonunda həyata keçirilib – 154 min 420 min manat.

Qeyd edək ki, üzüm aqrar sığortanın leysan riskinə təminat verdiyi 3 məhsuldan biridir. Bu riskdən təminat verilən digər iki bitki pambıq və gilas əkinləridir. Dolu nəticəsində yaranan keyfiyyət itkisi – dolu yağması nəticəsində məhsulun əmtəə görünüşünün korlanması və satış qiymətinin aşağı düşməsi deməkdir. Təsərrüfat bu riskdən sığortalıdırsa, qiymətin enməsi nəticəsində fermerə dəyən zərəri Aqrar Sığorta Fondu qarşılayır. Yeri gəlmişkən, indiyədək üzüm sahələrinə ən böyük zərər dolu hadisəsi nəticəsində dəyib.

Əkin sahələri, meyvə bağları, o cümlədən üzüm bağlarının sığortası zamanı sığorta haqqına 50 faizi dövlət dəstəyi mövcuddur. Bu o deməkdir ki, sığorta haqqının tən yarısını fermerə dəstək üçün dövlət özü ödəyir. Nəticədə fermer cüzi məbləğ ödəməklə üzüm bağını sığorta edə bilir. Məsələn, 1000 manatlıq üzüm məhsulunu sığorta etmək fermerə Cəlilabad, Salyan, Neftçala rayonlarında cəmi 10 manata, Tovuz, Şəmkir və Qazax rayonlarında 32 manata, Şamaxı, Ağsu, İsmayıllı rayonlarında isə cəmi 15,7 manata başa gəlir.

Aqrar Sığorta Fondu vasitəsilə təkcə üzüm məhsulunu deyil, üzüm tingləri və ayrıca olaraq bar verən üzüm ağaclarını da sığorta etmək mümkündür.

***XQ***

# Ölkəmizin Almaniya ilə iqtisadi əməkdaşlığı genişlənir

*8 aylıq ticarət əməliyyatları 1,3 milyard dollara çatıb*



**İqtisadiyyat nazirinin müavini Səməd Bəşirli Almaniya Federativ Respublikasının İqtisadiyyat və Energetika Nazirliyinin Xarici iqtisadi siyasət idarəsinin rəhbəri Ralf Böhme ilə görüşüb.**

Söhbət zamanı iki ölkə arasında mövcud dostluq və əməkdaşlıq münasibətlərindən bəhs olunub, qarşılıqlı ticarət-iqtisadi əməkdaşlığın müsbət dinamika üzrə davam etdiyi vurğulanıb. Bildirilib ki, hazırda hər iki ölkə iqtisadiyyat, ticarət, energetika və digər prioritet sahələr üzrə əməkdaşlığın inkişafına böyük əhəmiyyət verir.

Tərəflər Azərbaycan və Almaniya şirkətləri arasında qarşılıqlı əməkdaşlığın təşviqi, birgə investisiya layihələrinin həyata keçirilməsi, rəqəmsal iqtisadiyyatın inkişafı sahəsində təcrübə mübadiləsi, kənd təsərrüfatı, nəqliyyat-logistika və digər istiqamətlərdə işbirliyinin genişləndirilməsi imkanlarını müzakirə ediblər.

Görüşdən sonra Azərbaycan – Almaniya Ticarət və İnvestisiyalar üzrə Yüksək Səviyyəli İşçi Qrupunun 10-cu iclası keçirilib. İclasa Azərbaycan tərəfdən iqtisadiyyat nazirinin müavini Səməd Bəşirli, Almaniya tərəfdən isə İqtisadiyyat və Energetika Nazirliyinin Xarici iqtisadi siyasət idarəsinin rəhbəri Ralf Böhme həmsədrlik ediblər. Toplantıda Azərbaycan və Almaniya arasında uğurlu iqtisadi əməkdaşlığın həyata keçirildiyi vurğulanıb. Almaniyanın Azərbaycanın qeyri-neft-qaz sektorunda ən böyük 10 investordan biri olduğu diqqətə çatdırılıb. Belə ki, hazırda ölkəmizdə sənaye, nəqliyyat, tikinti, ticarət, kənd təsərrüfatı, xidmət və digər sahələrdə 200-ə yaxın Almaniya kommersiya qurumu fəaliyyət göstərir.

İclasda Azərbaycanın mövcud iqtisadi vəziyyəti və həyata keçirilən islahatlar, eləcə də ölkəmizdə yaradılmış əlverişli investisiya mühiti barədə məlumat verilib. Eyni zamanda, qlobal iqtisadi dalğalanmalar fonunda ölkəmizdə makroiqtisadi sabitliyin qorunub saxlanıldığı qeyd olunub. Azərbaycanın mühüm nəqliyyat-tranzit mövqeyi və Orta Dəhliz boyunca ticarət və enerji marşrutlarının şaxələndirilməsində oynadığı mühüm rol vurğulanıb. Bununla yanaşı, ölkəmizin iqtisadi, ticarət, sənaye və investisiya imkanları, eləcə də enerji, kənd təsərrüfatı, qida təhlükəsizliyi, nəqliyyat, rəqəmsal inkişaf, təhsil, turizm, mədəniyyət, səhiyyə sahələrinin inkişafı və su ehtiyatlarının idarə olunması haqqında məlumat verilib, təqdimatlar nümayiş olunub.

Qonaqlara Azərbaycanda xarici investisiyalı birgə müəssisələrin fəaliyyətinin yüksək səviyyədə dəstəklənməsi və istehsalın lokallaşdırılması istiqamətində həyata keçirilən tədbirlər barədə də ətraflı məlumat verilib. Bildirilib ki, əlaqələrin möhkəmlənməsi və yeni istiqamətlərdə tərəfdaşlıqların qurulması üçün böyük potensial var. Ölkəmizdə yaradılan sənaye parklarında, Ələt Azad İqtisadi Zonasında Almaniya şirkətlərinin iştirakı imkanları, nəqliyyat sahəsində əməkdaşlığın inkişafı barədə müzakirələr aparılıb.

Almaniya İqtisadiyyat və Energetika Nazirliyinin Xarici iqtisadi siyasət idarəsinin rəhbəri Ralf Böhme Azərbaycan-Almaniya Yüksək Səviyyəli İşçi Qrupunun 10-cu iclası çərçivəsində müzakirə edilən məsələlərin ikitərəfli iqtisadi-ticarət əlaqələrinin inkişafına təkan verəcəyini qeyd edib, iqtisadi əməkdaşlığın genişləndirilməsi perspektivlərinə dair fikirlərini bölüşüb.

Yeri gəlmişkən, cari ilin yanvar-avqust aylarında Azərbaycanla Almaniya arasında ticarət əməliyyatlarının həcmi 1 milyard 32 milyon ABŞ dolları təşkil edib. Bu isə 2024-cü ilin eyni dövrü ilə müqayisədə 51,3 milyon dollar və ya 5,2 faiz çoxdur.

Dövlət Gömrük Komitəsinin məlumatına əsasən, hesabat dövründə Almaniya ilə ticarət əməliyyatları Azərbaycanın ümumi daxili məhsulunun 3,2 faizini təşkil edib. Bu göstərici ilə Almaniya Azərbaycanın ticarət əməliyyatlarının həcminə görə əməkdaşlıq etdiyi ölkələr arasında beşinci yerdə qərarlaşıb.

2025-ci ilin 8 ayında ölkəmiz Almaniyaya 466,3 milyon dollarlıq məhsul ixrac edib ki, bu da əvvəlki ilin eyni dövrünə nisbətən 24 milyon dollar və ya 5,4 faiz azdır. Hesabat dövründə Azərbaycan bu ölkədən 566,9 milyon dollarlıq məhsul idxal edib. Bu isə illik müqayisədə 27,8 milyon ABŞ dolları və ya 5,1 faiz çoxdur.

İki ölkə qarşılıqlı investisiya qoyuluşu üzrə də fəal əməkdaşlıq edirlər. Təkcə onu qeyd etmək kifayətdir ki, Almaniya Azərbaycana ən çox sərmayə yatırdığı ölkələr arasında 11-ci yerdə qərarlaşıb. Azərbaycan Mərkəzi Bankının məlumatına əsasən, cari ilin ilk yarısında Almaniyadan Azərbaycan iqtisadiyyatına yönəldilən birbaşa xarici investisiyaların həcmi 17 milyon 29 min ABŞ dollar olub. Hesabat dövründə bu ölkənin Azərbaycanın ümumi birbaşa xarici investisiyalarındakı payı 0,5 faiz təşkil edib.

Eyni zamanda, bu ilin ilk 6 ayında Azərbaycan Almaniya iqtisadiyyatına 14 milyon ABŞ dolları sərmayə qoyub. Beləliklə, Azərbaycanın Almaniyaya yönəltdiyi investisiyaların ümumi birbaşa xarici investisiyalardakı xüsusi çəkisi 1 faiz təşkil edib.

***Mirbağır YAQUBZADƏ***
***XQ***



# Fermerlər bu il daha çox güzəştli kredit alıblar

**Bu ilin yanvar-iyul aylarında Aqrar Kredit və İnkişaf Agentliyi tərəfindən ölkədə 6 min 255 kənd təsərrüfatı texnikasının satışı maliyyələşdirilib.**

Aqrar Tədqiqatlar Mərkəzinin hesabatına görə, cari ilin 7 ayında aqrar sektorda fəaliyyət göstərən sahibkarlar tərəfindən edilən 3 min 457 müraciət üzrə 66,6 milyon manat məbləğində kredit verilib. Ötən ilin müvafiq dövrünün göstəriciləri ilə müqayisədə kredit alanların sayı 37,1 faiz, kredit məbləği isə 43,5 faiz artıb.

Hesabat dövründə texnika və avadanlıqların alınmasına 50,2 milyon manat kredit verilib ki, bu da əvvəlki ilin eyni dövrünə nisbətən 36 faiz çoxdur. Qalan məbləğin 6,1 milyon manatı güzəştli kreditlərin, 10,3 milyon manatı isə mikrokreditlərin payına düşüb. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 12,7 dəfə və 14,4 faiz çoxdur.

***XQ***

# Yatırımlar çoxalacaq



**Maliyyə Nazirliyinin açıqladığı proqnozlara əsasən, 2026-cı ildə əsas kapitala yönəldilən investisiyaların həcmi 6,9 faiz artacaq. Növbəti 4 il ərzində isə kapital qoyuluşlarının orta illik artım tempi 3,9 faiz səviyyəsində gözlənilir.**

Statistik məlumatlara görə, 2025-ci ilin yanvar-avqust aylarında Azərbaycan iqtisadiyyatına 11 milyard 374,5 milyon manat həcmində vəsait yatırılıb. Bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə 0,2 faiz azalma deməkdir.

***XQ***

# AYİB layihə portfelini yeniləyib

*Bank indiyədək ölkəmizdə 200 maliyyələşdirməyə 3,7 milyard avro yönəldib*

**Bu il avqustun 31-nə Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) Azərbaycandakı cari kredit portfelinin dəyəri 954 milyon avroya çatıb. Kredit portfelinin 38 faizi özəl sektorun payına düşür. Hazırda bankın ölkəmizdə 35 layihəsi fəal icra mərhələsindədir.**

AYİB-in açıqlamasına əsasən, cari portfelin əsas hissəsi – 848 milyon avrosu və ya 89 faizi davamlı infrastrukturun inkişafına, 57 milyon avrosu və ya 6 faizi maliyyə institutlarına, 49 milyon avrosu və ya 5 faizi isə korporativ sektora yönəldilib. Bankın ölkədəki əməliyyat aktivlərinin dəyəri hazırda 31-nə 697 milyon avrodur.

Qeyd edək ki, 2024-cü ildə AYİB ölkəmizdə 8 layihənin maliyyələşdirilməsi üçün ümumilikdə, 199 milyon avro kredit ayırıb.




Bu isə əvvəlki illə müqayisədə 43 milyon avro və ya 27,6 faiz çoxdur. Ümumilikdə, ötən müddətdə bank Azərbaycanda 200 layihənin həyata keçirilməsinə 3 milyard 673 milyon avro yatırıb.

***XQ***

*Antiterror əməliyyatından 2 il ötür*

# Zəfər dastanının son səhifəsi

## *Onu yazanlardan biri Xankəndidə asayiş keşikçisidir*

**2023-cü il sentyabrın 19–20-də erməni separatçılarının Qarabağda törətdikləri genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələri birləşmələrinin tərk–silah edilərək ərazilərimizdən çıxarılması məqsədilə bölgədə həyata keçirilən lokal xarakterli antiterror tədbirləri Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusunun zəfər yürüşünü tamamlayan parlaq qələbə oldu.**







Cəmi 1 sutka davam etsə də, tarixi qəhrəmanlıqlar sırasına qızıl hərflərlə yazılmış bu əməliyyat zamanı xarici havadarlarının dəstəyi ilə uzun illər boyu "təpədən-dırnağa" silahlanmış ermənilərin ön xətdə və dərinlikdə yerləşən əksər mövqeləri, davamlı atəş nöqtələri, döyüş vasitələri və hərbi təyinatlı obyektləri yüksək dəqiqlikli silahların tətbiqi ilə sıradan çıxarıldı. Müqavimət göstərə bilməyəcəyini, məğlubiyyətin labüd olduğunu anlayan düşmən ağ bayraq qaldıraraq təslim oldu, Qarabağda erməni separatizminə həmişəlik son qoyuldu.

Azərbaycanın ərazi bütövlüyü və suverenliyi müqəddəs torpaqlarımızın azadlığını canından əziz bilən igid oğullar sayəsində bərpa edilibdi. Belə Vətən övladlarından biri, Ağcabədi rayon sakini Rəşad Quliyev uğrunda döyüşdüyü azad Qarabağda yenə də xidmətini davam etdirir. Bu dəfə isə Daxili İşlər Nazirliyinin əməkdaşı, Xankəndi Polis Şöbəsinin polis nəfəri kimi. Antiterror tədbirlərinin ikinci ildönümü günündə onunla asayiş keşikçisi olduğu Xankəndidə görüşdük, həyatı və keçdiyi döyüş yolu haqqında "Xalq qəzeti"nə danışdı.

Öyrəndik ki, Rəşad 2000-ci ildə Ağcabədi rayonunun Aşağı Qiyaməddinli kəndində doğulub. Orta məktəbi bitirdikdən sonra həqiqi hərbi xidmətini Tovuz rayonundakı "N" saylı hərbi hissədə keçib. 2020-ci ildə ordu sıralarından tərxris olunsa da, hərbi xidmətə olan marağı, Qarabağda xuntanın cinayətləri onu yenidən ordu sıralarına qaytarıb. Bu dəfə müddətdən artıq xidmət edən (MAXE – M.R.) hərbi qulluqçu kimi xidmətə başlayan Ruslan 2021-ci ildə peşəkarlığını artırmaq üçün qardaş Türkiyədə komando kurslarına göndərilib. Kursları müvəffəqiyyətlə bitirdikdən sonra Vətənə qayıdaraq kiçik çavuş rütbəsində xidmətini davam etdirib.

Döyüş yolu 2022-ci il martın 26-da Xocalı istiqamətində qeyri-qanuni erməni silahlı dəstələrinin təxribatlarının qarşısının alınması məqsədilə həyata keçirilmiş Fərrux əməliyyatı ilə başlayıb. Məlum olduğu kimi, həmin uğurlu əməliyyat nəticəsində Xocalı rayonunun Fərrux kəndi işğaldan azad olunmuş, eyniadlı dağın ətrafındakı mühüm yüksəkliklər nəzarətə götürülmüşdü.

Daha sonra, yenə 2022-ci ilin 12-14 sentyabrında Azərbaycan-Ermənistan şərti sərhədində Ermənistanın silahlı qüvvələrinin davamlı təxribat cəhdləri səbəbindən baş verən Sentyabr döyüşlərinin də iştirakçısı olmuş Rəşad üçün ömrünün ən yaddaqalan, həyəcanlı və qürurverici anları isə antiterror tədbirlərində keçdiyi döyüş yoludur.

Həmsöhbətimiz o günləri belə xatırladı:

– Əlbəttə, Vətən müharibəsində qazandığımız şanlı qələbə nəticəsində uzun illər boyu torpağımıza göz dikmiş mənfur düşmən layiqli cəzasını almışdı. Ancaq Qarabağda hələ də separatçılar var idi və bu, belə davam edə bilməzdi. Ona görə də Ali Baş Komandanımızın əmrinə uyğun olaraq, ərazi bütövlüyümüzün və suverenliyimizin tam təmin edilməsi məqsədilə antiterror tədbirlərinin keçirilməsi hər bir azərbaycanlının ürəyindən xəbər verdi.

Fəxr edirəm ki, mən də həmin döyüşlərin iştirakçısı olmuşam. Biz Ağdərə istiqamətində döyüşürdük. Hamımızda sonsuz ruh yüksəkliyi vardı. Sanki atışmaya, təhlükəyə, savaşa deyil, toy-bayrama gedirdik. Ürəyimizdə Vətən eşqi, torpaq sevgisi o qədər güclü idi ki, hamı özünü irəli atır, hər kəs daha öndə döyüşmək istəyirdi!

Sentyabrın 20-də, antiterror tədbirlərinin sona çatmasına az qalmış, özünün dediyi kimi, yüngül yaralanan qəhrəmanımız növbəti qələbə xəbərinə hospitalda sevinib. Onun Vətən naminə xidmətləri dövlətimiz tərəfindən layiqincə qiymətləndirilib, "Şücaətə görə" medalı ilə təltif edilib. Rəşad uğrunda döyüşdüyü azad Qarabağda, Xankəndidə yaşayır, burada polis əməkdaşı kimi çalışır.

Şanlı əməliyyatın ildönümündə o bildirdi ki, taleyinə yazılmış, yeri-göyü lərzəyə salan o döyüşdə iştirakından qürur duyur:

– Qarabağın havası, suyu, təbiəti möcüzədir. Xoşbəxtəm ki, azadlığı uğrunda döyüşdüyüm torpaqlarda polis əməkdaşı kimi xidmətimi davam etdirirəm. Polis səngərsiz əsgərdir. Bu mənada Qarabağda asayişin keşiyində dayanmaq mənim üçün növbəti Vətən borcudur. Vətən borcu isə bitən deyil...

Həqiqətən də işğaldan azad edilmiş ərazilərdə polis kimi çalışmaq, qanunçuluğun keşiyində dayanmaq, hüquqi dövlət və konstitusiya prinsiplərinin bərqərar olunmasında iştirak etmək qürurverici olduğu qədər də, məsuliyyətli və şərəfli işdir. Söhbətimizin qəhrəmanı Rəşad Quliyevin timsalında bu şərəfli yolda gecə-gündüz demədən məsuliyyətlə, Vətən sevgisi ilə addımlayanların hamısına uğurlar arzulayırıq.

***Mahir RƏSULOĞLU,***
***"Xalq qəzeti"nin Qarabağ müxbiri***
**Xankəndi**

---

**Ekspert rəyi**



**Eyyub HÜSEYNOV**
**Azad İstehlakçılar Birliyinin sədri**

**Ətin qiymətinin bahalaşmasından danışarkən, ilk növbədə, bir məqamı vurğulamaq istərdim. Fikrimcə, bu, hazırda daha çox insanların maddi imkanlarının getdikcə yaxşılaşması, nəticədə qida məhsullarına, eləcə də ətə olan tələbatın artması ilə bağlıdır.**

Belə bir qənaəti onunla əsaslandırıram ki, illər öncə hər kənddə bir ət dükanı var idisə, orada hər gün bir dananın kəsilib satılması həyata keçirilirdisə və hər sakin 1 kiloqram ət alırdısa, bu həcmdə məhsul ailənin ehtiyacını tamamilə ödəyirdi. Lakin indi vəziyyət dəyişib, insanların qazancları artıb, maddi imkanları genişlənib, deməli, hazırda hər kənddə bir yox, iki-üç qəssabxana var, hər birində də bir yox, 2-3 heyvan kəsilir. Hər alıcı da həmin dükanlardan əvvəlki dövrlərdən fərqli olaraq indi daha çox ət alır.

Bu məhsula olan tələbatın artmasını şərtləndirən amillərdən biri də müəyyən səbəblərdən ölkəmizə ət idxal edən ölkələrin sayının azalmasıdır. Məsələn, İtaliya, İspaniya və Braziliyadan respublikamıza ət gətirilirdi. İndi həmin dövlətlərin ərazilərində quraqlığın hökm sürməsi heyvandarlığın da inkişafına mənfi təsir göstərib, ətin qiyməti bahalaşıb, deməli, bütün bunlar idxalın həcminin azalmasına gətirib çıxarıb.

Vaxtilə Ukraynadan ölkəmizə kiloqramı 4 manata olan diri çəkidə heyvan gətirilir, burada kökəldilib nisbətən baha qiymətə satılırdı. Artıq bu bazar fəaliyyət göstərmir. Rusiyadan idxal olunan ət oradan yüksək qiymətə alındığından respublikamızda təbii ki, baha satılır. Turizmin getdikcə inkişafı, toy və yas məclislərində israfçılığa yol verilməsi də ətə olan tələbatı artırır və qiymət artımına gətirib çıxarır.

Mənə kənd təsərrüfatının, eləcə də heyvandarlığın inkişaf etdiyi Perudan Malik adında iş adamı tez-tez zəng edir. O, vaxtilə ölkəmizdə ət biznesi ilə məşğul olub. Söhbətlərində Azərbaycanda kənd təsərrüfatının sürətlə inkişafını izlədiyini, dövlətin meqafermaların yaradılması ilə bağlı çox dəyərli qərarlar qəbul etdiyini deyir. Amma təəssüflə əlavə edir ki, həmin qərarlar rasional şəkildə icra olunmur. Cins heyvanların saxlanılması məsələsinə də ciddi şəkildə yanaşılmır. Bütün bunlar isə heyvandarlığın inkişafını ləngidir, ətə olan tələbatda çətinliklər yaradır, qiymətlərin qalxmasına yol açır.

Bütün bunların xatırladılması heç də bədbinliyə əsas vermir. Azad İstehlakçılar Birliyində aparılan təhlillər yaxın gələcəkdə Qarabağ və Şərqi Zəngəzur kimi heyvandarlığın inkişafı üçün əlverişli iqtisadi rayonlarda sahənin inkişafında yüksək göstəricilərin əldə ediləcəyini, bu coğrafiyada ətə ola tələbatın böyük həcmdə ödəniləcəyini göstərir.

# Ətin qiyməti niyə kəskin artıb?

## *Bahalaşma dünyada da ciddi narahatlıq doğurur*




**BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının son hesabatına əsasən, iyul ayında dünyada ən çox ət və bitki yağlarında bahalaşma qeydə alınıb. Ötən 7 ayda ətin qiyməti iyun ayına nisbətən 1,2 faiz, bir il əvvələ nisbətən isə 6 faiz artmaqla ən yüksək səviyyəyə yüksəlib. Bahalaşma əsasən mal və quzu ətinin qiymətinin artması ilə bağlı olub. Ət məhsulları üzrə qiymət indeksi isə 127,3 bal ilə tarixi rekord kimi qeydə alınıb.**

Bu göstərici təkcə ərzaq sektorunda deyil, həm də dünya iqtisadiyyatında narahatlıq doğuran siqnal kimi vurğulanır. Çünki ətin qiymətinin artımı qida inflyasiyasının əsas mənbələrindən biri olmaqla yanaşı, ailə büdcəsinə də əlavə yük yaradır, sosial rifah göstəricilərinə mənfi təsir göstərir.

Statistika göstərir ki, ABŞ-da dana ətinin qiyməti son bir ildə 15,9 faiz artaraq 453 qram üçün 6,3 dollar olub. Son iki ildə bu məhsul üzrə qiymətdə davamlı bahalaşma qeydə alınıb. Avropa İttifaqı (Aİ) ölkələrində də ətin qiyməti rekord həddə yüksəlib. Aİ Komissiyasının məlumatına görə, cari ilin avqustunda 100 kiloqram ətin satışı 662,31 avroya qalxıb və illik artımda 32,8 faiz göstərici müşahidə edilib. Bu artım Aİ-də illik 2,3 faiz inflyasiyanı xeyli üstələyib. İngiltərədə isə ət qiymətləri tarixdə ən yüksək səviyyədə olub. Belə ki, keçən ilin avqustunda ölkədə 1 kiloqram ət 7,2 funt idisə, bu il həmin göstərici 10,6 funta yüksəlib. İllik artım 47 faiz olmaqla inflyasiya 3,8 faiz səviyyəsində müəyyənləşib.

Aparılan təhlillərə görə, qlobal ət qiymətlərindəki artım əsasən, camış və qoyun əti qiymətlərinin yüksəlməsindən irəli gəlib. Xüsusilə Çin və ABŞ-dan gələn güclü tələbat qiymətlərin artması ilə nəticələnib. Bu tələbat, eyni zamanda, Avstraliya və Braziliya kimi böyük istehsalçı ölkələrdə də qiymətlərin artımı ilə müşahidə edilib.

Liberal İqtisadçılar Mərkəzinin sədri Akif Nəsirli bildirir ki, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının məlumatına görə, 2025-ci ilin iyul ayında qlobal ət qiymətləri indeksi 127,3 bal ilə tarixdə ilk dəfə rekord səviyyəyə yüksəlib. Ət məhsullarının qiymət artımı ailə büdcəsində əlavə inflyasiyanın yaranmasına səbəb olub.

Bu, son 10 ilin müvafiq rəqəmlərindən də aydın görünür. Belə ki, sözügedən dövrdə ətin qiyməti 3 dəfəyədək bahalaşıb, 7-8 manatdan rekord həddə – 22 manata çatıb. Hazırda mal ətinin qiyməti əvvəlki illə müqayisədə artmaqda davam edir. Bu gün Bakıda və respublikanın digər böyük şəhərlərində bir kiloqram mal ətinin pərakəndə satış qiyməti 18-22 manat arasında dəyişir. Bəzi premium, orqanik və xüsusi kəsim mallar üçün bu göstərici 23-25 manatadək artır. Regionlarda isə bir kiloqram ət 17-20 manat arasında olur. Paytaxtda və bölgələrdə təzə qoyun ətinin kiloqramı 20-26 manat arasında satılır. Yaylaqda saxlanılan qoyun ətinin satış qiymətinin 27-28 manata qədər yüksəldiyi də bildirilir.

Bu narahatlıq ictimai müzakirələrin mərkəzinə çevrilərək haqlı sual doğurur: Ətin bahalaşması hansı amillərlə bağlıdır və bu prosesin qarşısını almaq mümkündürmü? Akif Nəsirlinin sözlərinə görə, qlobal ət qiymətlərinin rekord səviyyəyə çatması Azərbaycan üçün ciddi xəbərdarlıqdır. Çünki idxaldan asılı iqtisadiyyat şəraitində bu artım daxili bazara da təsir edir. Eyni zamanda, bu vəziyyət hökumət və özəl sektor üçün daxili istehsalı gücləndirmək, dayanıqlı qida siyasəti formalaşdırmaq və istehlakçı dəstəyini artırmaq üçün bir fürsət də yaradır.

Ətin bahalaşmasına təsir edən başlıca amillərdən biri az əvvəl vurğulandığı kimi, idxaldan asılılıqdır. Bu, statistik göstəricilərdən də aydın nəzərə çarpır. Belə ki, 2023-cü ildə Azərbaycan Monqolustandan 20 ton mal və qoyun əti idxal etmişdisə, keçən il ərzində bu rəqəm 391 tona çatıb. Bütövlükdə respublikamız xarici ölkələrdən 30 min tona yaxın mal və qoyun əti alıb. İdxaldan asılılıq isə qiymətlərdə dalğalanmalara səbəb olub. Xarici bazarlarda qiymətlərin artması da Azərbaycan bazarına təsir göstərib.

Yeri gəlmişkən, ölkədə ət idxal olunan ərzaq məhsulları sırasında əsas yerlərdən birini tutur. Dövlət Gömrük Komitəsinin məlumatına görə, cari ilin ötən 7 ayında ət idxalında azalma var. Qurumun açıqlamasına əsasən, bu dövrdə ölkəyə 55 milyon dollar həcmində 25 min 180 ton ət gətirilib. Ət idxalı ötən ilin eyni dövrü ilə müqayisədə dəyər ifadəsi ilə 13,4 milyon dollar və ya 19,6 faiz, miqdar ifadəsi ilə isə 5 min 543 ton, başqa sözlə, 18 faiz azalıb. Bundan başqa, cari ilin 7 ayının nəticələrinə görə, Azərbaycanın idxal etdiyi ətin kiloqramının orta idxal qiyməti 3 manat 72 qəpik təşkil edib. Bu da illik müqayisədə 7 qəpik və ya 1,8 faiz ucuzlaşma deməkdir.

Ekspertlər bildirirlər ki, ətin bahalaşmasına təsir edən digər amil mövsümi xarakter daşıyır. Havaların soyuması, toy və digər şənliklərin başlaması ilə ətə olan tələbat artır. Ona görə də bu məhsulun qiyməti 10-15 faiz həddində bahalaşır. Eyni zamanda, respublikamızda örüş sahələrinin az olması, yem ehtiyatlarının istənilən səviyyəyə çatdırılmaması və onun müəyyən hissəsinin xaricdən alınması ətin maya dəyərinin bahalaşmasını şərtləndirir.

Ölkənin maldarlıq təsərrüfatlarında saxlanılan heyvanların erkən dövrdə kəsilərək satışa göndərməsi də mal-qaranın sayının azalmasına səbəb olur. Nəticədə respublikanın daxili tələbatının ödənilməsi çətinləşir. Belə vəziyyət hər il təkrarlanır və ölkə davamlı şəkildə qiymətlərin bahalaşması ilə üzləşir. Bu baxımdan cari ilin sonuna qədər mal ətinin qiymətinin, təxminən, 30 faizədək bahalaşacağı gözlənilir.

Ekspertlər onu da qeyd edirlər ki, iqlim dəyişmələri, enerji resurslarının bahalaşması, logistika xərclərinin artması, eləcə də geosiyasi risklər ərzaq məhsullarının qiymətlərini daim yüksəldir. Bununla bağlı ət bazarına yuxarıda sadalananlarla bərabər, bir neçə digər amil də mənfi təsir göstərir. Məsələn, bunlardan biri yem xərclərinin artmasıdır. Belə ki, taxıl, qarğıdalı və soya kimi əsas yem məhsullarının qiymətində rekord artım müşahidə edilir. Bu, birbaşa maldarlıq sahəsində maya dəyərini artırır. Digər səbəb iqlim dəyişikliyi ilə əlaqədardır. Bu amil – quraqlıqlar, su qıtlığı və otlaq sahələrinin azalması heyvandarlıqda məhsuldarlığı azaldır. Bahalaşmaya nəqliyyat və logistika sahələrində müşahidə edilən mövcud çətinliklər də təsir göstərir. Xüsusən, pandemiyadan sonra daşınma xərclərinin yüksəlməsi, beynəlxalq ticarətdə ləngimələr bu sahədə bahalaşmaya gətirib çıxaran səbəblər sırasında yer alır.

**Sonda ekspertlərin ətin bahalaşmasının sosial-iqtisadi nəticələri barədə fikirlərini də diqqətə çatdırmaq istərdik:**

*– Azərbaycan ailəsinin xərclərinin böyük hissəsi qida məhsullarının payına düşür. Ətin bahalaşması isə ümumi yaşayış xərclərini artırır;*

*– insanlar daha ucuz alternativləri (quş əti, paxlalılar və s.) diqqətdə saxlayırlar. Şübhəsiz ki, bu, qidalanma keyfiyyətinə də təsir göstərir;*

*– ərzaq qiymətlərində artım əhalinin sosial rifahına təsir etdiyindən ictimai müzakirələrin əsas mövzularından birinə çevrilir;*

*– fermerlər yüksək maya dəyərinə görə istehsalı artırmaqda çətinlik çəkirlər.*

Mövcud vəziyyətdə həm dövlət, həm də fermer və sahibkarlar səviyyəsində kompleks tədbirlərə ehtiyac duyulduğunu diqqətə çatdıran ekspertlər bildirirlər ki, yerli yem istehsalını artırmaqla maya dəyərinin azalması mümkündür. Bu məsələdə seleksiya və məhsuldarlığın yüksəldilməsi də əsas cəhətlərdən biridir. Başqa sözlə, genetik seleksiya, süni mayalanma texnologiyalarının geniş tətbiqi ilə maldarlıq məhsuldarlığını artırmaq mümkündür.

Eyni zamanda, subsidiyaların artırılması, güzəştli kreditlərin verilməsi ilə fermerlər (istehsalçılar) dəstəklənməlidir. İnfrastrukturun yaxşılaşdırılması, yəni soyuducu anbarların, emal müəssisələrinin yaradılması itkilərin azaldılmasının əsas şərtlərindən biridir. Nəhayət, idxaldan asılılığın azaldılması üçün yerli istehsal gücləndirilməli, bununla da qiymətlər xarici bazarların təsirindən xilas edilməlidir.

***Vaqif BAYRAMOV***
***XQ***

*Təqvim yada salır*

# Aida İmanquliyeva – öz məktəbini yaratmış şərqşünas



**Ərəb-məhcər ədəbiyyatının dünyada ilk qadın tədqiqatçısı, Azərbaycan Milli Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun ilk qadın direktoru, Bakı Dövlət Universitetinin professoru, tarix yaradan şərqşünas-alim Aida xanım İmanquliyeva 33 il əvvəl – 1992-ci ilin bu günündə 53 yaşında dünyasını dəyişsə də, hər zaman ehtiramla xatırlanan böyük ziyalılarımızdandır.**

Tanrının bəxş etdiyi 53 illik qısa ömründə Azərbaycan şərqşünaslıq elmi naminə çox işlər görmüş Aida xanım İmanquliyeva 1939-cu il oktyabrın 10-da Bakıda "Bakı və Baku" qəzetlərinin qurucusu, professor Nəsir İmanquliyevin və soy-kökü, şəcərəsi ilə əfşarlara, qacarlara, Şamaxı əsilzadələrinə, Zəngəzur bəylərinə bağlı olan Gövhər xanım Sultanzadənin ailəsində dünyaya gəlib. Bakının məşhur 132 saylı orta məktəbini bitirdikdən sonra Cümhuriyyətdən nişanə, o dövrün tək və yeganə dövlət universitetinə daxil olub. Aida xanım 1962-ci ildə ali təhsilini başa vurduqdan sonra universitetin şərqşünaslıq fakültəsinin Yaxın Şərq xalqları ədəbiyyatı tarixi kafedrasından aspiranturaya daxil olub. Görkəmli alim Rüstəm Əliyevin rəhbərliyi ilə "Qələmlər cəmiyyəti" və Mixail Nüaymənin onun yaradıcılığında rolu" mövzusunda namizədlik dissertasiyası üzərində işləməyə başlayıb.

XIX-XX yüzillərdə Cənubi Amerikaya mühacirət etmiş Suriya və Livan ədiblərinin yaradıcılığına həsr olunan monoqrafiyada əsas məqsəd "ərəb-məhcər ədəbiyyatı"nın bu qatı ilə bağlı faktları bir araya toplamaq və bu ədəbiyyatı yaradanları dünyaya tanıtmaq idi. İşin əhatə dairəsinin genişliyi, mənbələrin az olması gənc tədqiqatçını Moskvaya getməyə məcbur edir. SSRİ Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutuna ezam olunan Aida xanım Şərqin məşhur bilicilərindən biri hesab olunan İosif Braginskinin rəhbərliyi ilə dissertasiyasını tamamlayır. 1966-cı ilin martında Aida xanım hər iki məşhur elmi rəhbərinin - Rüstəm Əliyev və İosif Braginskinin xeyir-duası ilə namizədlik dissertasiyası müdafiə edərək elmlər namizədi alimlik dərəcəsi alır.

Gənc alim Şərqdən-Qərbə, Latın Amerikasına mühacirət edən ədiblərin yaradıcılığına üz tutaraq, onların əsərlərində qoyulan ideyaları müdafiə etməklə Hüseyn Cavid, Cübran Xəlil Cübran kimi ədiblərin əsərlərindəki müştərək ideyaların eyni ağrıdan boy aldığını, eyni amala xidmət etdiyini elmi əsaslarla sübut etməklə mənəvi dəyərlərimizə sahib çıxmış olur. Şübhəsiz ki, bunun başlıca səbəbi Aida xanımın mənsub olduğu xalqın, millətin söykəndiyi dəyərlər, yaşadığı gerçəklər idi. Əslində, bu gerçəklər heç də adi gerçəklər deyildi. "Harada ki, sülh var, xeyir var, məhəbbət var, orada Allahın özü var", - deyib Allahsız və mədəniyyətsizcəsinə məscidləri klublara, anbarlara çevirən, "allahsızlar partiyası" yaradıb ciblərə "allahsız knişkası" qoyan quruluşa etiraz idi. Ziyalının, alimin, müəllimin, böyük mənada isə Vətəndaş, Alimin etirazı idi.

Tədqiq etdiyi ədiblərin yaradıcılıqları ilə bağlı elmi fikirlər irəli sürüb monoqrafiyalar yazmaqla bərabər, "Dünyanın dərki əslində qəlbin dərinliklərindəki gizli qatların oyanışı sayəsində mümkün olur", - deyən Aida xanımın şərqşünas–alim kimi ən böyük uğuru onda idi ki, o, dövrün, mühitin ictimai-siyasi xəritəsini çəkir, ədəbi-bədii, fəlsəfi mühitlərin mənzərəsini yaradırdı. Bu gün demokratik dəyərlərin inkişaf etdiyi, açıq sözün söyləndiyi bir zamanda bu fikirləri söyləmək çox adi, bəlkə adidən də adi görünə bilər. İnformasiya texnologiyalarının o qədər də inkişaf etmədiyi, sərhədlərin qapalı olduğu, ideya döyüşlərinin, soyuq müharibənin tüğyan etdiyi 60-cı illərdə bu fikirləri söyləmək o qədər də asan deyildi.

Amerikaya, Fransaya, Türkiyəyə və Avropanın başqa yerlərinə mühacirət etməklə ruhlarını Vətənə əmanət edən ərəb yazarları azadlıq eşqinə söykənib yaşadıqları kimi, Aida xanım da qələminə söykənib qoca Şərqə 60-cı illərdən şərqilər söyləyir: "Qələmlər Birliyi" ilə Avropaya, Latın Amerikasına müsəlman mədəniyyəti və dəyərini daşıyan ərəb fədailərinin haqq səsinə dönən, Mixail Nüaymə irsinin carçısına çevrilərək deyirdi: "Mixail Nüaymə yeni həyat quruculuğu prosesinə böyük enerji, heyrətamiz fədakarlıqla qoşulan və bu hərəkatda öz tarixi keçmişinin özünəməxsusluğunu və zənginliyini unutmayan ərəb ziyalılarının ən qabaqcıl, həsas və istedadlı oğulları sırasında olmuşdur".

"Mixail Nüaymə və "Qələmlər Birliyi" monoqrafiyasından sonra Aida xanımın 2-ci ən böyük əsəri 1975-ci ildə işıq üzü görmüş "Cübran Xəlil Cübran" monoqrafiyasıdır. Uzaq Amerikada - Nyu-Yorkda ərəb ziyalılarını birləşdirən ideya və məfkurə birliyindən söhbət açan A.İmanquliyeva Cübran Xəlil Cübranın da yaradıcısı, qurucusu olduğu cəmiyyətin əhəmiyyətindən danışarkən qeyd edir: "Bu cəmiyyətin yaranması yeni ərəb mədəniyyətinin inkişafında görkəmli rol oynayan təzə və böyük ədəbi məktəbin meydana gəlməsi demək idi".

Aida xanım Şərqin istedadlı qələm və fırça sahibinin haqqa xidmətdə bulunduğunu söyləyir. O, Cübran Xəlilin bu sahədəki xidmətləri barədə deyir: "Cübran Xəlil Cübran hansı məsələdən danışırsa, danışsın, o, həmişə mütəfəkkir, böyük sənətkar, söz ustası və öz xalqını, bütün bəşəriyyəti hədsiz dərəcədə sevən bir insan olaraq qalır". Aida xanım bütün ömrünü həsr etdiyi "Müasir ərəb ədəbiyyatının korifeyləri" monoqrafiyası ilə yeni bir dünya - ərəb ədəbiyyatı ilə bağlı sanballı mənbə yaratmış oldu. 1992-ci ildə işıq üzü görən möhtəşəm kitab böyük alimin elmi ictimaiyyətə təqdim etdiyi son əsəri oldu...

Şərqşünas–alim kimi arxada qoyduğu 30 ilə abidə ucaldan Aida xanım Şərq ədəbiyyatı korifeylərinin fikirlərini, düşüncələrini tədqiqata cəlb edə-edə özü də onlarla bir sırada olurdu. Akademik üslubla bərabər, elmi-bədii, publisistik ruha köklənən Aida xanım bu əsəri ilə özünün təkcə alim, şərqşünas obrazını deyil, şair, yazıçı, mütərcim obrazını da yaratmış oldu.

Onun bu qüdrəti ərəb məhcər ədəbiyyatının müxtəlif sahələrinə həsr olunmuş məqalələrində, şəxsən özünün təşkil etdiyi konfrans və simpoziumlarda təsdiqlənirdi. Şərqşünas–alimlər Ziya Bünyadov, Vasim Məmmədəliyev, İosif Braginski, İrina Bılik, Anna Dolinina, Aleksandr Kudelin, Valeriya Kripçenko, İsak Filiştinski, Olqa Frolova, Malik Qarayev dəfələrlə onun fikirlərinə şərik çıxırdılar.

Bir vaxtlar təhsil aldığı Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsində ərəb filologiyasından mühazirələr oxuyan Aida xanım pedaqoq alim məharəti ilə Azərbaycan, ərəb, rus və Avropa ədəbiyyatlarının müqayisəsini verir, biri digərindən qidalanaraq formalaşan bu ədəbiyyatların bəşəriyyətə bəxş etdiyi dəyərlərdən soraq verir, ərəb ədiblərinin əsərlərinin tərcümə olunmasını ədəbi-mədəni əlaqələrimizin inkişafında körpü hesab edirdi. Aida xanım ömrünün 30 ilini təmənnasız sərf etdiyi, məhəbbətlə bağışladığı şərqşünaslıq elmində öz möhürünü vurdu. Adını Azərbaycanın və dünyanın tanınmış şərqşünaslarının, ərəbşünas alimlərin cərgəsinə yazdırdı.

Tanrının ona bəxş etdiyi istedadın, zahiri və batini kamilliyin, gözəlliyin işığını elmimizin üstünə salan Aida xanım əhatəli yaradıcılığı ilə "Ərəb filologiyası məsələləri", "Yaxın və Orta Şərq", "Sovet şərqşünaslığının problemləri və perspektivləri", "Şərqin problemləri: tarix və müasirlik", "Romantizmin problemləri və Şərq" adlı əsərləri və məqalələri ilə Şərqin təkcə ədəbi-fəlsəfi baxışlarına deyil, ictimai-siyasi quruluşuna, yaşam tərzinə də aydınlıq gətirirdi.

Sent Bövün bioqrafik, İppolit Tenin mədəni, Vilhelm Dilteyin mənəvi tarixi, Yunqun analitik psixoloji, Bartın strukturalist metodlarından, Şərqin böyük filosoflarından, klassik düşüncəmizin yaradıcılarından olan Nizami Gəncəvinin İnsan sevgisindən, Məhəmməd Füzulinin İlahi eşqindən, İmadəddin Nəsiminin "Haqq mənəm, Haqq məndədir" ucalığından, Mirzə Fətəli Axundzadənin, rus klassiklərinin maarifçilik ideyalarından, Cəlil Məmmədquluzadənin realizmindən, Məhəmməd Hadinin romantizmindən keçərək özünün bütöv Dünya Modelini yaradan professor Aida İmanquliyeva ictimai, fəlsəfi sistemlərin mövcud olduğu elm, mədəniyyət, mənəviyyat və düşüncə səmasında ağlının, məntiqinin ulduzu ilə parladı.

Onun cismani yoxluğunu 1992-ci ilin payızından hesablayırlar. Əslində o, hər yazısından sonra bir dəfə mələklər kimi köç edir, sonradan yazı masasına qayıdıb bir başqa nəğmə oxuyur, dastan bağlayırdı. Yarım əsrdən azca çox, qısa, lakin mənalı ömür yolu ilə örnəyə çevrilən, əcəl şərbətini Şərqin qüdrətli sənət-söz adamları, fikir və düşüncə sahibləri kimi eşq badəsindən içərək ölümsüzlüyə qovuşan, "Məhəbbət və gözəllik, ağıl və kamal elə mənəvi işıqdır ki, qəlbi nurlandırır", - deyən, ömrünün yarısından çoxunu həsr etdiyi əsərləri ilə dəyərlərin əyarına çevrilən Aida xanım Şərqlə Qərbin ortaq dəyərlərinin aynası olan əsərlərində yaşayır.

Bu məqamda unudulmaz şəxsiyyətin ünvanına yönəltmək istədiyim bir fikir var. Qərbli filosof Ralf Uold Emerson (1803 – 1882) deyir: "Dahilərin bioqrafiyası qısa olur, çünki onların bütün həyatı yaradıcılığındadır...".

"İnsanın etdiyi xeyirxahlıq zahiri mərasimlərə riayət etməkdən yüksəkdə durur və buna görə onu mükafatlandıran Allah üçün daha əziz, daha istəniləndir" kəlamı ilə yerin və göyün mükafatına, Tanrının lütfünə layiq görülən Aida xanım indi həm də övladlarının, nəvələrinin ictimai-siyasi, elmi-pedaqoji, publisistik fəaliyyətində, bir də yetirmələrinin həzin xatirələrində yaşayır. Bu da var ki, heç də hər kəs xatirələrdə qalmır, xatirəyə çevrilmir. Hər bir insana, alimə, müəllim və ziyalıya da məhz Aida xanım kimi sevgi dolu xatirələrlə anılmaq, yada salınmaq qismət olmur.

***Şərəf CƏLİLLİ***

# Xəzər çəkilir, təhlükə yaxınlaşır

## *Dənizi Aralın taleyi gözləyir*

**Son illər müşahidə edilən iqlim dəyişiklikləri təkcə temperatur artımı və qeyri-sabit hava şəraiti ilə deyil, həm də bütöv bir regionun həyatında mühüm rol oynayan Xəzər dənizinin geri çəkilməsi ilə müşayiət olunur. Bu, sadəcə elmi dairələrin və ekoloqların narahatlığı deyil, həm də bütöv bir coğrafiyanın ritmini dəyişən böhrandır. Bu barədə Lids Universitetinin bioloqu Saymon Qudman "The Conversation" jurnalında dərc etdiyi məqaləsində yazıb. Onun fikrincə, Xəzərin dərdi təkcə hövzəyanı dövlətlər üçün deyil, bütövlükdə Avrasiya qitəsinin ekoloji sabitliyi üçün təhdiddir.**

Bəli, Xəzər dəyişir. Yox, sadəcə dəyişmir, o, susuzlaşır, geri çəkilir, sanki bizdən uzaqlaşır. Bu proses təkcə coğrafi yox, eyni zamanda mənəvi uzaqlaşmadır. Təbiət insanla olan qədim bağını itirirmiş kimi görünür. Artıq bu dəyişiklikləri yalnız peyklər deyil, sahilboyu yaşayan insanlar da aydın şəkildə müşahidə edirlər. Dənizin əvvəlki sahilləri ilə indiki sahil xətti arasında fərq gözlə görünəcək qədər böyükdür. Balıqçılar əvvəlki kimi bol ov əldə edə bilmirlər, çünki balıq növləri ya azalıb, ya da tamamilə yox olub. Ekosistem zəiflədikcə, onun əsas canlıları da bir-birindən qopur, yoxa çıxır.

Bu məsələyə diqqət çəkən professor Saymon Qudman qeyd edir ki, Xəzər dənizi sadəcə su hövzəsi deyil. O, minlərlə növ heyvan və bitki üçün unikal yaşayış məkanıdır. Bu unikal ekosistem milyon illər ərzində formalaşmış və öz içində zəngin biomüxtəliflik yaratmışdır. Lakin indi həmin təbiət zənginliyi təhlükə altındadır. Artıq müəyyən edilmiş 10 əsas ekosistemdən 4-ü tamamilə məhv olmaq üzrədir. Bu isə təkcə təbiətin deyil, həm də insanın, onun laqeydliyinin nəticəsidir.

***

Ən çox zərbə alan sahələrdən biri də turizmdir. Xəzərin sahili bir vaxtlar regionun turizm incisi hesab edilirdisə, bu gün həmin ərazilər ziyarətçi cəlb etməkdə çətinlik çəkir. Dəniz suyunun sahildən geri çəkilməsi ilə çimərliklər cazibəsini itirir, turizm obyektləri isə əvvəlki funksiyasını yerinə yetirə bilmir. Sahil infrastrukturunun tənəzzülü regionun iqtisadi dinamikasını zəiflədir, iş yerlərinin azalmasına və əhalinin köçünə səbəb olur.

Digər ciddi problem isə logistika ilə bağlıdır. Mahaçkala, Türkmənbaşı və Aktau kimi iri liman şəhərlərində su xəttinin geriləməsi yükdaşıma imkanlarını məhdudlaşdırır. Gəmi yollarının daralması və dayazlaşması səbəbindən gəmilərin hərəkəti çətinləşib, dəniz ticarəti əlavə risk və xərclərlə müşayiət olunur. Bu vəziyyəti aradan qaldırmaq üçün limanlarda dəniz dibi dərinləşdirilir, neft və qaz şirkətləri isə yeni süni kanallar açmağa məcbur olurlar. Amma bu tədbirlər ekosistemi daha da zəiflədir və əlavə ekoloji risklər yaradır. Süni müdaxilələr dəniz faunasına və florasına mənfi təsir göstərir, su bioçeşidliliyi azalır və balıqçılıq kimi ənənəvi təsərrüfat sahələri tənəzzülə uğrayır.

Onu da qeyd edək ki, Xəzərin geri çəkilməsi ilə illərlə suyun içində olan yaşayış məntəqələrində indi səhrayabənzər mənzərələr müşahidə edilir. Əkinçiliyə yararlı torpaqlar səhralaşdıqca məhsuldarlıq azalır, nəticədə kənd yerlərində yaşayan insanlar alternativ gəlir mənbələri axtarmağa başlayırlar. Bu da daxili və xarici miqrasiyanı artırır, regionda sosial gərginliyi dərinləşdirir. Bütün bu proseslər isə bir-biri ilə bağlıdır, böhranı daha da dərinləşdirir. Bununla bağlı professor Saymon Qudman xəbərdarlıq edir: "Bu, yalnız təbiətin itkisi deyil, həm də iqtisadi və sosial zəncirin pozulmasıdır".

Tənəzzül prosesinin arxasında isə kompleks amillər dayanır: qlobal iqlim dəyişikliyi, azalan yağıntı, artan temperatur, çay axınlarının zəifləməsi və qeyri-səmərəli su idarəetməsi.

Professor Saymon Qudmanın yaranmış vəziyyətə dair fikirləri əslində sadəcə bir alim rəyi deyil, eyni zamanda bəşəriyyət üçün açıq xəbərdarlıqdır. Qudman Xəzərin taleyini Aral dənizinin faciəsi ilə müqayisə edərkən bu, bənzətmə yox, reallığa çevrilmək üzrə olan ssenaridir. Aral dənizinin illər əvvəlki tükənməsi o ərazilərdə yaşayan minlərlə insanın həyatını kökündən dəyişdirib. Kənd təsərrüfatı tənəzzül etdi, insanlar köç etməyə məcbur qaldı, sağlamlıq problemləri artdı. İndi isə eyni təhlükə Xəzərin ətrafında formalaşan cəmiyyətlərin qapısını döyür.

Onu da qeyd edək ki, Xəzər dənizi təkcə flora və fauna üçün bir sığınacaq deyil. O, həm də neft-qaz sənayesinin mühüm mərkəzi, balıqçılıq sahəsinin dayağı, beynəlxalq ticarət yollarının vacib hissəsidir. Onun suyunun çəkilməsi bu sahələrin hər birinə ciddi zərbə vurur. Bundan başqa, Xəzər dənizi su



təchizatı, iqlim sabitliyi və hətta ətraf mühitin özünü tənzimləməsi baxımından da mühüm rol oynayır. Onun tükənməsi bir domino effekti yaradır. Bataqlıqlar quruyur, torpaqlar şoranlaşır, nəticədə hava keyfiyyəti pisləşir və su ehtiyatları daha da məhdudlaşır.

Onu da qeyd edək ki, əgər bu dəyişikliklərə qarşı birgə tədbirlər görülməzsə, təkcə təbiət deyil, onunla birlikdə yaşayan insanlar da ciddi itkilərlə üzləşəcək. Təbiətin insanla olan əlaqəsi zəiflədikcə, bu həm ekoloji, həm də mənəvi boşluğa çevriləcək. Bu boşluq, əgər dərhal tədbir görülməzsə, bəlkə də heç vaxt doldurula bilməyəcək. Ən qorxulusu isə budur ki, bu dəyişikliklərin çoxu artıq geri dönməz mərhələyə daxil olub. Yada salaq ki, təbii sistemlər uzun illər ərzində formalaşır, lakin çox qısa zamanda məhv olur.

Xəzər dənizi hələ tam tükənməyib. Hələ ki gec deyil. Lakin zaman hər keçən gün daralır. Əgər indi tədbir görülməzsə, gələcək nəsillər üçün Xəzər yalnız xəritələrdə və tarix kitablarında qalacaq. O zaman isə suallar çox olacaq, cavablar isə gec. İndi hərəkət etmək vaxtıdır, həm Xəzər üçün, həm də onu yaşadan, onunla yaşayan milyonlarla insan üçün.

Xatırladaq ki, hazırda Xəzər dənizinin qorunması ilə bağlı müxtəlif təşəbbüslər mövcuddur. Lakin bu təşəbbüslərin effektivliyi yalnız real və ardıcıl tədbirlərin həyata keçirilməsi ilə ölçülə bilər. Təəssüf ki, Xəzəryanı dövlətlər arasında bir sıra sazişlər imzalansa da ekosistemlərin məhvi və təbiətin deqradasiyası bu sənədlərin icrasından daha sürətlə baş verir. Qəbul edilən qərarlar tez-tez kağız üzərində qalır və bu vəziyyət Xəzərin gələcəyini təhlükə altına alır.

Əgər dünya birliyi Xəzərin ekoloji problemlərini yalnız regional məsələ kimi qiymətləndirməyə davam edərsə, yaxın gələcəkdə daha genişmiqyaslı iqlim fəlakətləri ilə üzləşə bilərik. Yada salaq ki, qurumuş hər çay yatağı, dəniz əslində bir siqnaldır – qlobal narahatlıq siqnalı. Bunlar təbiətin səssiz hayqırtısıdır və planetin tarazlığının pozulmaqda olduğuna dair ciddi xəbərdarlıqdır. Bu prosesə nə qədər gec reaksiya verilsə, onun qarşısını almaq da bir o qədər çətinləşəcək. Unutmayaq ki, Xəzər bizdən getmək üzrədir. Əgər bu gün dərhal və koordinasiyalı tədbirlər görülməsə, biz bir dənizi deyil, bir regionun gələcəyini, mədəni irsini və ekoloji tarazlığını itirə bilərik.

Unutmayaq ki, biz susduqca Xəzər də susuzlaşır. Təbiətin bu səssiz fəryadına qulaq verilməlidir – bu gün, bu saat, indi! Çünki Xəzər sadəcə bir dəniz deyil, o, həyat tərzi, yaddaş, gələcək və bir çağırışdır. Bu çağırışa hay vermək isə indi həmişəkindən daha vacibdir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Yollarımıza düşən inam işığı

**"Hərbi Mövzular üzrə İxtisaslaşmış Jurnalistlər" İctimai Birliyinin "Qərbi Azərbaycan repressiya və soyqırımı qurbanlarının tədqiqi" layihəsi uğurla davam edir. Birliyin Zəngilan və Laçın rayonlarından sonra növbəti tədbiri Abşeron rayonunda keçirilib.**

Qeyri–Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi, Abşeron Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə keçirilən görüşdə rayonda məskunlaşmış Qərbi azərbaycanlı ziyalılar, gənclər, Masazır, Qobu, Saray, Ceyranbatan, Mehdiabad ictimaiyyətinin nümayəndələri və könüllülər iştirak ediblər.

Ulu öndər Heydər Əliyevin, Azərbaycanın müstəqilliyi, dövlətimizin ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərin və repressiya, soyqırımı, deportasiya qurbanlarının xatirəsi ehtiramla yad edilib. Layihənin məqsəd və məramı barədə məlumat verən "Hərbi Mövzular üzrə İxtisaslaşmış Jurnalistlər" İctimai Birliyinin sədri Tamxil Ziyəddinoğlu qeyd edib ki, layihənin məqsədi Qərbi azərbaycanlı repressiya, soyqırımı və deportasiya qurbanlarını tədqiq, gənc nəsli ata yurduna qayıtmağa təşviq etməkdir.

Abşeron RİH başçısının müavini Gülnar Rəhimova bildirib ki, Abşeron rayonunda 800 mindən artıq insan məskunlaşıb. Onların 40 mindən çoxu Qərbi Azərbaycan torpaqlarından qovulanlardır. Rayonumuz Birinci Qarabağ müharibəsində 229, 44 günlük Vətən müharibəsində isə 200-ə yaxın şəhid verib. Aprel döyüşlərində, antiterror tədbirləri zamanı da şəhidlərimiz olub. 500-dən çox qazimiz var. Şükürlər olsun ki, torpaqlarımız işğaldan azad edilib. Qaçqınlarımızın, məcburi köçkünlərimizin bir qərinəlik yurd həsrətinə son qoyulub. Yurddaşlarımız mərhələ-mərhələ yurda qayıdırlar. Əminəm ki, bir gün Qərbi azərbaycanlı soydaşlarımız da 37 ildir həsrət qaldıqları ata yurdlarına qayıdacaqlar.

Vaxtilə Azərbaycan Radiosunda Qərbi Azərbaycan kəndləri barədə silsilə verilişlər hazırlayan jurnalist Bəxtiyar Bəxtiyarov deyib ki, Qərbi azərbaycanlı repressiya, deportasiya və soyqırımı qurbanları ən az tədqiq olunan sahələrdəndir. Mən Qərbi Azərbaycanın 530 kəndi haqqında məlumat toplayıb, radioverilişlər hazırlamışam. 1918-1920-ci illərdə Qərbi Azərbaycanda 575 min türk yaşayıb. O qanlı hadisələrdən sonra - 1920-ci ildə cəmi 20 min Azərbaycan türkü siyahıya alınıb. Qalan 555 min nəfərin qaçanı qaçıb canın qutarıb, qaça bilməyənləri daşnaklar qırıblar. O illərdə 499 kənd yerlə–yeksan edilib. Gənclərimiz bir şeyi unutmasınlar ki, ermənilərin türk düşmənçiliyi və millətçilik xəstəliyi sağalan deyil.

Layihənin eksperti, tarixçi Bəxşeyiş Ələmşahov Abşeron rayon rəhbərliyinə "Qərbi Azərbaycan repressiya və soyqırımı qurbanlarının tədqiqi" kimi layihələrin keçirilməsinə şərait yaratdığına, təşkilati dəstəyə görə minnətdarlığını bildirib.

Bəxşeyiş Ələmşahova milli-mənəvi dəyərlərimizə sahib çıxdığına, Zəngəzur mahalının zəngin tarixini əks etdirən çoxsaylı eksponatlardan yaratdığı Tarix -diyarşünaslıq muzeyini 1988-ci ilin qanlı qırğınlarında həyatını təhlükəyə ataraq, Azərbaycana köçürməklə göstərdiyi fədakarlığa görə "Hərbi Mövzular üzrə İxtisaslaşmış Jurnalistlər" İctimai Birliyinin fəxri




diplomu təqdim edilib.

Tədbirin rəsmi hissəsindən sonra iştirakçılara son 200 ildə xalqımıza vurulan maddi–mənəvi zərərlərin əks olunduğu bukletlər paylanılıb. Tamxil Ziyəddinoğlu Abşeron Rayon İcra Hakimiyyətinin kitabxanasına bağışladığı "Güllə səsinə açılan qapı" kitabını icra başçısının müavini Gülnar Rəhimovaya təqdim edib. Görüş iştirakçıları ilə xatirə şəkli çəkdirilib. Beləcə, İrəvana, Göyçəyə, Zəngəzura uzanan yollara düşən inam işığında hər kəs öz yoluna çıxıb.

***XQ***

# Azərbaycanda və dünyada Üzeyir Musiqi Günü



**Hər il olduğu kimi, bu dəfə də 18 sentyabrda Üzeyir Musiqi Günü Azərbaycanda və dünyada təntənə ilə qeyd olundu. Milli musiqimizə peşəkar yön vermiş dünyaşöhrətli bəstəkar Üzeyir Hacıbəylinin tarixi xidmətlərinin yada salınması və onun misilsiz sənət irsinin gələcək nəsillərə ötürülməsi missiyası daşıyan bu əlamətdar gün keçmişlə gələcəyi birləşdirən zaman körpüsüdür.**

Üzeyir Musiqi Günü Fəxri xiyabanda dahi bəstəkarın məzarının ziyarət edilməsi ilə başlandı. Mərasimdə mədəniyyət naziri Adil Kərimli, nazirliyin əməkdaşları və tanınmış mədəniyyət xadimləri iştirak edirdilər. Nazir bildirdi ki, Üzeyir Musiqi Günü 18 sentyabr Ulu öndər Heydər Əliyevin 1995-ci il Fərmanı ilə təsis edilib və hər il bu münasibətlə silsilə tədbirlər keçirilir, bəstəkarın mədəniyyətimizə xidmətləri bir daha xatırlanır. Günün davamı olaraq Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə sentyabrın 28-dək ölkəmizdə Üzeyir Hacıbəyli XV Beynəlxalq Musiqi Festivalı keçiriləcək.

**Azərbaycan Milli Konservatoriyasının rektoru Kamilə Dadaşzadə XQ-yə açıqlamasında Azərbaycan musiqi mədəniyyətinin inkişafında dahi bəstəkarın müstəsna xidmətlərindən danışdı:**

– Təsadüfi deyil ki, Azərbaycanda Musiqi Günü məhz Üzeyir bəyin doğum günündə qeyd olunur. Çünki Üzeyir bəy elə bir dahi şəxsiyyətdir ki, onun yaradıcılığı milli musiqimizin bütün mərhələlərini əhatə edir. Üzeyir Hacıbəyli özündən əvvəlki sələflərin zəngin irsinə söykənir, yaradıcılığının hər mərhələsində Azərbaycan musiqisinin inkişaf istiqamətlərini müəyyənləşdirirdi. Bu gün milli musiqimizin elə bir sahəsi yoxdur ki, orada Üzeyir bəyin ənənələri yaşamasın. Onun yaradıcılığı yalnız ölkəmizdə deyil, həmçinin Qərb və Mərkəzi Asiya musiqi mədəniyyətlərinin inkişafında da əvəzsiz rol oynamışdır. Məhz buna görə də Azərbaycan xalqı var olduqca bizim musiqimiz yaşayacaq, Üzeyir bəyin ənənələri isə gənc nəslin yoluna işıq tutacaq.



**Dahi bəstəkar Üzeyir Hacıbəylinin doğum günü olan 18 sentyabrın Azərbaycan musiqi aləmində böyük bayram kimi qeyd edildiyini xatırladan Xalq artisti, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının direktoru Yusif Eyvazov XQ-yə dedi:**

– Etiraf edim ki, bəstəkarın şah əsəri "Koroğlu" operasına əvvəllər sadəcə tamaşaçı kimi yanaşırdım. Amma baş rolun ifaçısı kimi Cüzeppe Verdi və Cakomo Puççini kimi dünyaşöhrətli italyan bəstəkarlarının harmoniyalarını, orkestr düşüncəsini Üzeyir bəyin musiqisində tapdım. Bu, bir daha sübut edir ki, bəstəkarın yaradıcılığı yalnız milli mədəniyyətimiz üçün deyil, bütün dünya musiqi xəzinəsi üçün dəyərli incidir. Opera və Balet Teatrında çalışan gənc nəsil üçün əsas vəzifə bu musiqini dünyaya tanıtmaqdır. Onu yalnız Bakıda deyil, Vyana Operasında, Milanın "La Scala" səhnəsində, dünyanın nüfuzlu teatrlarında səsləndirmək gərəkdir. Bu musiqi o səhnələrə çıxmağa, dünya tamaşaçısının diqqətinə layiqdir. Mədəniyyət Nazirliyi, Heydər Əliyev Fondu və dövlət rəhbərliyi belə layihələrə dəstək verir. Arzum budur ki, gələcəkdə də Üzeyir bəyin üslubuna yaxın dahi bəstəkarlarımız yetişsin və onlar da yeni, ölməz əsərlər yaratsınlar.

**Xalq artisti İlqar Muradov isə dedi ki, haqlı olaraq Üzeyir Musiqi Günündə musiqi, incəsənət və digər sahələrdə ölkəmizdəki inkişafdan, eləcə də gənc istedadların uğurlarından danışılır, xüsusilə bu istedadların vaxtında tanıdılması vacibliyi gündəmə gəlir:**

– İndi həyatımızın bütün sahələrində böyük inkişaf gedir. Gələcəyə hesablanmış dövlət siyasəti nəticəsində elmdə, idmanda, texnologiyada yeni nəsil öz sözünü deyir, çox istedadlı gənclər yetişir. Bu, həm qürurverici, həm də gələcək üçün böyük ümidlərin başlanğıcıdır. Çünki gənclik hər bir xalqın sabahıdır və parlaq, bacarıqlı gənclərin yetişməsi Azərbaycan üçün böyük sərmayədir. Lakin təəssüf ki, bu istedadlar efirlərdə az görünürlər.

Televiziyalarda bəzən maraqsız mövzulara vaxt ayrılır. İstedadlı gənclərin uğurları, yeni layihələri, yaratdıqları əsərlər isə çox vaxt gözardı edilir. Bu, həm onların inkişafına, həm də cəmiyyətin motivasiyasına ciddi zərbədir. İstərdim ki, ekranlarımızda yersiz mövzulara deyil, yaradıcı, elmli və dünyagörüşlü gənclərə yer verilsin, onların ideyaları, baxışları geniş auditoriyaya çatdırılsın. Biz mediada ilhamverici nümunələr görməliyik, yoxsa istedadlarımız itər. Böyük Üzeyir bəy bu məsələlərə yüksək diqqət yetirməklə musiqi sənətinin inkişafına güclü təkan verib.

Musiqi yalnız keçmişin yadigarı deyil, gələcəyin təməlidir. O, tariximizi yaşadır, mədəni irsimizi qoruyur və eyni zamanda gənc nəsillərə ilham verir.

***

**Üzeyir Musiqi Gününün növbəti ənənəvi tədbiri Azərbaycan Milli Konservatoriyasında keçirilib. Konservatoriyanın tələbələri musiqi proqramı ilə çıxış ediblər. Tədbiri dövlət və ictimai qurumların nümayəndələri, mədəniyyət xadimləri və musiqisevərlərin iştirakı ilə şənliklər Bakı Musiqi Akademiyasının qarşısında davam edib.**

**Günün sonunda isə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında dahi bəstəkarın "Leyli və Məcnun" operası nümayiş olunub.**

***

**AMEA-da isə "Üzeyir Hacıbəyli: ədəbi-mədəni dəyərlər və mənəvi-estetik zənginlik" mövzusunda elmi konfrans**



**keçirilib. AMEA Rəyasət Heyəti, Humanitar və İctimai Elmlər bölmələrinin birgə təşkilatçılığı ilə keçirilən məclisin iştirakçıları əvvəlcə Üzeyir Hacıbəylinin həyat və yaradıcılığını əks etdirən sərgi ilə tanış olublar.**

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli Şərqdə ilk operanın yaradıcısı, dahi bəstəkar, tanınmış ictimai xadim, Xalq artisti, Dövlət mükafatları laureatı, akademik Üzeyir Hacıbəylinin Azərbaycanın mədəniyyət və musiqi tarixində oynadığı roldan bəhs edərək onun "Sənsiz", "Sevgili canan" kimi qəzəl incilərinə layiq musiqi əsərləri yaratdığını vurğulayıb. O qeyd edib ki, Üzeyir Hacıbəyli yaradıcılığında Azərbaycan Xalq musiqisinin, muğam və aşıq sənətinin incə xüsusiyyətlərini birləşdirərək özünün orijinal üslubunu yarada bilmişdir. Bəstəkar Məhəmməd Füzulinin poeması əsasında "Leyli və Məcnun" operası ilə milli operamızın əsasını qoymuş, Azərbaycanın əsrlərdən bəri miras qalmış zəngin musiqisini ilk dəfə nota köçürmüşdür.

AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun şöbə müdirləri, professor İradə Köçərli, professor Nailə Rəhimbəyli, Fəlsəfə və Sosiologiya İnstitutunun şöbə müdiri, professor Adil Əsədov, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş elmi işçisi, filologiya elmləri doktoru Şahbaz Musayev və başqaları çıxış edərək dahi bəstəkarın çoxşaxəli yaradıcılığından ətraflı bəhs ediblər.

Azərbaycan Bəstəkarlar İttifaqının sədri, AMEA-nın müxbir üzvü Firəngiz Əlizadə Üzeyir Hacıbəylinin Azərbaycan mədəniyyətinin və musiqi sənətinin inkişafında xidmətlərindən danışıb.

***

**Üzeyir Musiqi Günündə dahi bəstəkarın Ev-Muzeyində də sənətkarın 140 illiyi münasibərtilə mərasim keçirilib.**

Məclisdə Azərbaycan Milli Konser-



vatoriyasının rektoru Kamilə Dadaşzadə, konservatoriyanın elmi işlər üzrə prorektoru, Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, musiqişünas Lalə Hüseynova, Əməkdar incəsənət xadimi, professor Zümrüd Dadaşzadə, muzeyin elmi katibi Nərgiz Qədirova digər incəsənət xadimləri unudulmaz sənət korifeyinin mədəniyyət tariximizdə məxsusi yeri olan zəngin irsindən və bənzərsiz şəxsiyyətindən geniş söhbət açıblar.

**Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professoru, Əməkdar incəsənət xadimi Zümrüd Dadaşzadə mediaya açıqlamasında bildirib ki, dahi Üzeyir Hacıbəylinin 140 illik yubileyi ölkəmizdə silsilə tədbirlərlə qeyd olunur. Musiqiçilər həmişə Üzeyir Hacıbəylinin yaradıcılığı ilə təmasdadır:**

– 18 Sentyabr Üzeyir Musiqisi Gününü isə xalqımız bütünlüklə dahi bəstəkara sonsuz sevgi-sayğısını nümayiş etdirir. Üzeyir bəyin yaradıcılığında hansı sahəni ön plana çıxarmaq lazım olduğunu söyləmək çətindir. Onun əsərləri əbədiyaşardır və bizə yol göstərir. Alimlərimiz də Üzeyir Hacıbəylini dərindən tədqiq ediblər. Evimizdə Üzeyir bəyin əsərlərinə dair çox zəngin arxiv qorunub saxlanılır. Mənim babam Məhəmməd Arif Dadaşzadə Üzeyir bəyin fəaliyyəti ilə şəxsən tanış olub və onun "Koroğlu" operasının premyerası ilə bağlı materiallar hazırlayıb.

Atam Araz Dadaşzadə də Üzeyir bəyə aid sənədləri toplayıb. Bu gün onları araşdırarkən görürəm ki, nə qədər zəngin material mövcuddur və Üzeyir Hacıbəylinin dünya musiqi tarixində rolu nə qədər böyükdür. Üzeyir Hacıbəyli yalnız Azərbaycan musiqi tarixinin deyil, eyni zamanda türk və müsəlman arealında bəstəkarlıq məktəblərinin formalaşmasında da mühüm rol oynayıb. Xalq artisti Əhməd Bakıxanov isə onu belə xarakterizə edib: "Üzeyir Hacıbəyli yalnız Azərbaycan bəstəkarlıq məktəbinin banisi deyil, ümumiyyətlə, milli bəstəkarlıq məktəblərinin təşəkkülündə iştirak edən əvəzsiz sənətkardır".

Biz fəxr edirik ki, Azərbaycan tarixində Üzeyir Hacıbəyli kimi böyük bir sənətkar var. Bizim borcumuz onun irsini yaşatmaq, ideallarını uca tutmaq və bu musiqi ilə yaşamaqdır. Mən inanıram ki, əgər biz Üzeyir Hacıbəylinin ideallarına sadiq qalsaq, həyatımız daha gözəl və mənalı olacaq.



***

**Üzeyir Musiqi Günü münasibətilə Ankaradakı Qazi Universitetinin Memar Kəmaləddin adına konsert sarayında "Müsəlman Şərqinin ilk operanın müəllifi, Azərbaycan–Türk dünyası musiqisinin rəmzi Üzeyir Hacıbəyli" adlı konfrans, təqdimat və konsert keçirilib.**

Türkiyədəki Azərbaycan Mədəniyyət Mərkəzinin təşkilatçılığı, Qazi Universiteti, Ankara Musiqi və Gözəl Sənətlər Universitetinin dəstəyi ilə təşkil olunan məclisdə diplomatlar, dövlət və beynəlxalq təşkilatların nümayəndələri, elm xadimləri, Türkiyədə təhsil alan azərbaycanlı tələbələr iştirak ediblər. Azərbaycanın Əməkdar artisti İslam Manafov, Üzeyir Hacıbəylinin əvəzolunmaz mirasından danışıb.

Görkəmli bəstəkara həsr olunmuş filmin nümayişi ilə davam edən tədbirdə Azərbaycan Mədəniyyət Mərkəzinin layihəsi ilə hazırlanmış "Azərbaycanlı bəstəçilərdən piano əsərləri" adlı kitabın təqdimatı olub. Türkiyədə yaşayan azərbaycanlı sənətçilərin iştirakı ilə dahi Üzeyir Hacıbəylinin əsərləri əsasında konsert proqramı təqdim edilib.

***

**Dahi bəstəkar, böyük ziyalı, görkəmli ictimai xadim Üzeyir Hacıbəylinin doğum günü Tbilisidəki M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyində də təntənəli şəkildə qeyd olunub.**

Muzeyin elmi işçisi Leyla Əliyeva tədbiri açaraq Azərbaycan Milli Musiqi Günü və dahi bəstəkar Üzeyir Hacıbəylinin həyat və yaradıcılığı haqqında məlumat verib. Azərbaycanın Gürcüstandakı səfirliyinin birinci katibi Ramiz Hacızadə çıxış edərək Üzeyir Hacıbəylinin həyat və yaradıcılığından, onun Azərbaycan musiqi sənətinin inkişafındakı rolundan söz açıb. Məclis mədəni proqramla davam edib.

***

**Dünən dahi bəstəkar Üzeyir Hacıbəylinin anadan olmasının 140 illik yubileyi münasibətilə Azərbaycanın Avstriyadakı səfirliyi və bu ölkədəki Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə sənətkarın Vyanada ucaldılmış abidəsi önündə musiqili-bədii proqram təşkil olunub.**

Dunay Parkında yerləşən abidənin qarşısında keçirilən xatirə tədbirində Avstriyanın dövlət rəsmiləri, Vyanada akkreditə olunmuş diplomatik korpusun və beynəlxalq təşkilatların təmsilçiləri, bu ölkədə yaşayan həmvətənlərimiz iştirak ediblər.

***

**Azərbaycan musiqi mədəniyyətinin qurucusu, dahi bəstəkar Üzeyir Hacıbəylinin anadan olmasının 140 illi-**



**yi və Üzeyir Musiqi Günü münasibətilə onun Serbiyanın Novi Sad şəhərində ucaldılmış büstü önündə mərasim keçirilib.**

Azərbaycanın Serbiyadakı səfiri Kamil Xasiyev milli bəstəkarlıq məktəbinin, ilk milli opera və operettanın yaradıcısı, musiqişünas, publisist, dramaturq və pedaqoq, Azərbaycanın və SSRİ-nin Xalq artisti, akademik Üzeyir Hacıbəylinin Azərbaycan klassik musiqi tarixi və mədəniyyətində müstəsna xidmətlərindən bəhs edib.

***

**Romada, musiqi sənətinin beşiyi sayılan Santa Çeçiliya Dövlət Konservatoriyasında Azərbaycan musiqi mədəniyyətinin banisi, dahi bəstəkar Üzeyir Hacıbəylinin 140 illik yubileyinə həsr olunan konsert İtaliyada Azərbaycan mədəniyyəti üçün yeni səhifə açıb.**

Azərbaycanın Mədəniyyət Nazirliyi, ölkəmizin İtaliyadakı səfirliyi və Santa Çeçiliya Konservatoriyasının birgə təşkilatçılığı ilə keçirilən yubiley konserti İtaliyanın mədəniyyət və akademik dairələrinin, diplomatik korpusun və soydaşlarımızın böyük marağına səbəb olub. Mədəniyyət Mərkəzinin direktor müavini Gülnar Tağızadə konsertin Mədəniyyət Nazirliyinin təşkil etdiyi XVII Beynəlxalq Musiqi Festivalı çərçivəsində keçirildiyini vurğulayıb.

Çıxış edənlər Üzeyir bəyin Azərbaycan musiqisinin inkişafına misilsiz töhfələrindən söz açıblar. Səfir Rəşad Aslanov 18 sentyabr tarixinin Prezident İlham Əliyevin sərəncamı ilə 2009-cu ildən etibarən Üzeyir Musiqi Günü kimi qeyd olunmasının əhəmiyyətini xüsusilə qeyd edib.

***

**"Yazarlar" jurnalının baş redaktoru, şair Zaur Ustac Üzeyir Hacıbəylinin 140 illiyi münasibətilə dahi bəstəkar barədə monoqrafiya çap etdirib.**




Kitab nəfis tərtibatla dahi bəstəkarın yubiley tədbirləri çərçivəsində nəşr olunaraq geniş oxucu kütləsinə təqdim edilib. "Yazarlar" jurnalının həyata keçirdiyi "Üzeyir Hacıbəyov – 140" layihəsinin uğurlu nəticəsi kimi ərsəyə gələn kitabın məsləhətçisi, tanınmış şair Dayandur Sevgin, redaktoru Hacıxanım Aida, naşiri isə Tuncay Şəhrilidir.

Kitab ölkənin əsas kitabxanalarının kitab fondlarına hədiyyə olunmaqla yanaşı, müxtəlif sabit internet platformalar üzərindən elektron kitab formatında da pulsuz olaraq yayımlanır.

*Səhifəni hazırladılar:*
***Tahir AYDINOĞLU,***
***Fidan ƏLİYEVA,***
***Əli NƏCƏFXANLI,***
***Qabil ƏLİYEV,***
***Arzu ƏLİYEVA***
***XQ***

*Sağlamlıq*

# Uşaqlıqdan gəncliyə keçidin ağrılı yolu

## *Övladlarımızı yeniyetmə çılğınlığından necə qoruyaq?*



**Yeniyetməlik dövrü insan həyatının ən çətin və mürəkkəb mərhələlərindən biridir. Bu dönəmdə yaranan problemlər konfliktlərə, hətta valideynlə uşaq arasındakı münasibətlərin korlanmasına gətirib çıxarır. Əslində bu ziddiyyət hər zaman olub. Lakin müasir dövrdə daha kəskin şəkildə özünü göstərir.**

Bu duruma təsir edən amillər içərisində müasir texnologiyaları, interneti xüsusi qeyd etmək lazımdır. Çünki yeniyetmələrin internetdə həddsiz vaxt keçirmələri həm onlarda qıcıq yaradır, həm də dərslərdən yayınmalarına səbəb olur. Bütün bunlar isə yeniyetmə ilə ailəsi arasında müəyyən soyuqluğa yol açır. Bəs valideynlər bu dönəmdə nələrə diqqət etməlidirlər?

Bu mövzuda XQ-yə açıqlama verən Bakı Dövlət Universitetinin müəllimi, Psixologiya Elmi-Tədqiqat İnstitutunun elmi işçisi, uzman psixoloq Narınc Rüstəmova bildirdi:

– Yeniyetməlik çağı istər psixoloji, istərsə də fizioloji baxımdan uşaqlıq dövründən olduqca fərqlənir. Bu dönəmdə baş verən psixoloji dəyişikliklər–güclü emosiyalar, özünütanıma ehtiyacı, sosial təsirlərə həssaslıq yeniyetmələrin davranış və qərarvermə prosesinə birbaşa təsir edir. Bəzi yeniyetmələrin fizioloji dəyişikliyi ilə bağlı gərginlik, kompleks yaşadıqlarını və bunu paylaşa bilmədiklərini müşahidə edirik. Ona görə də bir çox yeniyetmələr bu dövrü normal keçirə bilmir, böhranlar yaşayır və ailəsi ilə konfliktləri olur. Bu, çox zaman onların davranışında, ünsiyyət qurmasında və təhsil həyatında özünü göstərir. Burada valideyn yanaşması önəmlidir.

Əlbəttə, hər bir valideyn bu çətin dönəmdə övladına kömək etmək istəsə də bəzən bunun öhdəsindən gələ bilmir. Bəziləri övladına nəsihət vermək əvəzinə danlayır, xüsusi cəzalar tətbiq edir. Lakin yeniyetməlik dövründə həddsiz qadağalar və cəzalar verilməsi doğru deyil. Çünki yeniyetmələrin əksəriyyəti bunu şəxsiyyətinə hörmətsizlik kimi başa düşür, özlərini alçalmış hiss edirlər. Belə yanaşmalar valideyn-uşaq münasibətində uçurum yarada bilər.

Yaxşı olar ki, valideyn övladına uşaq kimi deyil, yeniyetmə kimi yanaşıb empatiya qursun. Bundan əlavə, valideyn və uşağın film, musiqi, geyim və s. zövqləri eyni olmaya bilər. Bu zaman valideyn övladının seçimlərinə hörmətlə yanaşmalı, onu öz istəklərinə uyğun davranmaya zorlamamalıdır. Çox zaman valideynlər uşaqları ilə düzgün ünsiyyət qura bilmir, qeyd etdiyim kimi, çarəni danlamaqda və ya cəzalandırmaqda görürlər. Lakin onlar övladlarının nə istədiyini və düşüncələrini anlamağa çalışmalı, təmkinli, səbirli olmalıdırlar.

Övladlarının sərt hərəkətlərinə şiddətlə və əsəbi cavab vermək doğru yanaşma üsulu deyil. Uşaqları ilə dost olmağı bacarmalıdırlar. Yəni valideynlər elə bir mühit yaratmalıdırlar ki, yeniyetmə yaşamış olduğu istər yaxşı, istərsə də pis şeyləri onlarla paylaşa bilsin.

**Yeniyetməlik dövrünün 3 əsas xüsusiyyətlə özünü göstərdiyini qeyd edən psixoloq dedi:**

– Əvvəla tənhalıq hissi, ikincisi öz yaşıdları ilə münasibətdə olmaq arzusu, üçüncüsü sosial status qazanmaq arzusu. Bu dönəmdə böyüklərlə zaman keçirmək onlar üçün əvvəlki kimi maraqlı olmur. Əksinə, daha çox çevrələrində olan həmyaşıdlarına maraq göstərirlər. Belə olan halda valideyn israrla onları dostlarından ayırdıqda və ya evdə zaman keçirmələrini tələb etdikdə uşaqlarda ailələrinə qarşı aqressiya yaranır. Çılğınlıq yeniyetməlik dövründə çox şiddətli hal ala bilər. Hətta uşaqlar valideynlərinə, həm psixoloji, həm də fiziki şiddət göstərə bilərlər.

Eyni zamanda, bəzi yeniyetmələr nəinki valideynlərinə, hətta özlərinə də zərər yetirirlər. Bəziləri isə müəyyən müddət tənhalıq hissinə qapılırlar. Bu problem çox zaman böyüklərlə münasibətlərdə yaranır. Digər bir məsələ isə sosial status qazanmaqdır. Belə ki, hər bir yeniyetmənin əsas məqsədi çevrəsində, təhsil aldığı məktəbdə və ya sinifdə müəyyən sosial statusa sahib olmaqdır. Məsələn, biri sinfin ən yaxşı oxuyanı, digəri ən gözəli və s. olmaq istəyir.

**Narınc Rüstəmova daha sonra söylədi:**

– Ümumiyyətlə, yeniyetməlikdə 14-16 yaş arası dövr "böhran dönəmi" hesab olunur. Başqa sözlə desək, bu yaş dönəmi kritik yaş dövrü sayılır. Belə ki, cinayət hadisələri, özünəqəsd, intihar halları məhz bu dönəmdə daha çox baş verir. Bu da xüsusilə özünəqapanma, ünsiyyətdən qaçma, tənhalıq halları, sosial fobiya fonunda özünü göstərir. Belə hallar daha çox çəkingən, özgüvəni aşağı, düşdüyü mühitə adaptasiya olmaqda çətinlik çəkən uşaqlarda müşahidə olunur. Bəzən bu vəziyyət, depressiv



hallar o həddə çatır ki, yeniyetmə ümumiyyətlə, otağından çıxmaq, ailə üzvləri ilə danışmaq istəmir.

Əgər yeniyetmənin özünəqapanma halları varsa, zamanında tədbir görmək lazımdır. Valideyn bu problemin həllində özünü yetərsiz görürsə, bir çox cəhdlərə baxmayaraq, heç bir nəticə əldə edə bilmirsə, mütləq psixoloji dəstək alınmalıdır. Çünki, problemli yeniyetməlik gələcəyin problemli ailəsi deməkdir. Belə ki, bir müddət sonra valideyn və övladla yanaşı, ər-arvad arasında da münasibətlər gərginləşməyə başlayır.

Psixoloji dəstəklə bu problemlər öz həllini tapa, yeniyetmə dərsə köklənə, istər davranış, istərsə də ünsiyyəti düzələ bilər. Ona görə də valideynlər belə problemlərə biganə yanaşmamalıdırlar. Əks təqdirdə, problem böyüyərək zaman keçdikdə daha ağır fəsadlara yol açar. Unutmayaq ki, sağlam psixoloji inkişaf gələcəkdə balanslı və etibarlı bir fərdin formalaşmasının əsas şərtidir.

***Elenora HƏSƏNOVA***
***XQ***

# Multikulturalizm Mərkəzi Qazaxıstanla əlaqə yaradıb



**Qazaxıstanın paytaxtı Astana şəhərində keçirilən Dünya və Ənənəvi Din Liderlərinin VIII Qurultayı çərçivəsində Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi ilə Qazaxıstanın Beynəlxalq Konfessiyalararası və Dinlərarası Dialoq Mərkəzi arasında Memorandum imzalanıb.**

Anlaşma sənədinin imzalanma mərasimində bildirilib ki, memorandum Azərbaycan və Qazaxıstanın qlobal miqyasda mədəniyyətlərarası, eləcə də dinlərarası dialoqa verdiyi önəmin bariz nümunəsidir. Yaradılan əlaqə regional və beynəlxalq miqyasda dinlərarası və mədəniyyətlərarası dialoqun möhkəmlənməsinə töhfə verəcək, Azərbaycanın multikulturalizm və tolerantlıq ənənələrinin beynəlxalq miqyasda təşviqinə xidmət edəcək, Qazaxıstanın isə multikonfessional və multietnik cəmiyyət modelinin öyrənilməsi və təbliği baxımından faydalı olacaq.

Memoranduma əsasən birgə tədqiqat layihələrinin həyata keçirilməsi, elmi seminarlar, konfranslar və dəyirmi masaların təşkili, dinlərarası münasibətlərin inkişafı sahəsində təcrübə və metodoloji yanaşmaların mübadiləsi, dövlət qurumları üçün proqnoz və tövsiyələrin hazırlanması, elmi əməkdaşlar üçün təcrübə proqramlarının təşkili nəzərdə tutulur. Sənədlərdə birgə iştirakı, eləcə də gələcək əməkdaşlıq formalarının qarşılıqlı razılıq əsasında inkişaf etdirilməsini ehtiva edir.

***T.RÜSTƏMLİ***
***XQ***

# Sənətşünas müğənninin "Əsr türkün əsridir" layihəsi

**Əməkdar artist, Opera və Balet Teatrının solisti, sənətşünaslıq üzrə fəlsəfə doktoru Gülüstan Əliyeva türkçülüyə həsr olunan "Əsr türkün əsridir" layihəsini təqdim edib. Məfkurəvi mahnıda Türk xalqlarının birliyi, tarixi, mədəni bağlılığı tərənnüm olunur.**



Azərbaycan dili ilə yanaşı , mahnının bəzi bəndləri qazax, qırğız, özbək, türkmən dillərində oxunub. Mətndə türk xalqlarının qəhrəmanlarının da adları çəkilir. Mahnının ərsəyə gəlməsində Türk xalqlarına məxsus qədim musiqi alətlərindən, rəqslərdən, şamanizmi təcəssüm etdirən qavaldan istifadə olunub. Klipdə çəkilən bütün kadrlar, hətta xüsusi hazırlanmış geyimlər türkçülüyü əks etdirir. Orxon - Yenisey, Göytürk, şamanizm elementlərilə hazırlanmış geyimlər Azərbaycanın təkəlduz sənətinə aiddir.

Kompozisiyanın musiqisi Qoçaq Əsgərova, aranjimanı "Ethno Class" orkestrinin rəhbəri, pianoçu Tural Məmmədliyə, sözləri professor Mahirə Nağıqızıya məxsusdur. Klip "AS" prodakşnda hazırlanıb. Layihənin rəhbəri tanınmış telejurnalist Səidə İbrahimli, rejissoru Faiq Əliyevdir. Rəqslərə quruluşu xoreoqraf Aslana Əliyeva verib. Kompozisiyanın sözlərini türk xalqlarının dillərinə türkoloq Yeganə Aslanova tərcümə edib.

***XQ***



*Xuntaçıların məhkəməsi*

# Ermənistanın hərbi cinayətlərinin hüquqi araşdırılması davam edəcək

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesi gələn həftə davam etdiriləcək.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) məhkəmə iclası sentyabrın 22-nə təyin olunub.

Qeyd edək ki, Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə 15 təqsirləndirilən şəxs ittiham edilir.

Həmin şəxslər, yəni, Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan David Klimi, Mnatsakanyan Levon



Henrikoviç, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.

***XQ***


## "Sabunçu Bazarı" ASC səhmdarlarının nəzərinə!

"Sabunçu Bazarı" ASC öz səhmdarlarını 2025-ci il oktyabrın 28-də saat 14:00-da Bakı şəhəri, Sabunçu rayonu, Sabunçu qəsəbəsi, Ə.Cavad küçəsi 4 nömrəli ünvanda yerləşən inzibati binasında keçiriləcək növbədənkənar ümumi yığıncağa dəvət edir.

Növbədənkənar ümumi yığıncağın gündəliyi:

1. "Sabunçu Bazarı" ASC-nin əsas səhmdarının vəfatından sonra onun paylarının qanuni varisi qismində həyat yoldaşına keçməsinin təsdiqi.
2. "Sabunçu Bazarı" ASC-nin müşahidə şurasının üzvlərinin seçilməsi.

Səhmdarlar növbədənkənar ümumi yığıncağın gündəliyinin materialları ilə iş günləri saat 10:00-dan 17:00-dək, səhmdar cəmiyyətin Bakı şəhəri, Sabunçu rayonu, Sabunçu qəsəbəsi, Ə.Cavad küçəsi 4 nömrəli ünvanda yerləşən inzibati binasında, səhmdar cəmiyyətin rəhbərliyinə müraciət etməklə tanış ola bilərlər.

Əlaqə nömrəsi: 051-491-91-61.

***Baş direktor***



## Kartlara mədaxil komissiyasızdır

İndi müştərilərin istənilən məbləği heç bir komissiya ödəmədən "Birbank" debet və "Bakcell" Kobrend kartlarına mədaxil etmək imkanları vardır. Bunun üçün cash-in funksiyası olan bankomatlardan yararlanmaq mümkündür.

Ətraflı məlumat üçün "Kapitalbank.az" saytı

"Kapital Bank " (zəhmət olmasa saytda bu linki də verərdiniz)

Eyni zamanda, 2025-ci il oktyabrın 21-dən etibarən Milliön, E-manat, Kassam.az terminallarında və "Kapital Bank" /"Birbank" filiallarındakı kassalarda göstərilən kartlara 3000 AZN-dək vəsaiti həmişə olduğu kimi 0% komissiya ilə mədaxil etmək mümkün olacaqdır. Mədaxil edilən məbləğ 3000 AZN-dən yuxarı olduqda isə 0.5% komissiya hesablanacaqdır.

Nümunə kimi siz ödəniş terminalında kartınıza 4000 AZN pul qoymaq istəyirsiniz. Bu zaman 3000 AZN-dək olan hissəyə komissiya hesablanmayacaq və siz yalnız qalan 1000 AZN üçün 0,5%, yəni 5 AZN komissiya ödəyəcəksiniz.

Həmçinin, bank müştəriləri banka məxsus kartlar arasında istənilən məbləği heç bir komissiya olmadan köçürə bilərlər. Ay ərzində isə bütün "Birbank" kartlarındakı şəxsi vəsaitdən ümumilikdə 10 000 AZN-dək məbləği yerli bank kartlarına tam komissiyasız köçürmək və banka məxsus bankomatlarda nağdlaşdırmaq mümkündür.

Xalq qəzeti
XQ
xalqqazeti.az

№ 200 (30894) 19 sentyabr 2025-ci il, cümə

# İDMAN

## Yeniyetmə şahmatçılarımız Dünya çempionatıda




**Dünən Qazaxıstanın Almatı şəhərində yeniyetmə şahmatçılar arasında Dünya çempionatının açılış mərasimi keçirilib.**

Azərbaycan Şahmat Federasiyasından verilən məlumata görə, yarışda 83 ölkədən 785 şahmatçı mübarizə aparacaq. 8, 10 və 12 yaş kateqoriyasında oğlan və qızlar arasında təşkil olunan çempionatda ölkəmizi Fatimə Mirzəliyeva, Nurlan Əzizli, Mehriban Əhmədli, Mələk Əsədli, Atilla Orman, Kənan Babasoy və Əsnad Baxşızadə təmsil edəcəklər.

11 turdan ibarət Dünya çempionatına sentyabrın 30-da yekun vurulacaq.

## Bakıda “Olimpiya günü”



**Bakıda Beynəlxalq Olimpiya Komitəsinin (BOK) 131-ci ildönümünə həsr olunmuş “Olimpiya günü” keçirilib.**

Milli Olimpiya Komitəsinin (MOK), Elm və Təhsil Nazirliyinin, Bakı Şəhər İcra Hakimiyyətinin, TƏBİB-in, Bakı Şəhər Baş Polis İdarəsinin, Parkın əməkdaşlarının, Azərbaycan Kəndirlə Mübarizə və Atletika Federasiyalarının dəstəyi ilə təşkil olunan mərasimdə MOK-un və qeyd edilən qurumların nümayəndələri və digər qonaqlar iştirak ediblər.

Açılışdan sonra EYOF 2025-in qalibləri təqdim olunub. MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə çıxış edərək qaliblərə təbriklərini çatdırıb.

Tədbir çərçivəsində məktəblilər arasında estafet qaçışı və kəndir dartma yarışları da keçirilib. Qaliblər diplom, kubok və medallarla mükafatlandırılıblar.

## Zaqrebdə dünya çempionatı davam edir



**Xorvatiyanın paytaxtı Zaqrebdə dünya çempionatı davam edir. Dünən yunan-Roma güləşi üzrə 4 çəkidə mübarizəyə start verilib.**

55 kiloqramda çıxış edən təmsilçimiz Eldəniz Əzizli hindistanlı Anil Mora tam üstünlüklə (8:0) qalib gələrək 1/4 finala yüksəlib. Titullu güləşçimiz amerikalı Ceyden Raney də qalib gəlib– 5:1. Milli komandanın kapitanı yarımfinalda iranlı Payam Balutakiyə 1:3 hesabıyla məğlub olub və bu gün bürünc medal uğrunda mübarizə aparacaq.

Digər güləşçilərimiz – Sənan Süleymanov (77 kq) 1/4 finalda iranlı Alireza Abdevaliyə 1:3 hesabıyla məğlub olub, Qurban Qurbanov 1/4 finalda yaponiyalı Taizo Yoşidaya uduzub – 8:9, Beka Kandelaki isə təsnifat mərhələsində ermənistanlı Razmik Kurdyana ilk xal prinsipinə əsasən (1:1) məğlub olub. Beləliklə Eldəniz Əzizlidən başqa digər təmsilçilərimiz medal şanslarını itiriblər.

*Qabil YUSİFOĞLU*
*XQ*

*✓ 2017-ci il dekabrın 29-da Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən “AZBİZNESSERVİS” MMC-yə özəl tibb fəaliyyəti üçün verilmiş İN/L-1184 /2017 nömrəli lisenziya itdiyi üçün etibarsız sayılır.*

# Formula 1 Qran Prisi: Pilotların hədəfləri və marşalların hazırlığı






**Formula 1 yarışları Azərbaycan üçün təkcə sürət festivalı deyil, həm də ölkəmizin dünyaya açılan idman vitrini, qlobal arenada gücünü və nüfuzunu göstərən möhtəşəm tədbirdir. Bakı küçə trası illərdir dünyanın ən tanınmış pilotlarını və minlərlə azarkeşi bir araya gətirərək paytaxtımızı beynəlxalq idman mərkəzinə çevirib. Bu yarış yalnız mühəndisliyin və sürətin zirvəsini nümayiş etdirmir, eyni zamanda Azərbaycanın qonaqpərvərliyini, mədəniyyətini və inkişafını bütün dünyaya tanıdır. Hər il keçirilən Azərbaycan Qran Prisi həm turizmə, həm iqtisadiyyata töhfə verir, həm də ölkəmizi idman xəritəsində ön sıralarda saxlayır.**

Bu həftəsonu baş tutacaq Formula 1 Qatar Airways Azərbaycan Qran Prisi 2025 artıq dünyanın diqqət mərkəzindədir. Mövsümün 17-ci mərhələsi olan yarış öncəsi pilotlar və komandalar Bakı Şəhər Halqasında hazırlıqlara start veriblər. Dünyanın ən məşhur sürücüləri – Maks Ferstappen, Karlos Sainz, Fernando Alonso və digərləri artıq Paddock ərazisindədir.

Paddock komandaların qarajlarının, texniki avadanlıqların, mühəndislərin və pilotların bir araya gəldiyi əsas mərkəzdir. Burada bolidlərin sazlanması, strategiyaların müəyyənləşdirilməsi və media ilə görüşlər həyata keçirilir. Əslində, Paddock yarışın görünməyən ürəyidir. Azərbaycan Qran Prisi çərçivəsində tamaşaçılar üçün xüsusi Champions Club biletlərinə Paddock turları da daxildir ki, bu da həvəskarların yarışın kulisində baş verənləri canlı izləməsinə imkan yaradır.

Pilotların hazırlığı ilə yanaşı, Bakı artıq yarış ab-havasına bürünüb. Tribunalar və Fan Zonalar sürətlə yekunlaşdırılır, komandalar isə ən kiçik detallar üzərində işləyirlər. Yarış öncəsi keçirilən mətbuat konfransında sürücülər Bakı trasının uzun düzlükləri, kəskin döngələri və ötüşmə imkanları ilə unikallığını vurğuladılar. McLaren pilotu Oskar Piastri isə komanda strategiyalarının vacibliyini qeyd edərək bütün güvənini komandasına yönəltdiyini bildirdi.







Lakin bu möhtəşəm hadisənin arxa planında daha bir qəhrəman komanda var – Formula 1 marşalları. Onların işi olmadan nə pilotların, nə də tamaşaçıların təhlükəsizliyi təmin edilə bilər. Bu il 1 500-ə yaxın marşal yarışda iştirak edir. Onlar səhər saatlarından etibarən Atletlər kəndindən tras ərazisinə yollanaraq öz postlarında hazırlıq məşqləri keçiriblər.

Marşallar müxtəlif funksional qruplara bölünür: yanğın, bayraq, trek və digər dəstək komandaları. Hər bir qrupun xüsusi vəzifəsi olsa da hamısını birləşdirən əsas məqsəd yarışın təhlükəsiz və problemsiz keçirilməsidir. Əksəriyyəti könüllülük əsasında çalışan bu şəxslər motorsporta olan böyük sevgilərini əməli fədakarlıqla nümayiş etdirirlər. Onların səssiz zəhməti sayəsində pilotlar yüksək sürətlərdə mübarizə apara bilir, azarkeşlər isə Bakı küçələrində dünyanın ən sürətli maşınlarının yarışını həyəcanla izləyirlər.

19-21 sentyabr tarixlərində keçiriləcək Formula 1 Qatar Airways Azərbaycan Qran Prisi 2025 ölkəmizi yenidən dünya mediasının gündəminə daşıyacaq. Bakı bir daha sübut edəcək ki, həm sürət, həm də təhlükəsizlik baxımından möhtəşəm yarışlara ev sahibliyi edə bilir.

*Səbuhi MƏMMƏDOV*
*XQ*

# Gəncə çinarları qədim şəhərin “yaşıl” yaddaşıdır



**Gəncə haqqında nəsə yazmaq istəyəndə çətinlik çəkmirsən, mövzu kifayət qədərdir. Qala divarlarından tutmuş Nizami məqbərəsinədək, kəhrizlərdən başlamış meydanlara, park və xiyabanlara, yeni görkəm alan binalaradək …**





Amma bu bir həqiqətdir ki, çinarlardan hətta iki kəlmə nəsə deyəndə bir qədər tərəddüd edir, düşünməli olursan. Çünki bu şəhəri çinarlar olmadan təsəvvür etmək mümkün deyil. Kənardan baxanda Gəncə çinarların kölgəsində yaşayan, nəfəs alan, nəfəsini gələcək nəsillərə ötürən bir şəhər təsiri bağışlayır. Burada hər bir çinar sanki canlı heykəldir. Onların gövdəsində minillərin izi var. Qədim şəhərin şahidi olan çinarlar elə bil ki, tarix yazır, hər yarpağı bir xatirəni pıçıldayır.

Eh, bu çinarlar nələrdən keçməyib... Gəncə xanlığının qürurlu günlərini görən var, müharibələrin, qırğınların, harayların səsini eşidən şahidlər var. Amma hamısı bu şəhərin taleyi ilə birləşib, onunla nəfəs alıb, onunla yaşayıb. Bu gün Gəncənin ən çox sevilən guşələrindən olan Xan bağını təsəvvür edin. Bəlkə də heç kim düşünmür ki, burada ucalan çinarlar təkcə yaşıllıq, kölgə deyil, həm də əsrlərin izini, şəhərin keçmişini daşıyır. İnsanlar ailəsi ilə gəzintiyə çıxanda, uşaqlar oynayanda, gənclər görüşəndə çinarların kölgəsi onları qoruyur. Adama elə gəlir ki, bu ağaclar olub-keçənləri bir daha yada salmamaq üçün belə susqundurlar, ehtiyatlıdırlar. Elə bil yarpaqların pıçıltısı da hər addımda “mən burdayam, əsrlərdir sizi gözləyirəm, sizi qoruyuram” deyir.

Xatırlatmaq yerinə düşər ki, ulu öndər Heydər Əliyev də Gəncədə Xatirə parkında çinar əkmişdi. Elə bilirsiniz bu, dövlət başçısının sadəcə bir ağacı əkmək təntənəsi idi? Xeyr! Bu, gələcək nəsillərə ünvanlanan bir mesaj idi: “Köklərinizə bağlı olun, yaddaşınızı qoruyun, yaşayın və yaşadın” demək idi. Yəqin o da yadınızdadır ki, Ulu öndərə əvvəlcə əkmək üçün ayrı bir ağac gətirmişdilər. Müdrik insan isə onu dərhal geri qaytararaq “mənə çinar gətirin, çinar ucalıq rəmzidir”, demişdi. O çinar bu gün də ucalır, şəhərin simvoluna çevrilən minlərlə çinarın sırasına qoşularaq Gəncənin yaddaşını, ruhunu tamamlayır, yüksəlişi tərənnüm edir...

Yaşlı gəncəlilər danışanda çinarların şəhərin həyatında necə mühüm rol oynadığını daha yaxşı duyursan. Akademik Fuad Əliyev deyir: “Biz uşaqlığımızı çinar kölgəsində keçirmişik. Elə bil ki, həmin kölgə bizi böyüdüb, tərbiyə edib. O ağaclar bizimlə nəfəs alıb, bizimlə danışıb”.

Mütəxəssislər isə çinarların ekoloji dəyərini vurğulayırlar. Onların sözlərinə görə, bir böyük çinar avtomobillərin havaya buraxdığı zərərli qazı udur, şəhərin nəfəsini təmizləyir. Bu səbəbdən çinarlar təkcə tarix və yaddaş deyil, həm də bugünkü həyatımızın sağlamlığı, sabahımızın təminatıdır. Gəncənin sayılıb-seçilən ağsaqqalı, kənd təsərrüfatı elmləri doktoru Zaur Həsənov bütün varlığı ilə təbiətə, çinarlara vurğunudur. Hətta Xan Bağında hansısa bir çinar budağının quruyub yerə düşməsini görən kimi ərkyana tərzdə mənə zəng edir: “ müxbir qardaş, bir çinar da belə getdi...”

“Bir çinar da belə getdi...” deyimi hələ qəzet “Kommunist” qəzetində Gəncədən qələmə aldığım tənqidi yazımın sərlövhəsi idi və professor dostum həm də onu xatırladır.

Gəncə küçələrini çinarsız təsəvvür etmək sadəcə mümkün deyil. Yazın ilk günlərində tumurcuq açan yarpaqlar sanki yeni həyatın başlanğıcını, gəncliyi, ümidləri xatırladır. Yayda isə günün ən qızmar vaxtında kölgəsinə sığınanlar üçün çinar bir ev, bir ocaq kimi olur. Çinar kölgəsi altında söhbətlərin, görüşlərin, uşaq gülüşlərinin izi qalır.

Bax, elə bu günlərdə, payızda saralan yarpaqlar şəhərin sükutunu daha da poetikləşdirir, qışda isə çılpaq budaqları belə bir rəmzə çevrilir. Bilmirəm, fikir vermisinizmi, çinarlar Gəncə insanının xarakterinə də bənzəyir: uca, köklü, möhkəm. Zamanın tufanlarına sinə gərib əyilməyən, əsrlərdən bəri ucalığını qoruyan bir abidə kimi. Hər çinar Gəncənin yaddaş kitabında bir səhifədir. Gəncəlilər üçün çinar yalnız ağac deyil, qürur, sədaqət, köklərə bağlılıq deməkdir. Görün gəncəli şair, mərhum Rübail bunu necə gözəl ifadə edib:

**Çinarın hər şeydən gözləri toxdur,**
**Əkib becərənlər ondan nə dərdi?**
**Kim deyir çinarın meyvəsi yoxdur,**
**Onun meyvələri gəncəlilərdir.**

Bu çinarların altından neçə-neçə toy karvanı keçib, neçə-neçə şair onlardan ilham alıb. Əgər bir gün Gəncə çinarsız qalsa, bu şəhər sanki yetim qalar. Küçələrin ruhu, meydanların səsi, bağçaların ləzzəti qaçar. Ona görə də çinarları qorumaq hər birimizin borcudur. Mütəxəssislər bildirirlər ki, yeni salınan park və küçələrdə mütləq çinarlar əkilməli, kök atanlar isə xüsusi qayğı ilə qorunmalıdır. Çünki hər bir çinar əslində bizim gələcək nəsillərə ötürdüyümüz yadigardır. Əgər bu yaddaşı qorusaq, həm özümüz, həm də şəhərimiz əbədi yaşayar.

*Hamlet QASIMOV,*
*XQ-nin bölgə müxbiri*

**Gəncə**

# Təbiət payızı külək, yağış, dolu və sulu qarla qarşılayır

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, gün ərzində əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin 18-dən 19-na keçən gecə və axşam bəzi yerlərdə yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Mülayim şimal-şərq küləyi axşam şimal-qərb küləyi ilə əvəzlənəcək, gecəyə doğru arabir güclənəcək.**



Havanın temperaturu gecə 16-19, gündüz 21-26 dərəcə isti olacaq. Atmosfer təzyiqi 757 millimetr civə sütunundan 753 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 70-75, gündüz 50-55 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir leysan xarakterli yağış yağacağı, şimşək çaxacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə intensiv və güclü olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Arabir duman müşahidə ediləcək. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 14-17, gündüz 18-23, dağlarda gecə 2-6, gündüz 7-12 dərəcə isti olacaq.

*Q.ƏLİYEV*
*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq” qəzeti redaksiyası” MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3540
SİFARİŞ 1744
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mehparə ƏLİYEVA

Çapa imzalanmışdır 00:00